AŞIQ ALI

# Nə qaldı

Kitabda görkəmli el sənətkarı Aşıq Alının fərqli mənbələrdən götürülmüş, aşıq ədəbiyyatının ən müxtəlif janrlarında olan şeirləri toplanıb. Əldə olan mətnlərə tənqidi yanaşan tərtibatçı çoxsaylı deyim və sözlərə, dini-mifoloji məfhumlara aydınlıq gətirmiş, cinasları yenidən qurub şərh etmişdir. Bu kitabla Aşıq Alı irsi ilk dəfədir ki, oxuculara tam şəkildə çatdırılır. Kitab folklorşünaslar, aspirantlar, tələbələr, orta məktəblərin ədəbiyyat müəllimləri, aşıq şeiri həvəskarları və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

**Kitab tərtibçinin şəxsi vəsaitiylə çap olunub**

Toplayanı və tərtib edəni:
**İlham Qəhrəman**

Redaktor:
**Əsəd Cahangir**

Rəyçi:
**Telman Hüseyn**

Məsləhətçi:
**Məhərrəm Qasımlı**
*Azərbaycan Aşıqlar Birliyinin sədri,*
*Əməkdar elm xadimi, professor*

Korrektorlar:
**Əyyar Tahirov, Nigar İlhamqızı**

**Aşıq Alı. NƏ QALDI**
Bakı, Qanun nəşriyyatı, 2019, 400 s.

QANUN nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-796-6

© İlham Qəhrəman, 2019
© QANUN nəşriyyatı, 2019

# KÖNÜL İŞİ

*Hörmətli oxucu!*

Əlinizdəki kitabda Haqq aşığı Aşıq Alının çağdaş və gələcək nəsillər üçün əvəzsiz xəzinə olan ədəbi irsi toplanmışdır. Tərtib etdiyimiz kitabda qarşıya qoyulan əsas məqsəd aşığın indiyə qədər işıq üzü görmüş kitablarında necə gəldi çap edilən cinaslarının düzgün qurulması və ətək şərhinin verilməsi olmuşdur. Belə hesab edirik ki, müasir oxucunun hamısı şeirdə cinas sözləri oxuyarkən hazırlıqlı olmur, bu zaman kömək kimi cinası izah etmək zərurəti yaranır. Həm də cinası düzgün oxumaq, düzgün qavramaq şeirin müəllifinə və ədəbi irsinə ehtiram əlamətidir. Hər bir müəllif istər ki, onun fikirləri oxucu tərəfindən deyildiyi kimi qavranılsın. Ona görə də biz usanmadan bu işi gördük. Bunun üçün əlimizin altında olan bir sıra yazılı və elektron mənbə tədqiqat obyektinə cəlb edilmişdir. Bəri başdan onu deyək ki, bu iş həm çox məsuliyyətli, həm də ağır bir işdir. Bəzən bir təcnisin cinaslarının qurulub şərh edilməsinə günlərlə vaxt lazım olmuşdur. Azərbaycan aşıq sənətində silinməz iz buraxmış Aşıq Alı kimi ustad

sənətkar heç vaxt şeirdə forma və məzmuna yatmayan, qəlibdən kənara çıxan ağzıgünə misra yazmazdı. Təəssüf hissiylə qeyd edirik ki, böyük sənətkarın indiyə qədər çap edilən kitablarının hər birində belə qüsurlarla rastlaşırsan. Aşıq Alının katiblər tərəfindən dəyişiklik edilmədən, zədəsiz gəlib günümüzə çatan şeirləri də çoxdur. Həmin şeirlər bu kitabda işimizi uğurla görməkdə, səhv mətnləri əslinə çevirməkdə əlimizdən tutmuşdur. Xalça bilicilərinə qədim xalçaları çeşnisindən, əriş-arğacından tanıyıb hansı məktəbə aid olduğunu müəyyən etmək mümkün olduğu kimi, şairin şeirlərini də onun üslubu, intonasiyası, dəstxətti və sözün səmtiylə müəyyən etmək olur. Ona görə də bu iş tədqiqatçıdan son dərəcə diqqətli və səbrli olmağı tələb edir.

Qeyd etmək lazımdır ki, Alının o şeirləri ki, katiblər tərəfindən heç bir müdaxiləyə məruz qalmayıb (cinası qura bilməsələr də öz ağıllarına gələn şəklə salaraq, məzmunu dəyişməyiblər) o şeirlərdə cinası qurmaq tədqiqatçıya asan olur. Yəni, cinası hər bənddə məzmunun tələbinə uyğun qurub (ilkin variant) şərh etmək olur. O şeirlərdə ki cinaslar katiblər tərəfindən bu və ya digər şəkildə şəkil dəyişikliyinə məruz qalıb, o yerdə iş çətinə düşür. Vaxtilə, cinas ustadı Sarı Aşığın irsini toplayıb cinaslarını qurduğumuza görə deyə bilərik ki, cinasın bizimkilər tərəfindən naşılıqla (səhv) qurulmasının (cinasın hər bənddə az qala eyni mənanı daşıması anlamında işlədilməsi və s.) bir səbəbi də ədəbi mətnin ərəb əlifbasından kiril və latın əlifbasına köçürülməsi zamanı baş vermişdir. Fikrimizə söykək üçün Aşıq Alının bacısı Pərinin nəvəsi Səməd İsmayıloğlunun

arxivindən götürülüb qohumu Telman Hüseyn Anadilin “Ağ dəftər” kitabında dərc olunmuş (“Elm və təhsil”, Bakı, 2018, s.186) “Baxdı, yara bağladı” adlı cığalı təcnisindən burda bir misal göstərək:

*Qövr eləyir canda zəxmi müttəsil,*
*Çeşmim çeşmə baxdı, yara bağladı.*
*Aşıq deyər, bağladı,*
*Kari-bağban bağladı.*
*Koma qurdum, dər saldım,*
*Fələk nə tez bağladı?!*
*Məftun oldum, canan məlhəm qoymadı,*
*Bilməz aşıq baxtı yara bağladı.*

*Nainsafa müsaidin yan aram,*
*Mahcamallar mehribansa, yanaram.*
*Aşıq deyər, yan aram,*
*Yavuqlaşma, ya naram!*
*Əbəs gəl ataşləmə,*
*Öz-özümə yanaram.*
*Qaibana dildar sevdim – yanaram,*
*Aqil baxdı, baxdı, ya rəb, ağladı.*

*Mələk misal, gəl Alını yarıdağ,*
*Etmə, qəlbin yarı möhnət, yarı dağ.*
*Aşıq deyər, yarıdağ,*
*Yarı dəşti, yarı dağ.*
*Cəhdim səri kuyindi,*
*Qət eylədim yarı dağ.*

*Nakam Fərhad fəraqından yarı, dağ,*
*Əbəs baxtın baxtıyara bağladı.*

birinci bəndin ikinci misrasının cinası – *Çeşmim çeşmə baxdı, yara bağladı* – yara bağlamaq, vərəm bağlamaq mənasındadı;

birinci bəndin dördüncü misrasının cinası – *Bilməz aşıq baxtı yara bağladı* – bəxtini yara, sevgiliyə bağlamaq mənasındadı;

ikinci bəndin cinası – *Aqil baxdı, baxdı, ya rəb, ağladı* – Allaha xitabdı, baxıb ağladı mənasındadı;

sonuncu bəndin cinası – *Əbəs baxtın baxtıyara bağladı* – mənası aydındı;

kitabda və elektron mənbədə şeirin bütün cinasları cinasın hər misrada yeni məna vermək qaydasının ziddinə olaraq, *"yara bağladı"* şəklində gedir ki, sözsüz bu redaktə səhvdir. Misalda yuxarıdakı fikrimizə nümunə olacaq cinas ikinci bəndin cinasıdır – *Aqil baxdı, baxdı, ya rəbb, ağladı* – şeirin ərəb əlifbasından başqa əlifbaya *"ya rəbb, ağladı"* cinası da (xitab) oxşar yazılış olduğu üçün *"yara bağladı"* şəklində köçürülüb. O yerdə ki səhv olsa da cinası təşkil edən sözlər, hərflər dəyişikliyə məruz qalmayıb sonradan bu mətnlə işləmək cinası bilən şəxsə asan olur. Çünki, söz sözü çəkib gətirir, söz sözü tanıyır. Yəni tərtibçi konteksti (məzmunu) əlində tutalğa edib sözü səmtiylə tanıya bilir, harda hansı söz olduğunu yerinə qoymaqda çətinlik çəkmir.

Aşıq Alının ilk şeirlər kitabını ("Aşıq Alı", Bakı, 1975) toplayıb çap etdirmiş şəxs kimi hörmət və ehtirama layiq olan Hüseyn Hüseynzadə (Hüseyn Arif) yazırdı *"... hafizələr nə qədər güclü olsa da kitab deyildir"*. Aşıq Alının bəzi

şeirlərinin əlimizə təhrif olunmuş şəkildə yetişməsinin bir səbəbi də yaddaşlardan qüsurlu qələmə alınmasıdır.

Burda onu da demək yerinə düşər ki, Aşıq Alının kitablarına həm Dirili Qurbaninin ("Qızların"), həm də Xəstə Qasımın ("*Bir elə mövlanın tut ətəyindən"* misrasıyla başlayan "Eylər-eylər") şeirləri salınıb (Aşıq Alının özünün də "Eylər-eylər" rədifli başqa bir şeiri var). Biz həmin şeirləri Alının bu kitabına salmadıq. Göyçə söz adamlarının məsləhətiylə Alının indiyə qədər dərc olunmuş kitablarında yer alan "Qabaqdan" şeirini də Aşıq Ələsgərə (şeir bəzi mənbələrdə Şair Məmmədhüseynin də adına gedir) aid olduğu iddiasını nəzərə alıb kitaba salmadıq. Bu bizə görə aşıq ədəbiyyatımızın hər dörd Haqq aşığının ruhuna hörmətdi.

Vaxtilə, Aşıq Alının yubileyi ərəfəsində kitabını nəşrə hazırlayanlar ya səhvən, ya qeyri səbəbdən onun şeirlərinin içərisinə Aşıq Alı yaradıcılığına aid olmayan xeyli dəyərsiz şeir salmışlar. Cinas ustadının kitabında onun adına çıxılan, qoşmanın adi texniki tələblərinə belə cavab verməyən (qafiyələri uyğun gəlməyən), heç bir ədəbi-bədii dəyəri olmayan xeyli şeir var ki, onları ayırd (saf-çürük) edib qırağa qoyduq. Birmənalı olaraq, kitablarda gedən səhvlərə baxmayaraq, Alı irsinin toplanmasında və çapında xidməti olan hər kəs ehtirama layiqdir. Burada istifadə olunan yazılı mənbələrin (kitablar) adını çəkmək və haqqında bəzi qeydlər yerinə düşər:

1. "Aşıq Alı" ("Azərbaycan Dövlət Nəşriyyatı", Bakı, 1975), toplayan və tərtibçi Hüseyn Hüseynzadə (Hüseyn Arif);
2. "Aşıq Alı" ("Yazıçı", Bakı, 1982), toplayıb tərtib edənlər Əli Əmirov, Şamil Əsgərov, Mürsəl Həkimov;

3. “Xalqımızın deyimləri və duyumları” (“Maarif” nəşriyyatı, Bakı, 1986), toplayıb yazıya alanı, işləyəni və tərtib edəni Mürsəl Həkimov;

4. “Aşıq Alı, Əsərləri” (“Avrasiya Press”, Bakı, 2006), tərtib edəni Hüseyn İsmayılov;

5. “Aşıq Alı, Əsərləri” (“OL” MMC, Bakı, 2013) tərtib edən və redaktor Qabil Zimistanoğlu.

Vaxtilə *“Mən Alını axtarıram”* adlı məqaləsiylə ölkə mətbuatında çıxış edən Hüseyn Arifin tərtib etdiyi kitab Alı irsinin toplanması istiqamətində ilk özül daşı sayılmalıdır. Ondan sonra ustad aşığın xalq arasından əsərlərinin toplanması işi vüsət almış və şeirləri respublikanın bir çox qəzetlərində (o cümlədən rayon qəzetlərində) çap olunmuşdur.

Kollektiv tərtibçilər tərəfindən 1982-ci ildə nəşr edilən kitaba düşən şeirlər digər kitablarla müqayisədə ilkin varianta daha yaxın şəkildə verilmişdir. Amma bu kitabdakı şeirlərdə də cinasların səhv qurulmuşu var. “Nə gözəl, gözəl” (s.89) təcnisinin birinci və ikinci bəndi belə getmişdir:

*Nazlı canan, nə şahanə gəzirsən,*
*Dolandın gülşəni nə gözəl-gözəl.*
*Bax şümşad əlinə, şəhla gözünə,*
*Qüdrət xəlq eyləyib nə gözəl-gözəl.*

*Adət budur həmsər sərin dolana,*
*Qəza tutmaz həm sər sərin dolana*
*Gözəl əyal, həm sərsərin dolana,*
*Ondan həbib olmaz, nə gözəl-gözəl.*

olmalıdır:

*Nazlı canan, nə şahanə gəzirsən,*
*Dolandın gülşəni nə gözəl, gözəl.*
*Bax şümşad əlinə, şəhla gözünə,*
*Qüdrət xəlq eyləyib nə gözəl göz, əl.*

*Adət budur həmsər sərin dolana,*
*Qəza tutmaz həm sərsərin dolana ,*
*Gözəl əyal, həmsər sərin dolana,*
*Ondan həbib olmaz, nə gözəl, gözəl.*

Həmin kitabda Alı qələminə, dəsti-xəttinə, üslubuna yad olan (səh, 9; 14; 99 və s.) şeirlər də yer almışdır ki, onları bu kitabda vermədik. İki şeir isə (s.82-83) bir-birinə qarışmışdır. Eyni zamanda bəhs edilən kitabdan Aşıq Alının indiyə qədər çap olunmuş başqa kitablarına düşməyən 17 şeir tərəfimizdən götürülmüşdür. Bunlar aşağıdakılardır:

qoşmalar bölməsindən – "Bilmərəm", "Gəlmişəm", "Deyərlər", "Yetirdin", "Şafada", "Tükəzban", "Dolanım", "Bu yerə", "Alı", "Ay Sona", "Eylər";

ustadnamələr bölməsindən – "Vermə", "Olmuşam";

təcnislər bölməsindən – "Sayana, xanım", "Balaxanım", "Bu dağa", "Ya dəli dəysə".

Mürsəl Həkimovun tərtibçiliyi ilə 1986-cı ildə çapdan çıxan "Xalqımızın deyimləri və duyumları" kitabında gedən "Aşıq Alının Türkiyə səfəri" dastanından aşığın indiyə qədər heç bir kitabında rast gəlmədiyimiz 2 şeiri götürülüb bu kitaba salınmışdır. Bunlar "Öldürür" və "Sazım" şeirləridir. Yeri gəlmişkən "Aşıq Alının Türkiyə səfəri"

dastanının kitablarına düşmüş digər variantından da kitaba şeirlər salınmışdır. Onların bəzisi bədii-estetik gözəlliyinə görə deyişmələrdən seçilmişdir. Dastandan götürülmüş mətnlərin üzərinə işarə qoyularaq səhifə ətəyində mənbə göstərilmişdir (belə mətnlər 15-dir).

2006-cı ildə Hüseyn İsmayılovun tərtibçiliyi ilə nəşr olunan "Aşıq Alı, Əsərləri" kitabı Aşıq Alı irsinin az toplanması ilə seçilir. Alının zəngin təcnislərindən kitabda az qismi yer almışdır ki, onların da cinası qüsurlu verilmişdir. Sözə söykək üçün kitabda səhv gedən təcnislərdən bir neçəsini misal göstərək:

"Damı dayansın" (səh.105) təcnisinin birinci bəndinin son misrası belə getmişdir –

*"Qiyamət oduna damı da yansın"*,

olmalıdır –

*"Qiyamət oduna damıda yansın"*. "Ərəb və fars tərkibli sözlər lüğəti"ndə damı sözünün bir mənası da fars dilində cəhənnəm deməkdir;

"De bir üz-bir üz" (səh.106) təcnisinin birinci bəndinin son misrası belə getmişdir –

*"Yetirin loğmana, de bir üz-bir üz"*,

olmalıdır –

*"Yetirin loğmana, de birüz-birüz"*. Aşıq misrada biriniz məni loğmana yetirin deyir.

"Aya qalmasın" (səh.107) adlı təcnisin birinci bəndinin hər iki cinası səhvdir:

getmişdir –

*Bimürvət yar məni candan eylədi,*
*Tutubdu dəstində ayaq almasın.*
*Gəzdim dostun baxçasına seyr etdim,*
*Görmədim bağında ayaq almasın.*

olmalıdır –

*Bimürvət yar məni candan eylədi,*
*Tutubdu dəstində ay ağ almasın.*
*Gəzdim dostun bağçasını seyr etdim,*
*Görmədim bağında ay ağ almasın.*

ikinci misranın cinasında almazdan (kəsərdən), dördüncü misranın cinasında isə meyvədən (ağ almadan) söhbət gedir.

Qeyd edilən kitabda eyni zamanda xeyli qurama şeir yer almışdır. 56-cı səhifədəki "Düşmüşəm" adlı mətn qoşma bölməsində getmişdir. "Balaya", "nara", "ahu-zara" və "daşa" qafiyələri qoşmaya nə qədər uyğundur. 67-ci səhifədə qoşma adına gedən "Gözəldir" şeirinin qafiyələri "çeşmələri", "əllər", "dadı", "çiçəkləri" kimi bir-birinə uyğun gəlməyən qafiyələrdir ki, kitabda bu cür şeir çoxdur. Eyni zamanda 53-cü səhifədə gedən "Könül" qoşması o dövr aşıqlarına xas ənənədən kənara çıxaraq möhürbəndsiz verilmişdir.

2013-cü ildə Qabil Zimistanoğlunun tərtibçisi və redaktoru olduğu "Aşıq Alı, Əsərləri" kitabı Aşıq Alı əsərlərini özünə qədərki kitablar içində ən çox cəmləyən kitab kimi səciyyələnir. Belə üstün məziyyətinə baxmayaraq, təəssüf ki, kitabda Alı ustalığına, üslubuna yad xeyli qüsurlu (qura-

ma) şeirlər getmişdir. Məsələn, kitabda qoşma kimi gedən şeirlərin bir qismi – "Deyirəm" (s.54), "Ola bilməz" (s.80), "Amandı" (s.81), "Yavaş-yavaş" (s.84), "Yetişdi" (s.85), "Bax" (s.86), "Əli" (s.92), "Gətirmişəm" (s.96), "Yaxşıdı" (s.97), "Bax-bax" (s.98), "Çəkibdi" (s.99), "Getdi" (s.99), "Gözəldi" (s.101), "Bilinməz" (s.119), "Düşmüşəm" (s.157) – qafiyə sarıdan qoşmanın tələblərinə cavab vermir. Bu şeirləri ayıq gözlə oxuyan oxucu şeirlərin qəlibə oturmadığını dərhal hiss edər. Bundan başqa kitabda çoxlu redaktə səhvi, misralarda kontekstdən (məzmundan) kənar sözlər getmişdir. Zənnimizcə, Aşıq Alının kitabı qalın olsun deyə bu yolu tutmaq səhvdir. Xalqımız belə yerdə gözəl deyib: sayı çox, sanbalı yox.

Ustad aşığın günümüzə mükəmməl gəlib çatmış şeirlərini düzgün tərtib edib çap etmək onun ruhuna ən gözəl ehtiramdır. Onun kimsənin şeirinə ehtiyacı yoxdur. Öz şeirləri onu bir şair kimi həmişə zirvədə tutacaqdır.

Əziz oxucu, burda onu da deməyi özümüzə borc bilirik ki, adı çəkilən kitablar olmasaydı, bizim tərtib etdiyimiz kitabı belə əhatəli şəkildə ortaya qoymaq işi çox çətin olardı. İstinad edilən ədəbiyyatların çoxluğu həm də bəzi zədəli şeirlərin müqayisəli şəkildə tərəfimizdən araşdırılıb üzləşdirilməsi yoluyla daha düzgün variantı seçməkdə bizə yardımçı oldu. Bu mənada Aşıq Alı irsini toplayıb tərtib edən hər kəs hörmət və ehtirama layiqdir.

Bundan başqa "Cinaslar" (Bakı, Yazıçı, 1985, tərtibçilər Məmməd Aslan və Elxan Məmmədli) və "Aşıq ədəbiyyatı antologiyası" (Bakı, 2017, I cild, tərtibçilər Məhərrəm Qasımlı və Mahmud Allahmanlı) nəzər etdiyimiz kitablar

içərisində olmuşdur. “Cinaslar” kitabından Alının 3 gözəl şeiri – 1 cinas gəraylısı (“Oyanam mən”) və 2 təcnisi (“Yarasan məni”, “Ay beləsi nə”) götürülmüşdür .

Adları çəkilən kitablarda rast gəldiyimiz səhv sözləri kontekstin (misradakı məzmunun) tələbinə uyğun olaraq ilkin varianta qaytardıq. Oxucuya və ədəbi aləmə maraqlı ola biləcəyini nəzərə alıb şeirlərdə düzəltdiyimiz (dəyişdirdiyimiz) sözlərin bəzisini (bu həm də bəzi ağzıgöyçəklərdən özümüzü sığortalamaq məqsədiylə edilir) nümunə olaraq aşağıda veririk:

getmişdir:

*“Yüklənibdir qəflə, qatır, barxanam,*

*Fənadan üçvaya köçürəm bu gün.”* (s.69, “Aşıq Alı”, Yazıçı, 1982)

olmalıdır:

*“Yüklənibdir qəflə, qatır, barxanam,*

*Fənadan üqbaya köçürəm bu gün.”* (Bu dünyadan axirət evinə (üqba – ərəbcə axirət evi, o dünya deməkdir) köçməkdən söz edilir).

“Bu gün”;

getmişdir:

*“Beş surə Zənburdan, üçü Tövratdan,”* (s.119, “Aşıq Alı, Əsərləri”, “OL” MMC, Bakı, 2013), (s.75, “Aşıq Alı”, Yazıçı, 1982)

olmalıdır:

*"Beş surə Zəburdan, üçü Tövratdan,"* (səmavi kitablardan bəhs edilir)

"Asan";

getmişdir:

*"Behiştin meyvəsi başdan-ayağa*
*Yetişdi Səncərin budağı tək-tək."* (s.47, "Aşıq Alı, Əsərləri", "Avrasiya Press", Bakı, 2006), (s.33, "Aşıq Alı", "Azərbaycan Dövlət Nəşriyyatı", Bakı, 1975)

olmalıdır:

*"Behiştin meyvəsi başdan-ayağa*
*Yetişdi şəcərin budağı tək-tək."* (ağacdan bəhs edilir – şəcər ağac deməkdir)

"Tək-tək";

getmişdir:

*"Guşeyi-izətdə xaba dalmadım,"* (s.115, "Aşıq Alı, Əsərləri", "OL" MMC, Bakı, 2013), (s.76, "Aşıq Alı", Yazıçı, 1982)

olmalıdır:

*"Guşeyi-izlətdə xaba dalmadım,"* (guşeyi-izlət fars dilində tənhalıq guşəsi mənasını verir)

"Mənəm"

getmişdir:

*"Deyər Aşıq Alı meydan içində,*
*Oxudum dərsimi meydan içində,*
*Doxsan min kəlməni meydan içində,*
*İsbat eylə, sübut eylə dal-dala."*

(s.158, “Aşıq Alı, Əsərləri”, “OL” MMC, Bakı, 2013), (s.102, “Aşıq Alı, Əsərləri”, “Avrasiya Press”, Bakı, 2006)

olmalıdır:
*“Deyər Aşıq Alı meydən için də,*
*Oxudum dərsimi meydan içində,*
*Doxsan min kəlməni meydan içində,*
*İsbat eylə, sübut eylə dal-dala.”*
“Dal dala”;

getmişdir:
*“Rüstəm qəhrəmanı, Zalı deyirəm,*
*Səxavətdə Hatəm hanı deyirəm?!*
*Alıyam koxanı, xanı deyirəm,*
*Düşəcək qovğaya bil yavaş-yavaş.”*

(s.30, “Aşıq Alı”, “Azərbaycan Dövlət Nəşriyyatı”, Bakı, 1975), (s.84, “Aşıq Alı, Əsərləri”, “OL” MMC, Bakı, 2013), (s.46, “Aşıq Alı, Əsərləri”, “Avrasiya Press”, Bakı, 2006)
qoşmanın tələbinə görə misrada sözlərin yerini dəyişəndə forma düzəlir:

*“Rüstəm Zalı – qəhrəmanı deyirəm,*
*Səxavətdə Hatəm hanı deyirəm?!*
*Alıyam koxanı, xanı deyirəm,*
*Düşəcək qovğaya bil, yavaş-yavaş.”*

“Aşıq Alı, Əsərləri” (“OL” MMC, Bakı, 2013) kitabında “Ayilə ilə” adlı dodaqdəyməz ayaq təcnisdə (s.161) cinas

söz *"ay ilə-ilə"* olduğu halda birinci bəndin ilk beytində cinas *"ayilə ilə"* əvəzinə *"nazlı yar gələ"* şəklində getmişdir. "Aşıq Alı, Əsərləri" ("Avrasiya Press", Bakı, 2006) kitabında "Başa-baş" cığalı təcnisində (s.108) ikinci bəndi təşkil edən cinas *"bir qala"* olduğu halda üçüncü misrada *"Ağlayana can verməərəm nə qala"* şəklində getmişdir. Biz belə səhvlərin hamısını düzəldərək izahını vermişik. Adı çəkilən hər iki kitabda aşığın "Dal-dala" şeirinin (birinci kitabda s.158; ikinci kitabda s.102) başdan iki misrası məzmunun tələbinə uyğun gəlmir. Hər iki kitabda beyt belə getmişdir:

*"İsmin üç hərifdi elədim bəyan,*
*"Cim"di, "mim"di, yazılıbdı dal dala."*

Birinci misranın verdiyi informasiyaya görə şeirdə ərəb əlifbasındakı üç hərfdən bəhs edilir. Hər iki kitabda isə "cim" və "mim" var, üçüncü hərf isə yoxdur. H.Arifin tərtib etdiyi kitabda həmin şeirin bəhs edilən beyti belə getmişdir:

*İsmin üç hərifdi bəyan eləyim,*
*"Cim"di, "mim"di, "nun" yazılıb dal dala.*

("Aşıq Alı", Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1975, s.44)

Ərəb əlifbasında bu üç hərfin birləşməsindən "Məcnun" sözü yaranır. Sadəcə beytin ikinci misrasında hərflərin ardıcıllığı pozulmuşdur. Düzgün variant belədir:

*"İsmin üç hərifdi, eylədim bəyan,*
*"Mim"di, "cim"di, "nun" yazılıb dal dala,"*

Aşığın dörd şeir kitabının üçündə “Aşıq Alı”, (Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1975, s.33); “Aşıq Alı, Əsərləri” (“OL” MMC, Bakı, 2013, s.55); “Aşıq Alı, Əsərləri”, (“Avrasiya Press”, Bakı, 2006, s.47;) məşhur “Tək-tək” şeirinin ikinci bəndinin birinci beyti səhv redaktədə getmişdir:

*“Qətrəsi xəyatı, bədəni dürdən,*
*Xudam xəlq eyləyib bir qətrə nurdan.”*

Əslində beyt belədir:
*“Qətfəsi xəyyatı, bədəni dürdən,*
*Xudam xəlq eyləyib bir qətrə nurdan.”*

Qətfə ərəb dilində məhraba, geyim, libas, xəyyat isə dərzi deməkdir. Aşıq gözəli vəsf edir – libası dərzidən, bədəni dürdən...

Yenə adı çəkilən hər üç kitabda (müvafiq olaraq s.48; s.160; s.107) “Ayə məndədi” təcnisinin ikinci bəndinin təcnisi formanın tələblərinə cavab vermir:

*“Gəşt eylədim Bəsrə, Bağdad, Buxara,*
*İndi də gəlişim a Yəməndəndi.”*

beyt belə olmalıdır:
*“Gəşt eylədim Bəsrə, Bağdad, Buxara,*
*İndi də gəlişim a Yəmən dədi.”*

“Dəd” sözünün ərəb dilində bir mənası da “ovlaq” deməkdir. Biz belə xətaları kitabda müəyyən etdikcə düzəltmişik.

Yuxarıda sözü səmtiylə tanımaqdan bəhs etmişik. Oxucu maraqlana bilər bu necə olur?! İki kitabda (“Aşıq Alı, Əsərləri”, “OL” MMC, Bakı, 2013, s.300; “Aşıq Alı, Əsərləri”, “Avrasiya Press”, Bakı, 2006, s.168;) “Aşıq Alının Türkiyə səfəri” dastanında Alıyla Əsmərin deyişməsi zamanı Alının dilindən şeirdə belə bir misra gedir:

*“Mən məhək daşıyam qəlbi tanıram.”,*

misra belə olmalıdır:

*“Mən məhək daşıyam qəlpi tanıram.”*

Yenə adı çəkilən hər iki kitabda “Könül” (müvafiq olaraq s.82 və s.53 “*Bəd gəldi ruzigar, döndü zamana”* misrasıyla başlayan*)* şeirinin birinci bəndinin ikinci beyti belə getmişdir:

*O vaxt bənna idin bürc hasarında,*
*İndi də yatıbsan nə xanə, könül?!*

beyt belə olmalıdır:

*O vaxt bənna idin bürc hasarında,*
*İndi də yapıbsan nə xanə, könül?!*

Sözü səmtiylə tanımaq, sözün sözü gətirməsi deyəndə biz bunu nəzərdə tuturuq.

Kitabda toplanmış şeirlər janrlar üzrə bölünmüşdür. Bölgünün mənzərəsi və bölmələrə düşən şeir sayı belədir: Ustadnamələr 25; Qoşmalar 129; Güllü qafiyyə 2; Gəraylılar 23; Cinas gəraylılar 13; Ayaq təcnislər 8; Cığalı təcnislər

8; Təcnislər 51; Dodaqdəyməz təcnislər 6; Dodaqdəyməz cığalı təcnislər 3; Divanilər 27; Qəzəl 1; Qıfılbənd və bağlama 4. Sadalanan janrlar üzrə kitabda üst-üstə 300 şeir yer almışdır. Aşıq Alının Aşıq Əsmərlə 2, Aşıq Yığballa 1 və Naxçıvan səfərində Aşıq Sona ilə 1 deyişməsi də kitabda verilmişdir. Bundan başqa kitabda çətin sözlərin şərhi üçün sonda əlifba sırasıyla "Sözlük" tərtib etmişik. Kitabda şeirlərin adı (başlıq) aşıq şeir formasının qəbul olumuş qaydasına uyğun olaraq bəndin ilk beytinin qafiyyəsiylə və ya qafiyyə rədiflə adlanmışdır.

Onu da deyək ki, bizim istifadə etdiyimiz yazılı və elektron mənbələrdən başqa Alı yaradıcılığını tədqiq etdiyimizdən xəbər tutan qohumları onun əvvəlki kitablarına düşməyən əsərlərinin yerini bizə isnad verdilər. Məlum oldu ki, Bərdədə yaşayan şair dostumuz Telman Hüseyn Aşıq Alının heç bir kitabında çap olunmayan xeyli şeirini özündə qoruyub saxlayır. Həmin şeirləri ona ana tərəfdən qohumu, Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlu (Gədəbəy r., Slavyanka k.) göndərmişdir. Oxucuya aydın olsun deyə xatırladaq ki, Telman Hüseynin ana nənəsi Şəkər xanım da (vaxtilə Qızılvəngdən Vediyə gəlin gedib) Aşıq Alının bacısı Pəri xanımın nəvəsidir. Telman Hüseyn xeyirxahlıq edib həmin şeirləri şəxsi arxivindən bizə göndərdi. Şairin göndərdiyi Alı irsinin bir qismi ədəbi aləmə tanış olmayan, bir qismi isə kitablarda qüsurlu gedən şeirlərin dürüst variantları kimi çox dəyərlidir. Aşıq Alının kitabına ilk dəfə düşən şeirləri bunlardır:

ustadnamə – "Tapar", "Alar", "Yaxşıdı";

qoşma – "Zərnişan", "Gülöyşə", "Yetmədim", "Dünya", "Nə qaldı" (*"Talayıb mahalın malı-dövlətin"* misra-

sıyla başlayan), “Hələ”, “Mələk”, “Dərdimi”, “Tapılmaz”, “Neyləyim”, “Yeri”;

gəraylı – “Adıdı”, “Zarınandı”, “Səninlədi”, “Əlif-lam”;

təcnis – “Bir gözə ləli”, “Yarasan məni”, “Baxdı, yara bağladı” (cığalı təcnis) , “Sədala tək-tək” (təcnis-bağlama);

divani – “Dilimiz”, “Yüküm”, “İstərəm”, “Verir” (“*Bir mərdə qonaq gedəndə, gülə-gülə nan verir*” misrasıyla başlayan);

bağlama – “Gəlibdi”;

deyişmə – “Aşıq Sona ilə deyişmə”;

Bu mətnlərin üzərində işarə qoyulmaqla səhifənin ətəyində mənbə göstərilmişdir.

Əvvəlki kitablara səhv düşüb düzəldilmiş şeirlər:

qoşma – “Qocalmışam”, “Dolandırır” (*“Hər yetən hərcayı deyir aşığam”* misrasıyla başlayan), “Düşdü”, “İstərəm”; “İnciməsin”;

güllü qafiyə – “Dedi”;

gəraylı – “Nə miqdarı, dilbər”, “Birisin”;

divani – “Yuxusuz”, “Verir” (divani-ustadnamə), “Bax”, “Nədi”.

Bununla bərabər T.Hüseyn indiyə qədər kitablarda səhv getmiş bir çox şeirin arxivində olan ilkin, dürüst variantını bizə çatdırdı. Kitabımızın gözlədiyimizdən də sanballı və Alı şeirlərinin orijinalına yaxın şəkildə toplanıb tərtib edilməsində göstərdiyi böyük köməyə görə şair dostuma təşəkkür edirəm. Biz vaxtilə, Səməd İsmayıloğlunun Bərdənin Otuzikilər kəndindəki qohumlarına yazdığı məktublardan ikisinin (əlyazma) şəklini kitaba salmağı da lazım bildik. Hansı ki, bu məktublarda Səməd İsmayıloğ-

lu Aşıq Alının onda olan şeirlərini Bərdədəki qohumlarına göndərdiyindən və gələndə özüylə gətirəcəyindən bəhs edir.

Aşıq Alının irsi təkcə ədəbi yaradıcılıqla məhdudlaşmır, ona həm də bir sıra aşıq havalarının yaradıcısı kimi istinad edirlər. Mürsəl Həkimov "Azərbaycan aşıq ədəbiyyatı" (qədim və orta əsrlər, Bakı, Yazıçı, 1983) kitabında Aşıq Alıya isnad olunan aşıq havalarının adını çəkir. Bunlar: "Ağır şərili" (qoşmalara oxunur), "Qaytağı" ("Göyçə qaytağı", qəmli hava, qoşmalara oxunur), "Qəhrəmani" ("Həcəri", qoşmalara oxunur), "Gilənar" (qoşmalara oxunur), "Göyçə gülü" ("Kəvəri", qoşmalara oxunur), "Aşıq təsnifi" ("Qəmərcan", "Qaragöz", "Qaragöz bala", "Bu gecə", şən, şux, oynaq mahnı) və "El bayatı" ("Köç bayatı", bayatılara oxunur). Müəllif bu havalardan ikisini ("Göyçə gülü" və "Qəhrəmani") konkret Alının yaratdığını vurğulayır.

Alının ustadı Ağ Aşığın (Aşıq Allahverdi) xəbər-ətərsiz yoxa çıxmasına həsr etdiyi şeirdə ("Oldu") aralarındakı ustad-şəyird münasibətlərinin ata-bala qədər doğma və ülvi olduğu açıq-aydın görünür. Vəfalı şəyird kimi elm, ürfan əhli olan ustadının hicranına dözməyin onun üçün çətin, ağır olmasından bəhs edir. Belə bir kamil ustaddan dərs alıb ustadlaşan Alının sənət, xalq, el qarşısında bir xidməti də ənənəyə sadiq qalaraq öyrəndiyini, xalqdan aldığını özündən sonra gələn nəsillərə ötürməsi olmuşdur. Belə demək mümkünsə, Ağ Aşıqdan aldığı dərs Alı üçün sənət xəttiylə ona ötürülən bir el əmanətiydi və o, Aşıq Ələsgər kimi bir ustad yetişdirməklə həmin əmanəti ləyaqətlə özündən sonrakı nəsillərə qaytardı. Necə deyərlər, Göyçədə (dolayısıyla Azərbaycanda) xalqın tikilisiz, binasız milli ruhu yaşadan

məktəbi qorunub saxlandı. Təkcə qorunub saxlanmadı, o məktəb Alının simasında yeni çalarlar qazandı, inkişaf etdi. Aşıq Ələsgərin bir şəyird kimi xoşbəxtliyi onda idi ki, ustadı aşıq sənətində həm şeirləriylə (söz yaradıcılığıyla), həm də uzun illər ərzində qazandığı elmi və fəhmiylə zirvədə dayanırdı. Bizə görə Aşıq Ələsgərin də aşıq sənətində bir sənətkar kimi yetişməsində Göyçə aşıq mühitiylə yanaşı bu amil də mühüm rol oynamışdır: zirvədəki ustada çatmaq ustad qarşısında olan borcu ödəməyin ən gözəl yoludur! Şəyird nə qədər şan-şöhrət sahibi olarsa, ustad da xatırlanar. Təsadüfi deyil ki, xalq arasında bir adamın yaxşı əməlini görəndə "Ustadına bərəkallah!" deyirlər. Bu mənada şəyirdi Aşıq Ələsgərin timsalında ustadı Alıya çox "Bərəkallah!" çatdı.

Bir neçə kəlmə də Alının şeirlərində işlətdiyi təxəllüslər haqqında qeyd edək. Aydın Paşayev "Azərbaycan təxəllüsşünaslığının əsasları" (Bakı, 2016, s.26) kitabında yazır: – *"Görkəmli ustad aşıqlarımızdan olan, ömrünün müxtəlif dövrlərində öz şeirlərində Şeyx Alı, Təbib Alı, Təcnis Alı ("Azərbaycan müəllimi" qəz., 12 yanvar 1983), Şıx Alı, Dədə Alı, Loğman Alı ("Ulduz" jur. № 11, 1981) və s. təxəllüslərindən istifadə etmişdir. Lakin o, aşıq poeziyasında ancaq Aşıq Alı adı ilə şöhrətlənmişdir. Aşıq xalq arasında hansı adla adlanmışsa, öz şeirlərinin möhürbəndində də o adlardan təxəllüs kimi istifadə etmişdir"*. Bizim tərtib etdiyimiz kitabdakı şeirlərin möhürbəndində istinad edilən mənbələrə əsasən "Aşıq Alı" və az sayda da "Şıx Alı" təxəllüslərindən istifadə olunur. Bir şeirində isə ("Keçibdi") "Abdal Alı" təxəllüsünə rast gəldik.

Aşıq Alının doğum haqqında şəhadətnaməsini tərtib etməyə çalışsaq

*Camalın şövqündən dilim oldu təng,*
*Çayda balıq olar, dəryada nəhəng.*
*Mahalım Göyçədi, kəndim Qızılvəng,*
*Aşıq Alı birdir, birə bir gərək.*

doğum yerini qoşmalarının birindəki bu bənddən götürməli olacağıq – Göyçə mahalı, Qızılvəng kəndi, doğum tarixi isə 1801-ci ildir. Atası Mirzə dünyadan köçəndə bu münasibətlə yazdığı şeirdə vaysılanaraq deyir:

*Seyri-fələk dəhşət oldu Alıya,*
*Mirzə sayaq kim baxardı balıya?!*

Anası Fatma xanıma həsr etdiyi şeirdən gəlib əlimizə çatan sağır bənd belədi:

*Övladın qəhrinə ana dayanar,*
*Çəksə də ətəyin ha yana, yana.*
*Özgə gələr, ağız ağlar yan keçər,*
*Ana candan ağlar ha yana-yana.*

Şeirlərindən aldığımız informasiyaya görə Alının sağlığında atası, oğlu İsmayıl və “butam” deyə vəsf etdiyi Bəsdi xanım dünyasını dəyişmişdir. İsmayılın ölümüylə bağlı el arasında söyləyirlər ki, o can üstə olanda gecə aşıq ayaqlarını arxda soyuq suya salıb Allaha dua edirmiş ki, balası ölməsin. Ancaq, fani deyilən, onun sinəsinə bala dağı da çəkir. Belə güman etmək olar ki, əzizlərinin ölümünə elegi-

ya yazan Aşıq Alı anasının ölümüylə bağlı da şeir yazıb, ancaq həmin şeir bir çox şeiri kimi günümüzə gəlib çatmamışdır. Qənaətimizə görə, belə bir şeir 1938-ci ildə Kəlbəcərdə yanan əlyazmaların içində ola bilərdi (bu məqamda ustad şedevrlərinin aqibətinə görə təəssüflənməmək olmur). 19-cu əsri başa-baş yaşayan ulu sənətkar ömrünün son 16 ilini dünya işığına həsrət qalmış, 1911-ci ildə doğma kəndi Qızılvəngdə dünyasını dəyişmişdir. Yetkin yaşından aşıqlığa başlayan Alı şeirlərinin verdiyi informasiyaya görə, o dövr Azərbaycanın İrəvan, Gümrü, Təbriz, Naxçıvan, Ərzrum, Dərələyəz, Qarabağ kimi mahallarında məclislər aparıb. Sarıqamışdan, Muşdan, Kağızmandan (Alosman – Türkiyə), Reydən (İran), Bəsrədən, Bağdaddan (İraq) belə ölkələr gəzib, səfərlər etmişdir.

Alının şeirlərini oxuduqca onun nə qədər ilhamlı bir şair olduğuna şahidlik edirsən. Özünəməxsus, bənzərsiz misraları buğda sünbülü kimi doludur. *"Camalın şəmsidi, xilqət səcdədə,"* misrasıyla başlayan "Eylər" şeirini oxuyanda dilimizdən belə ustalıqla istifadə etdiyinə görə müəllifin ruhuna rəhmət oxuyursan. Ustad aşığın şeirlərində misralar dil baxımından rəvan və hamardı, köntöy yeri yoxdu. Aşağıda şairin müxtəlif şeirlərindən gətirdiyimiz misallar dediyimizə nümunədir: *"Alı bülbül oldu, dünya qəfəsi"; "Yar üçün gül dərib tutan əlindən, Yarpaq titrəməsin, şax inciməsin"; "Bəzirganam matahım var, alan yox"; "Hicran barkeşiyəm, dərd tüccarıyam"; "Qəm çəkdim bazara, alan olmadı"; "Şanə bil zülfünə badi-səbanı"...*

Canlı xalq danışıq dilindən ustalıqla istifadə etməsi, sadə xalq dilində yazması onun şeirlərinə olan xalq sevgi-

sini şərtləndirən əsas amildir. Təcnislərinə sadəcə heyrətdə qalırsan. Şeirlərdə adamı heyrətə salan onun bir şair kimi sadəliyə ustalıqla yanaşmasıdır. Şair bəzən təcnisi üç cinas sözdən qurub. Mən bu təcnislərə şərti olaraq "üçbaşlı təcnis" deyirəm. Aşıq təcnislərin hər bəndində cinasların üçündən də istifadə edir. Gərək diqqət edib misrada hansı cinasa vurğu edildiyini fəhm edə biləsən. Ustad sənətkar dövrünün qabaqcıl, seçilmiş insanı kimi səmavi kitabların dördünü də oxuyub, Quranı isə əzbər bilib. Klassik ədəbiyyatla yanaşı ərəb və fars dillərini təmiz bildiyi üçün onun təcnis yaradıcılığı bu qədər zəngindir. Divaniləri Aşıq Alının öz dövrünə görə dərin bilikli bir şəxs olduğuna aydınca işıq salır. Aşıq şeirinin bu janrında ustad çox sirlərə eyham edir. Orda həm dünyəvi elmlərdən, həm də dindən (ilahiyyatdan) gəlmə mətləblər yer almışdır. Şeirlərindən dolayısıyla Alının idarə etdiyi el məclislərində tam hazırlıqlı, dolu bir aşıq olduğu görünür. Bir şeirindən götürülən aşağıdakı beyt onun məclis aparmaq üçün aşığa, aşıqlığa nə qədər tələbkar yanaşdığı açıq görünür:

*Nəğməyə səs, saza barmaq, sözə dil,*
*Xirdarı-hikmətə aqil sər gərək.*

Ustadnamələrlə tanış olan oxucu az qala hər kəlmə başı zərb-məsəl ola biləcək ifadələrlə qarşılaşır. "Düzəldər" ustadnaməsi başdan-ayağa zərb-məsəl nümunəsidir. Aşağıdakı misralar ustadnamələrdən seçilmişdir: *"Peykəri kəcləri məzar düzəldər"; "Vərdişi biəncam azar düzəldər"; "Qəzaya sövq edən nəhr lal axar"; "Südlə gələn məzac*

*sümüklə çıxar”; “İblis əməllilər ayağa baxar”; “Alı, bədnamlıqdı gücsüzə zəfər”; “Fitnələr əhlidi hünərdən bifər”; “Sürmə sürtsən siyah qaşa, zay olar”; “Bir gecəlik xanə mehmana düşər”.*

Yaradıcılığında (daha çox ustadnamələrində) özündən sonra gələn aşıqlar üçün aşıqlığın qaydalarını, belə demək mümkünsə, nizamnaməsini yazıb böyük bir miras qoymuş şairin irsini toplamaq və şərh etmək il yarım vaxt apardı. Aşıq bir şeirində irsi haqqında deyir:

*“Ya əsli bimaram, ya zaram indi,*
*Dərdi-qəm əlindən yazaram indi.*
*Zəkam hökm eyləyir: yaz aram indi,*
*Mətnindən nişanə qala-qalmaya”.*

Özü və zəngin yaradıcılığı haqqında alçaqkönüllülükdən irəli gələn misralar yazsa da, “Nə qaldı” kitabını oxuyan hər kəs Alı yaradıcılığının xalqın mənəvi sərvətləri içində özünə yer aldığının fərqinə varacaq. “Alıdan nə qaldı?” sualının ən gözəl cavabı yenə “Nə qaldı” olacaq. Aşığın belə bir misrası da var:

*“Səmtsiz uçan səmasında azardı”.*

Dediyi kimi o heç vaxt səmtsiz uçmadı – ömrünü xalqın xeyir-şərində keçirdi, şeirlərində ağrılarına acıdı, sevinclərinə şərik oldu, vəsf etdi.

“Nə qaldı” kitabında istəyimiz Aşıq Alı yaradıcılığına, onun ustalığına yaraşan bir kitab hazırlayıb ortaya qoymaq olmuşdur. Əziz oxucu, biz bu işi könül işi kimi gördük. Ustadların ruhu əmanət qoyub getdikləri irsin taleyindən xatircəm və şad olsun!

***İlham Qəhrəman***

# USTADNAMƏLƏR

## DƏRİNDİ

Elə müəmmadır aşıq sənəti,
Bir isimdə dörd hikməti dərindi.
Şairdir, məzəkar, sazan, xoş avaz,
Fəth eylə, cəmini bəhrə dər, indi.

Bu məqamda əhsənlər var, minnət var,
Bir dərgahdı, içrə zülmət, cənnət var,
Firuddin[1] var, suluddin var, sünnət var,
Al matahın taybataydı, dər indi.

Aşıq oldun aqillərdən elm ara,
Arif məclisində gələrsən kara.
Hər hikmət söylənsə, tapmasan çara,
Çulğayar qəlbini dərdi-sər indi.

Huşyar ol, alim var, hikmətli söylər,
Elmi dayaz aşıq naçardı, neylər?!
Məclis küdrət çəkər, qəlbini teylər,
Bunu dərk etməzin əqli sərindi.

Yetmiş iki dildi, bir para taxta,
O ustad əlində dolanmaz saxta.
Gah başda dolandır, gah da ayaqda,
Eylə qəm evini dərbədər indi.

Adəmdən Hatəmə sazda dəlil var,
Anlamasan tərk et, meydan etmə dar.
Alı nəsihəti qalsın yadigar,
Xəbərdar olunsun bu xəbər indi.

[1] Çətin sözlər üçün sözlüyə bax.

## YAXŞIDI[1]

İnsan oğlu, doğru yolu düz yeri,
Bir doğruluq yüz min fənddən yaxşıdı.
Gözəlsiz otaqdan, meyvəsiz bağdan,
Viranəlik vecsiz kənddən yaxşıdı.

Bazara çıxanda müştəri dinməz,
Satdığa qoyanda heç kim bəyənməz.
Yoxuşda dirənər, enişdə enməz,
Piyadalıq yorğun atdan yaxşıdı.

Aşıq Alı deyər, könlüm avayı,[2]
Avayı olanda gəzər havayı.
Yeyəsən plovu, içəsən çayı,
Deməginən kartof ətdən yaxşıdı.

---
[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən
[2] Avayı – hərdəmxəyal (Qərbi Azərbaycanda dialekt söz)

## SÖZ OLDU

Fələk mənə cövr eylədi dünyada,
Yaxşı günüm yaman gündən az oldu.
Bəydən nəmər aldım, ağadan ənam,
Müxtəsəri, qazandığım bez oldu.

Mən xabi-qəflətdə yatıb qalmadım,
Nakəs adamlarla ülfət qılmadım.
Mülkə, vara, zərrə tamah salmadım,
Çox gördüm zər-ziba – bir gün toz oldu.

Cavanlığım qeybə çıxdı əlimdən,
Həlqə oldu gündən-günə belimdən.
Yaxın, uzaq incimədi dilimdən,
Şükür haqqa, əməllərim düz oldu.

Bir mürğitək leylü-nəhar hey uçdum,
Bilənlərdən bilmədiyim soruşdum.
Müxənnətlə, bimürvətlə vuruşdum,
Nakəslərin dərdi artıb yüz oldu.

Gəlib-gedir yaxşılar da, yaman da,
Qu tükündə, saman üstə yatan da.
Aşıq Alı, nə qazandın cahanda?!
Səndən qalan qatar-qatar söz oldu.

## BU GÜN

Dərs alanlar gəlib məndən dərs alsın,
Sinəmin dəftərin açıram bu gün.
Bir quş idim, qalmış idim yuvada,
Dövr edib havada uçuram bu gün.

Necə oldu atam, necoldu anam?!
Dağıldı hasarım, pozuldu binam.
Yüklənibdir qəflə-qatır, barxanam,
Fənadan üqbaya köçürəm bu gün.

Aşıq Alı mindi şəcərdən atı,
Oxundu üzümə əcəl baratı.
Qıldan çox nazikdir, qılıncdan iti,
Sirat körpüsündən keçirəm bu gün.

## NƏ QALDI

Gəşt eylədim, bu dünyanı dolandım,
Əllini aşırdım, yüzə nə qaldı?!
Ayaq getdi, əl gətirdi, diş yedi,
Baxmaqdan savayı gözə nə qaldı?!

Ölüm haqdı, çıxmaq olmaz əmirdən,
İpək tora halqa salma dəmirdən.
Aydır, gündür gəlib keçir ömürdən,
Tələsirik, görən yaza nə qaldı?!

Eşiyə çıxıram, hava məğşuşdu,
Gəzdiyim oylaqlar yadıma düşdü.
Bir gün eşidərsən: Alı da köçdü,
Sındı telli sazı, təzənə qaldı.

## NƏ QALDI[1]

Talayıb mahalın malı-dövlətin –
Apardı əyrilər, düzə nə qaldı?!
Gəzdim oba-oba üsyan elədim,
Kəsildi taqətim, dizə nə qaldı?!

Lənət gəlsin pis adamın pirinə,
Cəhd edər ki, xalqı sala dərinə.
Yetən söyər məzarına, goruna,
İrəhmət yaxşıya, – pisə nə qaldı?!

Bilmək olmaz təqdir yazan yazını,
Alıyam, çəkirəm elin nazını.
Bilmirəm ömrümün çoxu-azını,
Doxsana yetmişəm, yüzə nə qaldı?!

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən

## DOLANDIRIR

Hər yetən hərcayı deyir aşığam,
Setariyə[1] simi tel dolandırır.
Məddahı danışır, məddahı dinir,
Məclisdə bir yaltaq dil dolandırır.

Adam var ki, fikir, zikir eləyir,
Adam var ki, haqqa şükür eləyir,
Adam var ki, hiylə, məkir eləyir,
Aralıqda fitnə-fel dolandırır.

Aşıq Alı şər işlərdən qaşqındı,
Adam var ki, səxavətdə daşqındı.
Adam var ki, çörək versə çaşqındı,
Dalınca gözündən sel dolandırır.

---

[1] Birsimli musiqi aləti.

## DOLANDIRIR

Ay ağalar, gəlin sizə söyləyim,
Yəqin bu dünyanı pul dolandırır.
Kəsilib məhəbbət, qalmayıb hörmət,
Dövlətli dalınca mal dolandırır.

Bu dünyanın şərbətindən içməyən,
Körpü salıb, üstən karvan keçməyən.
Evdə arvadına sözü keçməyən,
Kənddə koxa olub, el dolandırır.

Aşıq Alı, halın oldu pərişan,
Ağ üzündə xalları var – hər nişan,
Binamus qohumdan namuslu düşman
Öldürsə, qəbrimdə gül dolandırır.

## KÖÇƏCƏK

Qoca dünya çoxun yola salıbdı,
Köçən köçüb, köçməyənlər köçəcək.
Qafil, içmə bu gün əcəl şərabın,
İçən içib, içməyənlər içəcək.

Necoldu var üçün qanlar tökənlər,
Əziz canın al qumaşa bükənlər?!
Unutmasın şərmü-xəta əkənlər,
Biçən biçib, biçməyənlər biçəcək.

Yazıq Alı, nə tez düşdün həvəsdən,
Sərraf olan seçər qızılı misdən,
Arif olan kəslər, yaxşını pisdən
Seçən seçib, seçməyənlər seçəcək.

## GƏRƏK

Yaxşı yerdə düşdün mənim cəngimə,
Cəngimdən çıxmağa bir hünər gərək.
Maya dura bilməz nər qabağında,
Meydana girməyə nərə nər gərək.

Saxla dilin, özün üçün qadağa,
Əlimdən gedərsən arana, dağa.
Şahin kimi göydə qanad açmağa,
Havada süzməyə balü-pər gərək.

Camalın şövqündən dilim oldu təng,
Çayda balıq olar, dəryada nəhəng.
Mahalım Göyçədi, kəndim Qızılvəng,
Aşıq Alı birdir, birə bir gərək.

## GƏRƏK

Şahin kimi şikar etmək havada,
Tərlantək süzməyə balü-pər gərək.
Nəğməyə səs, saza barmaq, sözə dil,
Xirdarı-hikmətə aqil sər gərək.

Gör hökmünu, qüdrətini dan anı,
Gördüm neçə aşıq adın dananı;
Kəl meydanı xar eyləyər dananı,
Sınaq meydanında nərə nər gərək.

Bu gərdişi gəl nə düşün, nə anla,
Annamazı nə tənələ, nə danla;
Ustad höcət aça bilməz nadanla,
Pür-hünər önündə pür-hünər gərək.

Şoranda şəcərə bara düşəmməz,
Əsvədin üzünə qara düşəmməz,
Fəzlin sahibkarı dara düşəmməz,
Cəfa çəkib itirəsən tər gərək.

Hikmət anlamayan, avazı olan,
Şəryətdən bixəbər, namazı olan,
Gəlməsin önümə hər sazı olan,
Şıx Alıya bir ər oğlu ər gərək.

## ALAR[1]

Bu dünyanı təcrübədən fəhm edən,
Əşyan qurar, körpü salar, ad alar.
Yüz namərdlə şəkər yesən ağıdı,
Bir mərd ilə ağu yeyən dad alar.

O qohumun, o taxılı, o unu,
Hamidardı, apar doldur xurcunu.
Qaytarmasan bir yumurta borcunu,
Aqibətdə tələb edib yad alar.

Alı, sözün fitnəlidi, fellidi,
Kitab-kitab sirrilərin həllidi.
Mərdin adı hünərindən bəllidi,
Nanəciblər əməlindən ad alar.

---

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən

## LAZIMDI

Bir kəs ki fənadan ünvansız köçə,
Diriykən yandırmaq nara lazımdı.
Dəyər əməldədi, şərəf köçərdi,
Vücud xakdan qeyri hara lazımdı?!

Hikmətdən yapıldı xilqət əndamı,
Axırda qalacaq bacasız damı.
Elə ömr eylə ki, yad etsin hamı,
Sində cismin mura, mara lazımdı.

Görmədim aləmdə köçənin şadın,
Alı sazda, sözdə tapdı imdadın.
Ucalsa obada şərəfli adın,
Nə dəfinə, nə də xara lazımdı.

## TAPAR[1]

Hərfi tənəlisə, kəlam nəqabil
Dərk edən qəlbinin yarasın tapar.
Qəlbi məlhəm eylər canda məzaca,
Lisanla zəxminin çarasın tapar.

Həm təlxi, həm şəkkər bil bu lisanı,
Təlx ərz edən dildən mahal usanı.
Fəzl əhli dindirə asi susanı,
Haqqınan nahaqqın arasın tapar.

Ərzin səminəsə, susmağın zərdi,
Naməhal sorğunun sonu kədərdi.
Şəninə sitayiş hədər-hədərdi,
Cəhd edən qəlbinin qarasın tapar.

Zəban oldu sərbəstələr açarı,
Hifz eylədi iqbalından naçarı.
Qəmdən xilas etdi dərdə düçarı,
Sərraf süxən arar, darasın tapar.

Arif bilər kəlamından rastanı,[2]
Ruh-nəvaz yarandı Alı dastanı.[3]
Ara "Gülüstan"ı, dərk et "Bustan"ı,
Cəhlikar ruzinin parasın tapar.

---

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən
[2] - arif doğrunu, düzü kəlamdan bilər
[3] - ruh oxşayan yarandı...

## DAYANMAZ

Sərih müqəvvasan nər meydanında,
Ustadın önündə naşı dayanmaz.
Atəşlərəm, yanar cismin aşikar,
Car olar eyninin yaşı, dayanmaz.

Vurma, sərin əsl qüdrət sənginə,
Sual-cavab bais olar dənginə.
Əsla, tab eyləməz aslan cənginə,
Rubahların pür savaşı, dayanmaz.

Aqil bilər nəqa nərsə, fil də var,
Qəza qədər hər həftədə, ildə var,
Fərsizlərin hünər-karı dildə var,
İmtahanda əqli çaşı, dayanmaz.

Nəfsi naqis qəm üstündən qəm bağlar,
Qovğakarlar həmdəmliyə çəm saxlar.
Qüdrətin qəhrinə tutar dəm dağlar,
Uçanda torpağı, daşı dayanmaz.

Keçər dövran, Aşıq Alı qocalar,
Güman etmə, rəqib ondan bac alar.
Bir bina ki, ibtidadan kəc olar,
Uçar bünövrədən, başı dayanmaz.

## DÜZƏLDƏR

Bədəməl sinniyə kəlam oxuma,
Peykəri[1] kəcləri məzar düzəldər.
Xənnasdan kənar ol, tənə toxuma,
Vərdişi biəncam azar düzəldər.

Qəzaya sövq edən nəhr lal axar,
Südlə gələn məzac sümüklə çıxar.
İblis əməllilər ayağa baxar,
Həmdəminə quyu qazar, düzəldər.

Alı, bədnamlıqdı gücsüzə zəfər,
Bədxahla bir yana eyləmə səfər.
Fitnələr əhlidi hünərdən bifər,
Qəbahətin dastan yazar, düzəldər.

[1] Əndam, bədən.

## OLAR

Mən bir dürrəm, bəhri-ümman içində,
Sən nəməksən, çəkmə yaşa, zay olar.
Beymürvət, xanəmə gəl atma daşı,
Büllurum toxunar daşa, zay olar.

Tərki-adət olmaz əqrəb saçmağa,[1]
Həmlə etsəm üz qoyarsan qaçmağa.
Mərd oğlu mərd gərək meydan açmağa,
Əfəl dözməz pür savaşa, zay olar.

Asikarsan, xaliq sənə yar olmaz,
Zatı pakdan halal Alı xar olmaz,
Üstdən su tökməklə çeşmə car olmaz,
Sürmə sürtsən siyah qaşa, zay olar.

[1] Sancmağa

## ARALANMASIN

Təmənnam dərsimə aşkar yazılsın,
Ellər bir-birindən aralanmasın.
Arif zəxmin alsın səlli şəmşirdən,
Tənə xədəngindən yaralanmasın.

İftira ərz edən sözündən olsun,
Dosta kəc baxanı gözündən olsun,
Elin fərmandarı özündən olsun,
Gəda gəlib eldə darğalanmasın.

Üryan köçdü haqqı-sayı dananlar,
Dərdə mübtəladı ilkin qananlar.
Alındı, düzəldi cümlə sınanlar,
Uymaz qəlb şüşəsi, paralanmasın.

Oba-oymaq nə talansın, çapılsın,
Diyarda nə qala, zindan yapılsın.
Ellərin çarası eldə tapılsın,
Çarasız zülümlə çaralanmasın.

Alı, sərhesab ol müdam hər işdə,
İnsanlar xar olur naqis vərdişdə.
Elə söylə, elə davran gərdişdə, -
Bir təmiz qəlb səndən qaralanmasın.

## MƏNƏM

Əhli-ürfan məclisində üzü ağ
Dolanan diyarlar həyalı mənəm.
Sahibi-hünərdən dərsim almışam,
Mötəbər kəslərin xəyalı mənəm.

Guşeyi-izlətdə xaba dalmadım,
Simu-zərə əsla nəzər salmadım.
Ərbabi süxənnən geri qalmadım,
Sənəti, söhbəti səyalı mənəm.

Sahibi-imanda zatı pakıma,
Paki-dil olmaqda adil hakima,
Sənətdə ustadım pür qəmnakıma,
Səxada Hatəmə tay Alı mənəm.

## DÜŞƏR

Ucalan iqbalın tərsinə dönsə,
Aləmin küdrəti peymana düşər.
Kusi-rihlət çağı məkan arama,[1]
Bir gecəlik xanə mehmana düşər.

Arzular, əməllər qala fənada,
İmdadda naçardı İbni Sina da;
Vəsiyyətin sadiq qalmaz cana da,
Məzarın rəqiblə yan-yana düşər.

Bixəbərsən, xəbərdar ol halıdan,
Nə bəhrə beş günlük qiylü-qalıdan.
Həvayidən soraq tutma Alıdan,
Məkanı cənnəti-rizvana düşər.

[1] Ölüm ayağında yer gəzmə

## BİLMƏZSƏN

Naşı səyyad, səndən kamil atan var,
Bərəni bilməsən, ata bilməzsən.
Hikmət bazarıdı, gövhər satan var,
Vecsiz mətahını sata bilməzsən.

Ol səri-kuyində mənim diyarım,
Qaf oğluyam, əyilməzdi vüqarım;
Arif məclisində var xiridarım,
Bu məqama əsla çata bilməzsən.

Aşina deyilsən əsil dərdi nə,[1]
Nadan bu məqamdan söylə, dərdi nə?[2]
Alı salar səni İqbal dərdinə,
Nalən ərşə çatar, yata bilməzsən.

[1] Onun dərdinin mahiyyətini, həqiqətini bilmirsən.
[2] Nadan belə məqamdan nə götürdü, nə dərdi?

## EYLƏ

Satma, mətahını nadana, aşıq,
Arif məclisində xiridar eylə.
Barxanan vecsizsə[1], çəkmə araya,
Nə utan, nə çəkin, nə də ar eylə.

Haqq məhşərin bir anıdı bu meydan,
Fəzl əhlini[2], bil, tanıdı bu meydan,
Ölüm-dirim meydanıdı bu meydan,
Ya şikar ol mənə, ya şikar eylə.

Elmi Şıx Alıya pak nəzir oldu,
Kamaldan kasadlar dəsti-zir[3] oldu,
Alim, üləmalar müntəzir oldu,
Sına qüdrətini, aşikar eylə.

---

[1] Yükün dəyərsizsə.
[2] Burada: ləyaqət əhli.
[3] Əlaltı.

## ASAN

Nida çəkib çağırıram imdada,
“Rey”ləri, “dal”ları “hey”lərəm asan[1].
Hikmət bazarının sərrafı mənəm,
Sözümlə bəd qəlbi teylərəm asan.

Beş surə Zəburdan, üçü Tövratdan,
Yeddi surə haxdı İncil xurfatdan,
Altı min altı yüz əsil nicatdan,
Ayəni Qurandan söylərəm asan.

Alı ərzi haqla keçər isbata,
Üçü üçlə açdı əsil bixəta.
Qoymaram qisasın mən qiyamata,
Bir qana yüz qanı eylərəm asan.

---

[1] Heydər (Həzrət Əliyə işarə).

## BİLİNMƏZ

Ay ağalar, gəlin sizə söyləyim,
Nanəcibin düz ilqarı bilinməz.
Xəsis gec-tez öz varını itirər,
Onun namus, qeyrət, arı bilinməz.

Dostumun dostuna sail olmuşam,
Təmiz gözəllərə mayil olmuşam,
Çəkdiyim zillətə qail olmuşam,
Beyvəfa gözəlin yarı bilinməz.

Mən istərəm gözəlləri şad olsun,
Dodaq nazik, incə belli, dad olsun,
Xoş xasiyyət, gülərüzlü, ad olsun,
Əl uzatsan onun narı bilinməz.

Aşıq Alı, hər cəfaya dözübsən,
Həm ucanı, həm alçağı gəzibsən.
Bu fani dünyadan əlin üzübsən,
Fələk bivəfadı, barı bilinməz.

## VERMƏ

Sərrafam, bazarım xiridar istər,
Bihudə sursatın bazara vermə.
Bir dərdə salaram əlacın olmaz,
Cismini çarasız azara vermə.

Aləm bilir: köşək çəkməz nərinən,
Xəcil olar sənətində ərinən;
Meydan açma sən ər oğlu ərinən,
Hələ dərs al dinlə, yaz, ara vermə.

Qabağa sıçrama dala düşərsən,
Düşməmisən, qeylü-qala düşərsən.
Lal eylərəm müşkül hala düşərsən,
Bivədə cismini məzara vermə.

Həqiqət elmində keçək isbata,
Məna verək ərzə, həm kainata.
Bir dastan bağlayaq hər hürufata,
Tərdəst ol, məzarın qaz, ara vermə.

Çərxin elmin tökən olsa araya,
Aramağa sərin gəlməz haraya.
Qaraya ağ, ağ deyərsən qaraya,
Ağlını iblisə, nə zara vermə.

Şıx Alıyla cəng eyləyən xar oldu,
Verdi sazın, el içində ar oldu.
Nadanın əlindən o bezar oldu,
Qaç, fürsət canından bezara vermə.

# QOŞMALAR

## GƏRƏK[1]

Aşığam deyibən girən meydana,
Aşıq deyənlərdə xoş göftar gərək.
Aşıq gərək sözün vəsfə yetirə,
Bəyənə ariflər birbəbir gərək.

İgid lazım bu meydanda durmağa,
Müjgan oxun şirin cana vurmağa,
Bir Əbu-Əntərə[2] qılınc vurmağa,
Ağam Əli əldə zülfüqar gərək.

Sən məni eylədin yollarında ləng,
Çaylarda balığam, dəryada nəhəng,
Mahalım Göyçədi, kəndim Qızılvəng,
Aşıq Alı mahallarda bir gərək.

---

[1] Aşığın bu rədif və məzmunda iki qoşmasını da kitabda verdik
[2] Qorxulu adam, ərəb pəhləvanı, Həzrət Əli ona qalib olmuşdur.

## OLDU

*Ustadı Ağ Aşığa*

Köçübdü sultanım, sərdarım, xanım,
Qəlbim qəm evində pərişan oldu.
Aparıb özüylə din-imanımı,
Sədrim qəm oxuna bir nişan oldu.

Mədinə dərs verdi, Kərbəla şöhrət,
Dərsi dərs içində sanılı ibrət.
Təbibi-kar oldu, sağaldı min dərd,
Yurd saldı, sənəti bir gülşən oldu.

Yerdən, göydən, Nuh Nəbidən xəbərdar,
İzah eylər, cümlə neçə elm var.
Baş vurar dəryaya, gövhəri arar,
Neçə-neçə dildə danışan oldu.

Zəburdan, Tövratdan, Qurandan dərsi,
Eşq əhlini heyran qoydu həvəsi.
Əlindəydi fəzlin bəndi-bərəsi,
Alimlə, xotkarla yarışan oldu.

İtirdim ümmanı, yoxdu damlası,
Tükənməz, ölüncə tutaram yası.
Sazımda qəmləndi hicran havası,
Tale təqdirində pərişan oldu.

Köç etdi sərində külli xəzinə,
Ünvansızdı, necə düşüm izinə?!
Qiymət versə üləmalar sözünə,
Nəğmələr içində zərnişan oldu.

Qərib kimsənəydi, vətəni Sulduz,
Zülmət dünyasında şöləli ulduz.
Namərd qurğusuyla yaşadı yalqız,
Cismimə od saldı, alışan oldu.

Sanaram zülmətdə bir dağ aşığı,
Verdi kəlamıma yar-yaraşığı.
Alı, giryan yad et, sən Ağ Aşığı,
Kədərin hicranla barışan oldu.

## QALDI

Canım cüda düşdü, gedir vətəndən,
Məkanım, məskənim virana qaldı.
Sanki ayrılıbdı güldən, çəməndən,
Bülbülün əlacı fəğana qaldı.

Yeni gül əkmişdim, mən baxtı qara,
Bulunmaz dərdimə kim eylər çara?!
Xoryad əli dəydi heyvaya, nara,
Sinəmdə dağlarım nişana qaldı.

Alı aşıq olmuş bir əhli-dilə,
Təbibim Mövladı, dərdimi bilə.
Bir tərəhhüm eylə, sən də aqilə,
Çünki, səndən getdi, divana qaldı.

## ÇATARMI?

Xanlar bəyə şikayətə gedirəm,
Sənin ona zor-qüvvətin çatarmı?!
Çəksə qılıncını, girsə meydana,
Vuruşmağa cəsarətin çatarmı?!

Xanlar bəy əyləşib Ağrı dağında,
Neçə pəhləvanlar solu-sağında.
Bu coşqun sinəmin odlu çağında,
Allam canın, heç fürsətin çatarmı?!

Alı deyər, eşq ucundan xəstəyəm,
Dava meydanında kəmərbəstəyəm.
Özüm nişanlıyam, murad üstəyəm,
Cavanlığa sədaqətin çatarmı?!

## DÜŞƏR

Məzrənin yaylağı, gözəl oylağı,
Bir zaman yadıma Başdıbel düşər.
Ovqanın yaylağı, Şahmar bulağı,
Ağmanqal, Mıxtökən, Alagöl düşər.

Yaxşı olar bu dağların havası,
Yaylamağa gəlir gözəllər xası.
Zərzibil, Daşkörpü, Gəlin qayası,
İstisudan bəri bizim el düşər.

Ləli-gövhər bu dağların tayıdı,
Xublar gəlib orda yaylar, qayıdı.
Bərkimin, Ağrının, Arpa çayıdı,
Bir zaman ellərə gəlhagəl düşər.

Zülm əliynən köçürdülər bineyi.
Dikpilləkəndədir köçün ileyi.
Qaraxal, Ağmanqal, Dəngiz güneyi
Qalxıb qonar ellər, Cada yol düşər.

Alı söylər, yarın qaşı gözündən,
Dindirəndə dürr tökülər sözündən,
Uçdu könlüm quşu dağlar gəzindən,
Ay qabaq üstündən siyah tel düşər.

## DÜZƏLƏ BİLMƏZ

Dərmansızdı bəd övladdan gələn dərd,
Bu dərd əyən ata düzələ bilməz.
Dilin yarasından kəc olan könül,
Gedər qiyamata, düzələ bilməz.

Bu dünyada arsız gəzməyə nə var,
Tufansız ümmanda üzməyə nə var,
Mərdin cəfasına dözməyə nə var,
Namərd vuran xata düzələ bilməz.

İnsafdımı, Aşıq Alı qocala,
Müddəilər gələ, ondan bac ala?!
Bir kimsə ki, gədəlikdən ucala,
Başı ərşə çata, düzələ bilməz.

## YOLUNA

Asta-asta gərdən çəkib gedən yar,
Pəyandaz eylərəm üzüm yoluna.
Gedişin naləmdi, gəlişin aləm,
Haçandan dikilib gözüm yoluna.

Görüb gül üzünü olmuşam səfil,
Çəkəmməz dərdimi heç nə onu bil.
Almırsan əlimdən qönçə, qərənfil,
Dərdim tər bənövşə – düzüm yoluna.

Sən Alıya Məcnun adı qoyma gəl,
Sinəm üstə qəmli odu qoyma gəl,
Sər-hesab olmağa yadı qoyma gəl,
Qəmli pasibanam özüm yoluna.

## DÜNYA

Ərbabı, sultanı dolandırırsan,
Dolandır karı da, koru da, dünya.
Bir sirli qüdrətsən qoynunda sənin
Gördük zəhməti də, zoru da, dünya.

İşindən halıyam, deyiləm naşı,
Əskilmir üzümnən gözümün yaşı.
Qorxudur cismimi məhşər ataşı,
Bizə çox görürsən goru da, dünya.

Bir gün yaranmışlar köçəcək bir gün,
Can torpaq altına olacaq sürgün.
Tapdaqdan, dannaqdan qalan ömür, gün,
Çətin ki, Alını yarıda, dünya.

## ÇAY OLDU GETDİ

Ay həzarat, gəlin sizə söyləyim,
Axdı eynim yaşı çay oldu getdi.
Nə ağa, nə nökər, nə bəy, nə paşa,
Hamı bir-birinə tay oldu getdi.

Kimi ay qabağa cığa tel düzər,
Kimi qaş altından gözlərin süzər.
Kimi yeyib, içib, sallanıb gəzər,
Kiminin axırı vay oldu getdi.

Atlas libasımdan bez düzəltdilər,
Sinəmin altında köz düzəltdilər,
Sözümdən söz söküb söz düzəltdilər,
Sözüm ağızlarda pay oldu getdi.

Kiminin ruzgarı qar, qış eylədi,
Kimi öz bəxtinə qarğış eylədi,
Kimi qismətinə alqış eylədi,
Kimi taleyindən bay oldu getdi.

Aşıq Alı, dərdi canda saxlaram,
Bağrım başın çalın-çarpaz dağlaram,
Gecə-gündüz nalə çəkib ağlaram,
Hayıf gözlərimə, zay oldu getdi.

## OLMADI

Nə həkim, nə loğman, nə cərrah qaldı,
Mənim bu dərdimi bilən olmadı.
Qohumdan, qardaşdan, dost-müsahibdən,
Bağlandı yolları, gələn olmadı.

Alçaqlı-ucalı dağlar görmüşəm,
Süsənli, sünbüllü bağlar görmüşəm,
Dünyaya gələni ağlar görmüşəm,
Dili deyib, üzü gülən olmadı.

Görüm xarab olsun belə zamana,
Dərdü-möhnət məni gətdi amana,
Axdı eynim yaşı döndü ümmana,
Ağlar Aşıq Alı, silən olmadı.

## BƏNZƏRSƏN

Süsənli, sünbüllü, tər bənövşəli,
Yaylaq, bizim yaylaqlara bənzərsən.
İçən ölməz abi-kövsər suyundan,
Bulaq, bizim bulaqlara bənzərsən.

Cənnət olur bizim yerin bu çağı,
Ağ lavaşı, kərə yağı, qaymağı,
Qızlar dəstələnib gəzər oylağı,
Oylaq, bizim oylaqlara bənzərsən.

Ket dağı[1], Əyricə, Daşkənd baxarı,
Ağ sürülər Sarıyaldan yuxarı.
Var bizim suların əcəb axarı
Çaylaq, bizim çaylaqlara bənzərsən.

Aşıq Alı deyər, üç gözəl dərə:
Çiçəkli, Şaqayıl, xoş gözəl dərə,
Əyricə, Verst dağı, Başgözəldərə,
Üçdağ, bizim üç dağlara bənzərsən.

[1] Keyti dağı.

## İSTƏR KÖNÜL

Bahar fəsli, yaz ayları gələndə,
Uca sərt dağlardan qar istər könül.
Gözəllər sallanıb sıra vuranda
Xəstəyəm, onlardan nar istər könül.

Bu dünyada mərdimazar çox olub,
Mərd igidin gözü, könlü tox olub,
Qonşu yox istəyən özü yox olub,
Onunçün elləri var istər könül.

Mən gələli xeyli qəddin ucalıb,
Sənin dərdin məni çöllərə salıb,
Fikr etmə ki, Aşıq Alı qocalıb –
Gen tuman, çəpgəni dar istər könül.

## KÖNÜL

Bəd gəldi ruzigar, döndü zamana,
Baxmaynan yaxşıya, yamana, könül.
O vaxt bənna idin bürc hasarında,
İndi də yapıbsan nə xanə, könül?!

Kəsildi məhəbbət, hörmət azaldı,
Uşaq da, böyük də üzbəüz oldu.
Tərk oldu mərd igid, qurğu pozuldu,
Zaya getdi ilqar, imanə, könül.

Hanı mən gördüyüm qurğu-nizamı?!
Pozuldu halaylar, qopdu tufanı.
Qızıl taxt üstündə gəzən sultanı,
Zülümnən çəkdilər kəmanə, könül.

Hanı ağ sürülər, daşqınlı sellər,
Əcəb tamaşalı sonalı göllər?!
Səddi qəhrəmana bənzəyən ellər,
Qərq oldu dəryaya, ümmana, könül.

Alı deyər, nə pürkamal, nə lalam,
Nə yetmişəm, nə ötgünəm, nə kalam,
Nə kağız var, nə davat var, nə qələm,
Eyləyəm dərdimi bəyanə, könül.

## SƏNİN

Bahar-yazda qızılgüllər açılır,
Behiştə bənzəyir bu bağın sənin.
Uzaqdan eşidib səsin anladım,
Yayılıb hər yana sorağın sənin.

Oğrun-oğrun daldalardan baxarsan,
Gərdəninə həmayıllar taxarsan,
Durna kimi seyrangaha çıxarsan,
Hərdən ətir verir buxağın sənin.

İnnabı ləblərin şərbəti-loğman,
Gəzdir, dərdlilərə sən eylə dərman.
Bir zaman gəlmişdim mən sizə mehman,
Bəzənmiş al-yaşıl otağın sənin.

Siyah zülfün dal gərdənə dolaşır,
Xırda qızlar sağ-solunda boylaşır.
Gülgəz bədən ağ libasa yaraşır,
Aləmi yandırır fərağın sənin.

Alı deyər, gördüm dünya ləzzətin,
Bu sazın, söhbətin, xoş hekayətin,
İzzətin, şövkətin, bu mərifətin
Hər yerdə söyləyər qonağın sənin.

## AĞRI DAĞI

Havalanıb ərş üzünə qalxmısan,
Dağların sultanı nər Ağrı dağı.
Bahar əyyamıdı, zimistan keçib,
Əskilməz sərindən qar, Ağrı dağı.

Ətəyində xan atlanar, xan düşər,
Ləşkər gələr mahallara qan düşər,
Hər dağdan irəli sənə dan düşər,
Eylərəm şöhrətin car, Ağrı dağı.

Səkkizi rizvandı cənnətin bağı,[1]
Neçə qapısı var, neçə otağı.
Nuh gəmisi, Peyğəmbərin bulağı,
Səndə hər nişanə var, Ağrı dağı.

Ərimәz buz dağın il üstən keçər,
Elə ormanın var gülüstan keçər,
Sərindən açılmaz zimistan keçər,
Ətəyində bağça-bar Ağrı dağı.

Göstərdin cahanı necə sirr idi,
Tozun qalxıb İrəvanı bürüdü.
Axşamüstü hər tərəfdən yeridi,
Etdi Axuranı xar Ağrı dağı.

Əvvəl səndə olub Rüstəm pəhləvan,
Gəzib şahi-mərdan nişanbanişan,
Aşıq Alı təəccübdü hər zaman,
Yarın qardı, yarın nar, Ağrı dağı.

[1] İslamda möminlərə cənnətdə vəd edilən bağlar.

## İNCİMƏSİN

Dedim, könül, nə düşübsən həvəsdən,
Şamama dərərəm, tağ inciməsin.
Bu fani dünyadan bir köç eylərəm,
Aran qəmgin olub, dağ inciməsin.

Bağban oldum yar könlünün bağına,
Dərmanın bulmadım sinəm dağına,
Uçurdum bülbülü dostun bağına,
Oxusun bülbüllər, bağ inciməsin.

Alıyam, gileyim nadan əlindən,
Pəl vurub, aranı qatan əlindən,
Yar üçün gül dərib tutan əlindən,
Yarpaq titrəməsin, şax inciməsin.

## GEDƏK

Qohum-qardaş yenə düşdü yadıma,
Dedim, könül, bir səfərim var, gedək.
Heç görmədim əhdə peyman olanı,
Nadan qurdu tərlan üçün tor, gedək.

Onu gördüm atdım dərdi, vərəmi,
Mübarək dəstindən aldım salamı.
Götürdüm əlimə dəftər-qələmi,
Könlüm istər o dağlardan qar, gedək.

Alı təkdi, qürbət eldə dolanır,
Oğrun-oğrun yar oduna qalanır,
Ağ əllərə toy xınası bulanır,
Xoryad üzdü güllü bağdan nar, gedək.

## OLMADI

Bayram oldu, küllü aləm bəzəndi,
Heç mənim halımı bilən olmadı.
Dost dostu çağırdı, qohum qohumu,
Mən qəribi yada salan olmadı.

Al geydi, sallandı xublar dəstəsi,
Kəkliktək dağlara düşübdü səsi.
Hicran xəstəsiyəm, qəm şikəstəsi,
Heç yanıma gedib-gələn olmadı.

Kimi dostnan gəzdi, kimi yoldaşnan,
Aşıq Alı qaldı gözü qan-yaşnan.
Analar oğulnan, bacı qardaşnan...
Heç mənim halıma qalan olmadı.

## DEYİNƏN

Qasid, gedər olsan bizim ellərə,
Mənim ərzim o canana deyinən.[1]
Qohum-qardaş, dost-müsahib olanlar,
Göz dikməsin qeyri yana deyinən.

Durub o yollara varandan sonra,
Sən bizim elləri görəndən sonra,
Bu dilsiz naməni verəndən sonra,
Dilcavabı yana-yana deyinən:

Bülbüləm, qonmaram qeyri güllərə,
Yarım əl verməsin özgə əllərə,
Aşıq Alı düşdü tozlu yollara,
Yolu düşdü Alosmana deyinən.

[1] Beyt Qurbaninin "Deyərsən" şeirində belədi:
Qasid, gedər olsan yarın yanına,
Mənim ərzi-halım yara deyərsən.

## YADIMA DÜŞDÜ

Nə qədər dolandım Turan elini
Yenə öz torpağım yadıma düşdü.
Sarınər yaylağı, Göyçə mahalı,
Öz gözəl oylağım yadıma düşdü.

Gəlib xəyalımdan keçdi o çağlar,
Yay fəsli atlanıb gələn qonaqlar.
O güllü, çiçəkli alışan dağlar,
O Qiblə bulağım yadıma düşdü.

Qızıl dağı, Məciddinin oylağı,
Doğma yurdun doğma odu, ocağı.
Alının köksündə hicranın dağı,
O qaymaqdodağım yadıma düşdü.[1]

[1] Söhbət sevgilidən gedir (yada sal: qaymaq dodaqlım, ala gözlüm).

## AŞIQ ALI[1]

Çəkmə xəcaləti, unutma arı,
Saxla bu sinədə ar, Aşıq Alı.
Bir zaman aqildin başda əyləşən,
İndi də ayaqda kor Aşıq Alı.

Bədəsil şəyirdlər çəkibdir dağı,
Yetirdin peyvəsti, bəslədin bağı.
Ömrünün, gününün soldu növrağı,
Nə saz oldu, nə də tar, Aşıq Alı.

Bəlkə də beləymiş yazın əzəldən,
Qəm yedin aşnadan, yardan, gözəldən.
Tülək tərlan kimi uçmusan əldən,
Qismətin ah-aman, zar, Aşıq Alı.

[1] Şeir birinci şəxsin adından deyilən şəklə salındı.

## YAVAŞ-YAVAŞ

Möhnəti-zəmanə, fani dünyada,
Yol alır gözümdən sel yavaş-yavaş.
Uçur can evimin dəri, divarı,
Əyilir, bükülür bel yavaş-yavaş.

Bəsditək dünyadan bir yarım gedib,
Sınıb balü-pərim, şahpərim gedib,
Tükənib taqətim, təpərim gedib
Ağla yavaş-yavaş, gül yavaş-yavaş.

Bəzirganam, matahım var, alan yox,
Qövlü-sözüm həqiqətdi, yalan yox.
Dərd əhliyəm, əhli-dildən qalan yox,
Ürək coşar, deyər dil yavaş-yavaş.

Piri-ustadımdan dərsimi aldım,
Hikmət məqamına qalxıb ucaldım,
Sazımda ellərin dərdini çaldım,
Anlasın sözümü el yavaş-yavaş.

Rüstəm Zalı – qəhrəmanı deyirəm,
Səxavətdə Hatəm hanı, deyirəm?!
Alıyam koxanı, xanı deyirəm,
Düşəcək qovğaya bil, yavaş-yavaş.

## TƏK-TƏK

Bir şəyird ki, ustadına kəm baxar,
Mövlam etsin ona nasağı tək-tək.
Qohumdan xəcalət, eldən şərməndə,
Dili cüda etsin uzağı tək-tək.

Qətfəsi xəyyatı, bədəni dürdən,
Xudam xəlq eyləyib bir qətrə nurdan.
Fincanlar bəzənib ləli-gövhərdən
Qaynayır zülaldan bulağı tək-tək.

Aşıq Alı eylər sözün sadağa,
Neçə min məleykə dönmədi bağa.
Behiştin meyvəsi başdan-ayağa
Yetişdi şəcərin budağı tək-tək.

## İSTƏRƏM

Elçi düşən, xətrin məndən qalmasın,
Bu adətlə elin işin istərəm.
Əbrudan, atlasdan, ipəkdən, şaldan,
Xara parçalardan başın istərəm.

Gətir başlığına üççə min manat,
Üç qızıl bilərzik, bir qızıl saat.
Bircə “hə!” sözünə iki köhlən at,
İpək heybə, yəhər qaşın istərəm.

İki dəvə gətir yanında köşək,
Gələn töhfələr də olduqca qəşəng.
Ətliyinə gətir iyirmi şişək,
Kabab çəkmək üçün şişin istərəm.

Pud yarım çay gətir, iki pud şəkər,
Samavar qaynasın hər axşam, səhər.
On beş gün kef çəkək burda sərasər,
Qısır inək səndən beşin istərəm.

Şıx Alıyam, budur sözümün yeyi,
Çağırram toyuma rəyyəti, bəyi.
On beş pud yağ gətir, qırx beş pud düyü,
El yeməyə əppək, aşın istərəm.

## OLA BİLMƏZ

Gözəllər şahıdı nazlı nigarım,
Kimsənə Bəsdiyə tay ola bilməz.
Xilqətinə xudasından verilən,
Bundan qeyrə cəlil pay ola bilməz.

Buğdayıya "qara" dedin, a zalım,
Bir an görməyəndə pozulur halım.
Odu pəri nisbət şəmsi-camalım,
Şəbahəti ulduz, ay ola bilməz.

Şəms oldum aləmə aqil sözümlə,
Ucalmışam, cəfalara dözümlə.
Nainsaf, seyr eylə yarı gözümlə,
Hilal qaşı kimi yay ola bilməz.

Kanaram qüssədən başdan-binadan,
Cəlil xilqət törər, cəmil anadan.
Alı gövhər sərrafıdı, a nadan,
İnşallah cəfası zay ola bilməz.

## OLA BİLMƏZ

Çoxu aşıqlığa iqdam eylədi,
Əlində çaldığı saz ola bilməz.
İstəyir ki, matahını xırd edə,
Hərifi dəhanda düz ola bilməz.

Qulluq eyləməyən ustad pirinə
Nədən bilməm özün salar dərinə?!
Ala qarğa düşsə su kəmərinə,
Silkinər, çalxanar, qaz ola bilməz.

Göyçə mahalımdı, Alıdır adım;
Umudum, pənahım, mənim imdadım.
Atəş səpsəm, səni yandırar odum,
Eşq əhlində atəş az ola bilməz.

## YETİŞDİM

Min cövrü-cəfayla yarıma çatdım,
Ömrümə nəqş olan sana yetişdim.
İqbalımı xab evindən oyatdım,
Vəsli-yarla bir zamana yetişdim.

İlqarına sadiq yarıma əhsən,
Yaraşır şəninə yüz dastan desən.
Hicran anlarıydı ömürdən kəsən,
Vəsli-yarla mən amana yetişdim.

Sərvi qəddi, gül camalı tamaşa,
Şəhla göz yaraşır hilali qaşa.
Təkrarsız xəlq olub ayaqdan başa,
Kamallı, kamilə cana yetişdim.

Bəsdidi Alının həyat növrağı,
Bəyaz sinəsidi cənnətin bağı.
Açıldı üzümə vüsal otağı,
Sanki təxti Süleymana yetişdim.

## GƏTİRMƏ

Məcnunun məskəni səri-kuy olar,[1]
Səcdəgaha sən divana gətirmə.
Əhdə vəfalıyam, peymana mərdəm,
Min bəhanə qaibana gətirmə.

Əl götürməz gözüm gözlə savaşdan,
Geyin əndamına aldan, qumaşdan.
Bir seyrə çıx laləzarı o başdan,
Pünhan gəzib, məni cana gətirmə.

Tənə gəlməz pərvanəyə yanmaqdan,
Al canımı, qurtar məni dannaqdan.
Sədaqətdə Alı çıxıb sınaqdan,
Əbəs yerə imtahana gətirmə.

---

[1] Məcnunun məskəni sevgilisinin gəzdiyi, keçdiyi yerlərdi.

## GEDİRƏM

Çox-çox salam-dua qohum-qardaşa,
Biləsiniz Alosmana gedirəm.
Bir mətləb istədim şahlar şahınnan,
Sığınmışam o sübhana, gedirəm.

Sinəmdə alışır qəmim, ataşım.
Düşəndə yadıma dostum, sirdaşım.
Yolumu gözləsin yarım, yoldaşım,
Sizə verib bir nişana, gedirəm.

Aşıq Alı gəzir İrannan Turan,
Mənim uğuruma açıqdı hər yan.
Mənə sirdaş olub Aşıq Duraxan,
Yoldaş olub gövhər-kana gedirəm.

## DÜŞƏRSƏN

Kəndin laf eyliyib aşığam demə,
Sən də olar bir gün dara düşərsən,
Nə gəzirsən çöl-biyaban, səhrada
Dağlarda borana, qara düşərsən.

Gəl özün-özünə verməginən boy,
Özcə qabınnan ye, öz qabınnan doy.
Qırxıb yal-quyruğun eylərəm bir day,
Yal-quyruğu qırxıq hara düşərsən?!

Ustadam, Alıyam, tanısan məni,
Dürrün mədəniyəm, gövhərin kanı.
Götürüb buradan ataram səni,
Gedib cəhənnəmdə nara düşərsən.

## GÖZƏLDİ

Gözəllər səfinə səcdə eylərəm,
Cümlədən birisi necə gözəldi.
İltimas eylərəm rübəndin ata,
Mahi-münəvvərsə, gecə gözəldi.

Boyu sürahidi, özü baxtavar,
Tapmazsan tayını aləmi axtar.
Peymanda yarandı faili-muxtar,
Yaxşını yamandan seçə, gözəldi.

Viran etmə könlü, savabdı hörsən,
Yarını Alının gözüylə görsən.
And-aman içənə özün deyərsən,
Yanında Züleyxa, bica gözəldi.

## KEÇİBDİ

Dağlar sinəsindən, yaylaq yolundan,
Neçə-neçə pasibanlar keçibdi.
Arxasında ləşkər, başında əyan,
Neçə xaqan, neçə xanlar keçibdi.

Çox fatehlər burdan salıb izini,
İsgəndərdən bəri sayım yüzünü.
Neçə aqil burda yazdı sözünü,
Sahib-calal, nə insanlar keçibdi.

Məkan, məskan gördüm dağların başın,
Kimsə aparmadı səlin, daş-qaşın.
Keçənin, keçmişin kim bilər yaşın,
Nə qərinə, nə zamanlar keçibdi?!

Məğribdən Məşriqə hökm verənlər,
Gəldi-getdi Merac evin görənlər.
Neçə həbibullah, neçə ərənlər,
Gəlib neçə Süleymanlar keçibdi.

Loğman köçdü, ehtiyacı dərmanda,
Neçə ər oğlu ər, başı fərmanda.
Cəng eylədi, səri qaldı ormanda,
Nalə, fəryad, ah-amanlar keçibdi.

Boşaldı neçəsi, doldu neçəsi,
Açıldı neçəsi, soldu neçəsi,
Qan eylədi, qanlı oldu neçəsi,
Alınmayan neçə qanlar keçibdi.

Sabahın sübhündə, səba yelində,
Niqabı üzündə, yaqut telində.
Köhlən at döşündə, nəqa[1] belində,
Bəyaz sinə neçə canlar keçibdi.

Şamikən köçəni səhər görmüşəm,
Neçə zülüm, neçə qəhər görmüşəm,
Neçə diyar, neçə şəhər görmüşəm,
Abdal Alı biyabanlar keçibdi.

---

[1] Naqan (tapança)

## EYLƏMƏ
*(Qoşayarpaq qoşma)*

Vüsalını hər il yubatdın, ey dil,
Zülmü yara, çeşmi-çıraq eyləmə.
İlqarımda xəlil, kəlamım dəlil,
Arama pəjmürdə varaq eyləmə.

Əhvalındı dəmli, dolan həmdəmli,
Ləbindi məlhəmli, əqlin ələmli,
Gözlərim də nəmli, ruzgarım qəmli,
Mah camalın məndən iraq eyləmə.

Gözəllərin xanı, dövran sultanı,
Kəramətin kanı, etmə üsyanı,
Tərk edib məkanı, tutaram kanı,
Bihudə arama, soraq eyləmə.

Diyarım xanımı, alma canımı,
Sevənin zalımı, gör imanımı,
Alıb kamanımı, axıt qanımı,
Mərhəmətin məndən uzaq eyləmə.

Sən, ey hilal qaşdı, Alı sirdaşdı,
Qəm həddini aşdı, huşum dolaşdı.
Məramın araşdı, bu nə təlaşdı,
Ömrümü qəm-qüssə, fəraq eyləmə.

## BƏSDİ

Sən şəmsi, mən kənarında sitarə,
Rüsxət ver sərinə dolanım, Bəsdi.
Can fəda eylərəm, ey mahiparə,
Budur sərmayədən olanım, Bəsdi.

Kərəməm, Əslisiz giryan neylərəm?!
Məcnunam, dəştidə üryan neylərəm?!
Nainsaf, halıma bir yan, neylərəm?!
Sənsən canı verib, alanım, Bəsdi.

İqbalım dadıma yetmədi bir an,
Sitəmindən oldu can evi viran,
İstərsən gəzərəm İranı, Turan
Qürbət diyarlara yollanım, Bəsdi.

Umma mərhəməti qəni daradan,
Əgər sevirsənsə, çıxaq aradan.
Kərəm hasil olar nadir çaradan,
Tər sinə odlara qalanım, Bəsdi.

Dəhri-cifə çoxlarını tovladı,
Uydu baban rəsulları qovladı.
Alı sənlə bir diyarın övladı,
Qoyma yad ellərə calanım, Bəsdi.

## BƏSDİ

Cana gəldim bu hicrandan, hicrətdən,
Nəhayət, son həddə çatmışam, Bəsdi.
Əl-aman eylərəm səfil dövrandan,
O qürbət güzarı atmışam, Bəsdi.

Bəşər deyil, məlakəsən surətdən,
Nə incidin, nə usandın firqətdən,
Xəyalda görürdüm səni qürbətdən,
Gecəni gündüzə qatmışam, Bəsdi.

Əməlimdə var peymana dəlalət,
Sən məndən sadiqsən, ey mahi tələt.
Yubandım, yanında qaldım xəcalət,
Nə dincəlib, nə də yatmışam, Bəsdi.

Ara qəlb evini, aşikar baxın,
Sədaqət ləşkəri eylədi axın.
Ara uzaq oldu, könülsə yaxın,
Sanki günahlara batmışam, Bəsdi.

Alının iqbalı yeyindi, yeyin,
Yoxdur qəm-qüssəsi, aləmə deyin.
Eşitməyim nazlı yarın gileyin,
Dəm alıb qəmləri satmışam, Bəsdi.

## BƏSDİ YAR

Peymana mərd oldum, dəşti kərd oldum,
Gör əhvalım, bir sor halım, Bəsdi yar.
Rüxsarən zərd oldum, əhli dərd oldum,
Zaydı halım, həm xəyalım, Bəsdi yar.

Cismidə canımsan, ilqarda dursan,
Sən can alanımsan, verrəm buyursan.
Təlxi-lisanımsan,[1] eyham vuransan,
Bilsin cümlə qoy mahalım, Bəsdi yar.

Olmasan bivəfa, sürərsən səfa,
Gələsən insafa, çəkməyəm cəfa,
Sevən düşməz xofa, çəkilər qafa,
Etmə müşgül ilk vüsalım, Bəsdi yar.

Artırdın məlalım, həm qeylü-qalım,
Tərk edim mahalım, sərf edim malım.
Ya ölüm, ya alım, "yox" desən, zalım,
Aşkar oldu son sualım, Bəsdi yar.

Çeşmimin ziyası, Alıdı ası,
Geydi qəm libası, ahdı nəvası.
Qurdu firqət yası, agah mənası,
İnanma kı burda qalım, Bəsdi yar.

---
[1] Acı dillisən.

## BƏSDİ

Nabina eynimə nəzər eyləyib,[1]
Duyuram, ahəstə ağlama, Bəsdi.
Çarəsiz dərdimə çarə olmadı,
Yas tutub qaralar bağlama, Bəsdi.

Nadan olub, fərəh umma fələkdən,
Al əhlidi, əl götürməz kələkdən,
Kənar etdi məni arzu-diləkdən,
Dağ üstən sinəmi dağlama, Bəsdi.

Alı bülbül oldu, dünya qəfəsi,
Çərxi-cəfadardan kəsilər səsi,
Zənguldə yerin verməz özgəsi,
Daşqın çaylar kimi çağlama, Bəsdi.

[1] Kor gözlərimə baxıb.

## GÖRMÜŞƏM

Qəriblikdə gəzdim diyarbədiyar,
Əzəl-əvvəl İrəvanı görmüşəm.
Ürəyimdə dürlü-dürlü dərdim var,
Araz kimi nur ümmanı görmüşəm.

Arazdan adlayıb çöllərə düşdüm,
Gəzdim mahal-mahal ellərə düşdüm,
Ağızdan-ağıza, dillərə düşdüm,
Başdan-başa Alosmanı görmüşəm.

Gümrüdən üz tutdum Sarıqamışa,
Ərzurumdan keçdim o şəhri-Muşa.
Türkiyəni gəzdim mən başdan-başa,
Həm yaxşını, həm yamanı görmüşəm.

Yaxşılıq edənə eylik deyillər,
Yamanlıq edənə göylük deyillər.
Orda bir şəhər var Bəylik deyillər,
Qarsı gəzib, Qağızmanı görmüşəm.

Yolum düşdü, getdim Qullar Baydara,
Gəldi Aşıq Əsmər əlimdən zara,
İsdəyirdi məni çəkdirə dara,
Tuti dilli, xoşzəbanı görmüşəm.

Aşıq İqbal ilə çox cəng eylədik,
Aşıq meydanını dil-təng eylədik,
Həqiqətdən, mərifətdən söylədik,
Həm paşanı, həm soltanı görmüşəm.

Desin sözlərini qoy Aşıq Alı:
Mən fağır, olmuşam başı bəlalı,
Hər yerdə çəkmişəm çox qeylü-qalı,
İndi gəlib mən cananı görmüşəm.

## DÖNÜBDÜ

Pozuldu dövranım, nəs gəldi ilim,
Mən gördüyüm o zəmanə dönübdü.
Uçubdu bülbülüm, boş qalıb gülüm,
Bahar-yazım zimistana dönübdü.

Solubdu bağçamın gülü, şəbnəmi,
Bürüyüb sinəmi möhnətin qəmi.
Yavaş-yavaş çatır ayrılıq dəmi,
Dərdim artıb bir ümmana dönübdü.

Talanıb dövlətim, tükənib varım,
Arif məclisində görünmür yerim.
Ərşə çəkilibdi yuxum, qərarım,
Rəxti-xabım şahmarana dönübdü.[1]

Etibar qalmayıb qohum-qardaşda,
Günah çoxdur eli qatan əyyaşda.
Mərdlər batindədi, gədalar başda,
Bəxti qalxıb Temir xana dönübdü.

Fələyin felindən olmadım halı,
Gətirdi başıma min qeylü-qalı.
Mahalım Göyçədi, öz adım Alı,
Qapı-bacam dəyirmana dönübdü.

---

[1] Yatağım ilan yuvasına dönüb; rahat yata bilməməkdən şikayət edilir.

## OLDU

Qafil gördüm Ərzurumun elini,
Bizim yerlər gözlərimdə cəm oldu.
Çox çətin ki, bu sevdadan qayıdam,
Yüküm hicran oldu, nəfim qəm oldu.

Munis buldum bir sevdanın qəhrini,
Boyladım dəryanı, keçdim nəhrini.
Alosmanın gəzdim cəmi şəhrini,
Mənim kimi eldən düşkün kim oldu?!

Bu ayrılıq məni çəkdi amana,
Görüm viran qalsın çərxi-zamana,
Aşıq Alı həsrət qaldı canana,
Seyraqub kuyində dəmhadəm oldu.

## DÜŞƏR

Bu dünyanın get-gəlini qananın,
Ölçər, biçər ürəyinə xal düşər.
Cahil uyar bir fitnənin felinə,
Şux gözəlin qismətinə çal düşər.

Qurtarmadıq padişahın bacından,
Gözü doymaz öz taxtından-tacından.
Müxənnətin, seyraqubun ucundan,
Bu gözəl ellərə qalmaqal düşər.

Özü öz halını anlamayan kəs,
Alı üçün libas biçir dəsbədəs.
Müxənnətə qənim olar müxənnəs,
Əhli-hal əhlinə, əhli-hal düşər.

## İNCİMƏRƏM

Mərifətli, qabliyyətli yar olsa,
Alsam da qoynuma il, incimərəm.
Qızılgülün ətrafında xar olsa,
Axıtsan eynimnən sel, incimərəm.

Məqsədini yaxşı-yaman qanıram,
Həsrətinnən alışıram, yanıram,
Əsil gözəlləri mən də tanıram,
Saxlasın yanında el, incimərəm.

Alıyam, sinəmdə olubdu yara,[1]
Mayılam könlümü bağladam yara.[2]
Yetirin cərraha, o loğman yara,[3]
Ölsəm də yanında, bil, incimərəm.

---

[1] Sinəm yaralıdı.
[2] Yara könül bağlamaq.
[3] Yaramı cərrah yara.

## AĞLARAM

Səni xəstə gördüm qəlbim qan oldu,
Ayıl bu qəflətdən, ellər, ağlaram.
Ox dəydi sinəmə, yaram deşildi,
Tökərəm didəmnən sellər, ağlaram.

Coşanda ürəyim aşırdım dağlar,
Düşəndə yadıma o keçən çağlar,
Bu günü görəndə dostlarım ağlar,
Tutulub dizlərim, bellər, ağlaram.

Alıyam, dərdimi yetirdim yüzə,[1]
Gəzirdim dağlarda, enmişəm düzə,
Bir gözəl istərəm gözümlə süzə,
Deyirəm sözləri dillər, ağlaram.

[1] Misra Aşıq Valehin "Fələk, səndə nə adətdir" misrası ilə başlayan gəraylısında və "Əsli və Kərəm" dastanında da var.

## MƏNƏM

Əsli-Kərəm çoxlarına misaldı,
Əyyubtək sinəsi yaralı mənəm.
Necə dərd çəkmiyim, fəğan etməyim?
Elimnən-günümnən aralı mənəm.

Dörd kitabdı yazılıbdı minayə,[1]
Min nəsihət, min dəlil var, min ayə.[2]
Yazıq canım qurban dedim Minayə,[3]
Yüz dərdlə, ələmlə yaralı mənəm.

Yaradanım yaradıbdı günahkar,
Ömür boyu zülüm verib nə ki var.
Mənim bu dərdimə yoxdu xiridar,
Günahkar-günahkar, yar, Alı mənəm.

[1] Müqəddəs mətnlərin şüşəyə, şirli lövhəyə yazılması.
[2] Qurandakı ayələrdən bəhs edilir.
[3] Mina dağına qurban aparılması (İbrahim peyğəmbər oğlu İsmayılı Allaha qurban kəsmək istərkən əvəzində qoç göndərilib).

## QURBANDI

Əhdi-peymanında dayanan yarın,
Şəninə Minada quzu qurbandı.
Ellər səna etsə qeyrət, arına,
Min sərrafın söhbət, sözü qurbandı.

Dağların nərgizi, çölün lalası,
Saqilər əlində mey piyalası,
Ceyranın, cüyürün körpə balası,
Ormanda maralın gözü qurbandı.

Əhdi-peyman ara eşqin yolunda,
Olmaya qəlb qara eşqin, yolunda.
Bir vəfalı yara eşqin yolunda
Bivəfa aşiqin yüzü qurbandı.

Ömrə həbib olan mehribanlara,
Şərafət gətirən sevən canlara,
Qail olmasalar bu qurbanlara,
Yolunda Alının özü qurbandı.

## YAZDIM

İçdim mərd əlindən eşqin badəsin,
Bais oldu canda marağa, yazdım.
Canan eşqi can evinə düşəndə,
Düşdüm diyar-diyar sorağa, yazdım.

Biri qıya baxdı, saldı ataşa,
Biri süzdü məni ayaqdan-başa.
Biri məhbub oldu, döndü sirdaşa,
Biri şəstin çəkdi darağa, yazdım.[1]

Biri saldı məni qafil inada,
Biri cəlil oldu həmdü-sənada.
Biri əyal atıb uyanda yada,[2]
Biri sirr verəndə qırağa, yazdım.

İqbal rast olanda vəfalı yara,
Vəsfini söylədim lalə rüxsara.
Birini görəndə əsil mahpara,
Birini bir çeşmi-çırağa yazdım.

Əlim üzüləndə ata-anadan,
Alı qəmnak oldu başdan-binadan.
Vəsfi aparmadı dəhri-fənadan,
Nə vardı sinəmdə varağa yazdım.

---

[1] Burada: zülfü, hörüyü, saçı darayanda.
[2] Başqa yerdən olan qadınla ailə qurmaq.

## SORUŞMA[1]

Qasid, yarım məni səndən sorarsa,
Söylə, Məcnun çıxdı dağa, soruşma.
Sorğu-sual çox dərinə vararsa,
De, ahından odlar yağa, soruşma.

Dilim tutmaz bimürvəti soruşam,
Bağçasından cüda düşən bir quşam.
Ucbatından qəhərlənib uçmuşam,
Tənha qondu de budağa, soruşma.

Alı neynər biilqarı görəndə,
Tərlan oylağında sarı görəndə,
Bülbül gül üstündə xarı görəndə
Əsla dönməz bir də bağa, soruşma.

[1] Burada: "soruşma" "soruşmasın" mənasındadı.

## GETDİ

Yarsız yenə qan ağlaram dəmadəm,
Kəsilibdi səbri-qərarım, getdi.
Bir kimsənə əlac etməz dərdimə,
Yoxdu, ləbi-məlhəm maralım, getdi.

Ahi-əfqanım da kara gəlmədi,
Neçə tor qurdumsa, tora gəlmədi,
Salıbdı cismimi nara, gəlmədi,
Sədaqət oxundan yaralım getdi.

Düşdü Məcnunundan aralı Leyli,
Kərəm oda yandı Əslidə meyli.
Alı giryan qaldı, yardan gileyli,
Köç etdi ceyranım, maralım getdi.

## QALMADI

Dedim, könül, gəl al məndən nəsihət,
Zay oldu bədənim, sağ da qalmadı.
Qohum-qardaş hərə düşdü bir yana,
Əridi ürəyim, yağ da qalmadı.

Dünya çarxı gərdiş vurdu dolandı,
Könül baxdı hər tərəfə bulandı.
Ellər gəldi yaylağında dolandı,
Qayıdanda heç kim dağda qalmadı.

Yazıq Alı nə çəkirsən fərağı?!
Ayrılıb vətəndən gəzmə irağı.
Xainin başatan yanmaz çırağı,
Pozuldu bostanlar, tağ da qalmadı.

## OLGUNAN

Bir söz deyim xətrin mənnən xoş olsun,
Bir busə istərəm, qayıl olgunan.[1]
Acıqlanıb mənə hədyan deyəndə
Düşgünən çöllərə sayıl olgunan.

Üzümə baxanda qoca görürsən,
Siyah zülfün dal-gərdəndə hörürsən.
Qəlbini əğyara, kara verirsən,
Baxgınan hikmətə mayıl olgunan.

Mina gərdən, nəzik bədən, al a sən,
İncə belə gümüş kəmər dola, sən,
Alıyı çəkməynən nara, ala sən,
Könlünnən könlümə hayıl olgunan.[2]

---

[1] Razı ol.

[2] Hayıl ol (yada sal: hayıl-mayıl olmaq).

## DEYİRƏM

Ay ağalar, gəlin sizə söyləyim,
Atəşi ürəkdə, ya nar deyirəm,
Qəvi düşmən pis fikirdən çəkinməz,
Od vurub sinəmə, yanar deyirəm.

Ürəyim dərdlidi, qəlbim fikirdə,
Tab edə bilmirəm bir belə dərdə,
Sayıltək səhrada qaldım şərməndə
Əl vurma, şüşəyəm, sınar deyirəm.

Alıyam, unutmam vəfalı dostu,
Vurubsan sinəmə kamanı, qəsdi,
Dedim əl çəkəsən, demədin bəsdi,
Qalmışam zülmətdə, kənar deyirəm.

## AMANDI

Başına döndüyüm, ədalət şahı,
Şahım, bu yollara düşmə, amandı.
Çuğul, şeytan sənə tələ qurubdu,
Şahım, bu yollara düşmə, amandı.

Bu yolların içi dolu lil olur,
Üstü bulud, altı quyu, gil olur,
Görürsənmi, şəmsi-qəmər ləl olur,
Şahım, bu yollara düşmə amandı.

Əskiklərin sözü keçməz arada,
Mərd igidlər tez yetişər murada,
Yazıq Alı ilqar qoydu burada, –
Şahım, bu yollara düşmə, amandı.

## MƏDİNƏ

Gözəl qiyafəli, Leyli kamallı,
Sənsən gözəllərin şahı, Mədinə.
Sevənlərdən gəl birinə könül ver,
Çəkdirmə amanı, ahı, Mədinə.

Bəyaz sinən dağda qarı andırır,
Hüsnün möminlərə dinin dandırır.
Mübtəlanı eşq atəşi yandırır,
Kəc dolanır rəvan rahı, Mədinə.[1]

Bir an firqətinə tab etmir ürək,
Əsli məlakəsən, hüsnün mübarək.
Camalın şölədi, şəmsi nə gərək,
Heyran qoydun ərşdə mahı, Mədinə.

Sevənindən seyrə çıxma aralı,
Zamanın hökmüdü, vədə daralı.[2]
Kamil səyyad ram eyləyər maralı,
Sən səyağı, zülf-siyahı, Mədinə.

Şanə bil zülfünə badi-səbanı,
Qoyma qiylü-qalda, eli-obanı.
Tədbirdə aqil bil Alı babanı,
Seç birini, ol pənahı, Mədinə.

---

[1] Yol gedən (yolçu) düz yolu çaşır, yolu səhv salır.
[2] Vaxt azalır, qısalır.

## YAYLAQ

Min büsata, min sovqata məkansan,
Əlvansan bu başdan-o başa, yaylaq.
Doymur cəlalından türfə gözəllər.
Eyləyir hüsnünə tamaşa, yaylaq.

İntizarda qoydun qışlaq elini,
Məftun eyləmirsən siyah tellini.
Almısan qoynuna incə bellini,
Girmisən aranla savaşa, yaylaq.

Bir mələk misallı atsa oxunu,
Kənar olmaz, can evimə toxunu.
Yağdı yağış, şirinlətdi yuxunu,
Büründü mehmanın qumaşa, yaylaq.

Alı divanədi, orman dolanır,
Gözəllər hüsnündə dərman dolanır,
Köçürəm, qətlimə fərman dolanır,
Yaşat gözəlləri, həm yaşa, yaylaq.

## GÖZƏLLƏR

Olam pasibanı seyrangahların,
Seyr edə yaylağı yazı gözəllər.
Çeşmə kənarında gərdən çəkəndə,
Heyran qoyur quba-qazı gözəllər.

Əbrişin libasdı, ahu baxışdı,
Qüdrətindən pür boyalı naxışdı.
Fərq eyləməz ya bahardı, ya qışdı,
Müdam eylər işvə-nazı gözəllər.

Nurdan xəlq olunub, qəddi-qaməti,
Huriyə, qılmana var dəlaləti.
Nəğmədə dolanır şanı, şöhrəti,
Yoldan eylər dayanmazı gözəllər.

Gördüm sizi dərdə məlhəm, çaralı,
Düzlərin ceyranı, dağın maralı.
Hicran çəksə, gül rüxsarı saralı,
Növcavanlar qəlb həmrazı gözəllər.

Mina gərdən, incə beli görməsəm,
Qönçədəhan, şəkər dili görməsəm,
Qələm qaşı, siyah teli görməsəm,
Tərk eylərdim bu avazı, gözəllər.

Sərrafı olmasam şəhla gözlərin,
Seyrinə çıxmasam şəmsi üzlərin.
Vəsfi olmasaydı ay bənizlərin,
Yad etməzdim əsla sazı, gözəllər.

Qəlbə şölə verən siz çeşmi çıraq,
Amandı, olmayın gözümdən iraq.
Bir əlində qələm, birində varaq,
Alı sizə dastan yazı, gözəllər.

## QOCALMIŞAM

Alagözlüm, sən nə məlul durubsan,
Sən görən deyiləm, yar, qocalmışam.
Qaymaqdodaq, gül yanaqlı bəxtəvər,
Gəlibdi gözümə tor, qocalmışam.

Dəhanda dişlərim gəlib amana,
Qədd əyilib, belim dönüb kamana.
Dolanıb ruzigar, dönüb zamana,
Tərlan baxtım olub sar, qocalmışam.

Tərsə düşən haqq sözümə inanmır,
Hicran çəkib, qara baxtım oyanmır.
Səngi-ahən bu dərdlərə dayanmır,
Görmüşəm gül üstə xar, qocalmışam.

Hanı yar yoldaşım, könül sirdaşım,
Atılıb, qürbətə düşübdü daşım.
Dağılıb başımdan qohum-qardaşım.
Çəkmişəm çox namus, ar qocalmışam.

Tüstü qalxar, duman olar başımda,
Ataş qaynar ürəyimdə, döşümdə.
Alıyam, olmuşam doxsan yaşımda,
Olubdu saqqalım, qar, qocalmışam.

## OLACAQDI

Dövlətlilər, nə uyubsuz dünyaya?!
Dünya malı sizə dar olacaqdı.
İncitməyin füqaranı, fağırı
Nəticəsi sizə zor olacaqdı.

Koxa deyir: dünya mənim, var mənim,
Torpaq mənim, bəhrə mənim, bar mənim,
Göydən düşən o çalpoylu qar mənim,
Unutmasın divan, dar olacaqdı.[1]

Həqiqət, axirət vardır dünyada,
Yeddi cəhənnəmi salsınlar yada,
Yoxsulun Allahı var bu fənada,
Siratın sualı var – olacaqdı.

Nökər saxlamağın çoxdu günahı,
Aləmə yetəcək miskinin ahı.
Zülm edənə zülm eliyər İlahi,
Yoxsulun naləsi car olacaqdı.

Aşıq Alı, sığın Şahi-Heydərə,
Ədalətsiz, mərifətsiz bəylərə.
Nütfəsiz loxması olan səylərə
Axirət tufanı, nar olacaqdı.

[1] Ədalət-divan, dar ağacı mənasında.

## OLMAZ

Qəm yemə, qəm yemə, divanə könül,
Həmişə ruzigar belə dar olmaz.
Özünü bilməzlə durub-oturma,
Beləsində namus, qeyrət, ar olmaz.

İnsan gərək namusunu atmaya,
Halal mayasına haram qatmaya.
Bir oğul ki, ata sözün tutmaya,
Bəd övladdı, çöhrəsində nur olmaz.

Yamanı götürüb, yaxşını atma,
İlqarı unudub, imanı satma.
Oruc tut, namaz qıl, duasız yatma,
Alı, dünya malı sənə var olmaz.

## GÖRMƏDİM

Viranə bağlara mən oldum bağban,
Almasın, heyvasın, narın görmədim.
Bivəfa sözündən çox cəfa çəkdim,
Bəslədim budağın, barın görmədim.

Vəfasız fələkdə etibar olmaz,
Ağlayan kimsədə giridar olmaz,[1]
Hər sevən kimsədə düz ilqar olmaz,
Çoxu çox danışdı, karın görmədim.

Alıyam, mətləbim veribdi xudam,
Bütün ölkələrə yayılıb sədam.
Hərcayı gözəli məhv olsun tamam,
Namusun, qeyrətin, arın görmədim.

[1] Girü dar (f.) – ağlayan adamda hökmranlıq, çarpışma, mübarizə, qətiyyət olmaz.

## GƏRƏK

Budur gözəllərdə əzəl nişanə,
Ağ üzdə xalları ay qoşa gərək.
Yar yolunda hər cəfaya qatlana,
İlqarında dura həmişə gərək.

Badilə nimtənə, hillədən çuxa,
Mirvaridən düzə, incidən taxa.
Ay kimi bərq vura, gün kimi çıxa,
Baxanda gözlərin qamaşa gərək.

Alı deyər, canım sənə sadağa,
O büllur buxağa, lalə yanağa.
Sallanıb gedəndə gülşənli bağa,
Tamaşa boyuna tamaşa gərək.

## ÖZÜMÜZ

Özgələrdən bizə xətər yetişməz,
Eyləməsək özümüzə özümüz.
Yanırıqsa, bir ocağa qalanaq,
Qoy söykənsin közümüzə közümüz.

Bəhsə düşüb əbəs yerə döyüşdük,
Qəlb sındırıb, qamət əyib öyüşdük.
Heç bilmədik nə iş tutduq, əyişdik,
Düz gəlmədi sözümüzə sözümüz.

Qovğa günü mərd meydanda ər dini,
Alıyam, axtarram elin mərdini.
Leylü-nəhar çəksin diyar dərdini,
Dürüst baxsın gözümüzə gözümüz.

## GÖZƏLLƏR

Səhər çağı çıxdı mənim qarşıma,
Göründü gözümə dəstə gözəllər.
Aylar-illər həsrətini çəkdiyim, –
Olmuşam dərdinnən xəstə, gözəllər.

Əflatun Loğmana getdi dərmana,
Yanıram oduna mərdi-mərdana.
Dolanım başına, olum pərvana,
Qoymayın könlümü yasda, gözəllər.

Alıyam, dünyada xam xəyal oldum,
Baxdım gözəllərə kəm xəyal oldum,
Düşəndə yadıma cəm xəyal oldum,
Al sinən üstündə bəstə, gözəllər.

## YANDI

Qəza qərq eylədi yanar odlara,
Elimin sərvinaz sonası yandı.
Atəş müqəddəsdi, napakdan qaçar,
Görmədim nə xənnas, nə ası yandı.

Nə idi günahı pakı-xilqətin,
Oldu mübtəlası dərdin, zillətin;
Aqil fəhm eləyib, alsın ibrətin,
Nağının gül üzlü balası yandı.

Dərkiyan naçardı dövran işinə,
Olmadı bir zəka, əlac düşünə.
Cümlə tab eylədi qəm atəşinə,
Mənimtək qəm əhli yanası yandı.

Qəbahət nə idi, odlar qalandı,
Əsil məhşər gördüm – qeyri yalandı.
Cümlə qəm eylədi, qəlbi talandı,
Aqil küdrət çəkdi, danası yandı.[1]

Aşkar şivən qurdu ilahi tala,
Alı tab etmədi bu müdhiş hala.
Bir cana borcluydu o körpə bala,
Nari-cəhənnəmdə anası yandı.

[1] Aqil də, alim də yandı.

## ÇALIM

Qəddi dal, eyni zay olsam da, gülüm,
İstərəm yenə də həvəsdi çalım.
Qəm çökdü sinəmə eyləyə zülüm,
Dur gətir sazımı, a Bəsdi, çalım.

Piranələr halı müdam müdhişdi,
Halətimə körpələr də gülüşdü.
Naqafil yadıma keçən gün düşdü,
Söylə bəmdən çalım, ya səsdi çalım?!

Alı haqqın qüdrətindən yaranı,
Xaliq xəlq eylədi qəlbdə qaranı.
Dilləndirib tez kəsərəm aranı,
Necə şövqə gəlim, nəfəsdi çalım?!

## SARIKÖYNƏK

Solar gül camalın, aranda qalma,
Dolan yaylaqları yay, sarıköynək,
Müştaqam boyuna, nəzərdən salma,
Etmə ömrüm ahu-vay, sarıköynək.

Təzələndi köhnə dərdin yarası,
Təbibimsən, səndə qaldı çarası,
Tökülüb zülflərin gərdən arası,
Çək üzə, çin-çin et, say, sarıköynək.

Alı deyər, keçdi şamın çoxumu,[1]
Qaynat qəhfədanı, dağıt yuxumu.
Gətir fincanları, yanında lumu,
Sən doldur, mən içim çay, sarıköynək.

---

[1] Keçdi - burda: yandı, tükəndi, söndü.

## HƏCƏRƏ

Bəşər deyil, huri-qılman deyərəm,
Gözəllərin məhək daşı Həcərə.
Zinət verir mina gərdən, şəhla göz,
Mələk sima, qələm qaşı Həcərə.

Neçələri firqətindən nalandı,
Məhşər qurub, can atəşə salandı.
Neçə el gözəli gəldi dolandı,
Bənzəmədi bir həmyaşı Həcərə.

Məğrur dolanmağı eylədi peşə,
Kim görsə, eynindən azara düşə.
Züleyxa seyr etsə, tapar əndişə,
Şirin görsə, inan çaşı, Həcərə.

İnanma bir kimsə məramın əyə,
İnadkardı, könül vermir kimsəyə.
Məhəl qoymaz nə sultana, nə bəyə,
Mail olur nadan, naşı Həcərə.

Qürurlu yarandı nəslin əzəli,
Alıya şövq versin dünya gözəli.
Bir qıya baxarsa, müşkül düzəli,
Nə iltimas addımbaşı Həcərə.

## TƏRK ELƏ

Əbru çəkmə bədirlənmiş ayə sən,
Qəm yaradan o yaşmağı tərk elə.
İnsaf eylə sal üstümə sayə sən,
Tez rübəndə yanaşmağı tərk elə.

Giryanam gözəllər xası ucundan,
Qəhərlənib tutdum yası ucundan,
Bir busənin təmənnası ucundan
Məhrəm ilə savaşmağı tərk elə.

Alını qəm canda bikar edəndə,
Qəlbi xoşhal olar, şikar edəndə,
Hərdən təmənnasın aşkar edəndə,
Gülə-gülə o qaşmağı tərk elə.

## YETİŞDİ

Bu dünyada heç şad olub gülmədim,
Hər vaxt işim ahu-zara yetişdi.
Mənsur cəhd elədi murada yetə,
Axırda Hələbdə dara yetişdi.[1]

Ağladım gözlərim qan ilə doldu,
Dost-müsahib tamam mənnən yad oldu.
Bağ pozuldu, xəzan oldu, gül soldu,
Bülbül öldü, qönçə xara yetişdi.

Sarvan ollam, qəm ovsarı çəkərəm,
Hicrana müştaqam, dərdə nökərəm.
Ah çəkərəm, vərəm yükün tökərəm,
Görən deyər, Alı vara yetişdi.

[1] Tarixi mənbələrdə Mənsur Həllacın Hələbdə yox, Bağdadda dara çəkildiyi qeyd edilir.

## NEYNƏR

Cümlə xilqət bu cahana mübtəla,
Cahanı sevməyən cananı neynər?!
Eşqdən bixəbər naşı, nadandı,
Əhli-ruh aləmdə nadanı neynər?!

Huri-rüxsar, hilal qaşlı, siyah tel,
Boyu mina, əndam büllur, incə bel.
Diyarım zibasın əsil mələk bil,
Bizim mahcamallar ədanı neynər?!

Səslə hüzuruma aqil kəsləri,
Hikməti dərk edən pürhəvəsləri.
Qovla məclisimdən kənar kəsləri,
Alı mərəkədə gədanı neynər?!

## «ƏLİF», «BEY»İ, «QAYIN»I

Kəndi laf eyləyib aşığam demə,
Mən oxudum "əlif", "bey"i, "ğay"ını.
Sualıma cavab verə bilməzsən,
Sən bilmirsən "əlif", "bey"i, "qay"ını.

Təkcə yaranmışam ata, anadan,
Dərsimi almışam Sirri-Xudadan.
İçmişəm kövsərdən, dürrü badadan,
Düzmüşəm sinəmə eşqin yayını.

Tanımırsan duşmənini, dostunu,
Dilin yoxdu, cavabsızsan, susdumu?!
Alı deyər, çıxardıbsan pustunu,[1]
Tutar bəla muxənnəti, xayını.

[1] Cildini (pust - dəri) dəyişmisən, soyunmusan, çıxartmısan və s.

## EYLƏR-EYLƏR

Şah bağına dadanıbdı ac arı,
Zənbur şirə çəkər bal eylər-eylər.
El töhməti, düşmən sözu, yar qəhri,
Artırar dərdimi bol eylər-eylər.

Kasıblığa şükür eylə dünyada,
Kərəmli padişah həddən ziyada,
Özün üçün savab qazan dünyada,
Sualsız cənnətə yol eylər-eylər.

Aşıq Alı deyər, ya "sin"ə bir gün,[1]
Namərdin gərdəni ya sına bir gün,[2]
Mən öləndə tutun "Yasin"ə bir gün[3]
Aqibət üstümü sal eylər-eylər.

---

[1] Ərəb əlifbasında hərf, burda "bismillah" mənasında.
[2] Namərdin boynu sınsın.
[3] Mən öləndə Yasin surəsinə tutun, Yasin oxunsun (yada sal: gülləyə tutmaq).

## GÖZ

Nə maralda, nə ceyranda görmədim
Belə sərraf, belə sərxoş ala göz.
Əfsun edib saldı məni azara,
Ucbatından hey çəkirəm nala,[1] göz.

Bircə kərə dolananda qıyqacı,
Yaradır cismimdə can ehtiyacı.
Alır can evindən külli xəracı,
Bais olur qovğa, qiylü-qala göz.

Alını oxladı bir pərizada,
Görməmişəm böylə afət dünyada.
Bir nəzər eylədi, gəldim fəryada,
Yaranıbdı can evinə bala göz.

---

[1] Nalə.

## QAŞLARIN

Hilalidən sərih pürü-qəmzəli,
Nadir dürrü zəmanədi qaşların.
Tiri-xədənginə sədrim nişanə,
Bir nisbəti kamanadı qaşların.

Yanaqları parə ayə təşbehdi,
Səyyarəli bir səmayə təşbehdi.
Sərbazın dəstində yaya təşbehdi,
Səyaları hər yanadı qaşların.

Duruşu can alan çərxi-fələkdi,
Hifzində çeşmilər sanki mələkdi.
Alma canım, Alı nakamdiləkdi,
Nədən məni kəc yanadı qaşların?!

## OLSUN

Bağlandı yollarım, Mehriban xanım,
İnanma, eşq əhli biganə olsun.
Həsrətindən yanan biçarə canım,
Dolansın sərinə pərvanə olsun.

Hər tərəf çinovnik, qar aldı dağı,
Qaçaq İbrahimdən aldım sorağı.
Bülbülsüz xəzandır könüllər bağı,
Lənət bu kəcrəftar dövrana olsun.

Alının sərində tükəndi ağlı,
Namümkün səfəri, yolları bağlı,
Qaldı qəmxanada sinəsi dağlı,
Nifrət pristava, həm xana olsun.

## DƏLİDAĞ

Könvü bünövrədən yarandın cünun,
Yol verməzsən ehtiyaca, Dəlidağ.
Cənnət misallısan, bahar çağındı,
Gül çilənib hər yamaca, Dəlidağ.

Sana gəlmir sürü sanı, ney sanı,
Çeşmələrin təşnə könül ehsanı.
Xoşhal oldum əbrun tökdü leysanı,
Bu halətdən namərd qaça, Dəlidağ.

Tərtər, Tutqu, Barıtlı su axandan,
Neçə yaylaq asılıbdı yaxandan.
Bir nəzər eylədim Taxtabaxandan,
Bənzəyirsən başda taca, Dəlidağ.

Aram olmur zimistanda savaşın,
Müdam ağ ürbəntdən qürurlu başın.
Vəsf eylədim Ağrı dağı qardaşın,
Qərarlaşıb bir az uca, Dəlidağ.

Haziranda əsrin dastan nağılı,
Xəzan olsa, itirərsən ağılı.
Qəhr eyləmə, vəsfkarın dağılı,
Əl eylə, ruzi ver aca, Dəlidağ.

Canansız sinəndə dolandım naçar,
Ruhum Savalana, Şahdağa qaçar.
Sütunsan, asmana əyilmə, uçar,
Sən layiq deyilsən baca, Dəlidağ.

Bir yanın Naxçıvan, bir yan Dərələz,
Xof eylər, səcdənə kimsənə gəlməz.
Alı qoynundasa, qəddi əyilməz,
Növrəs qalar, olmaz qoca, Dəlidağ.

## DAĞLAR

Hanı məlahətin, müzəffər ellər,
Vur qəmə, qəlbimi yarala, dağlar.
Qalaram qoynunda aralanmaram,
Sına qüdrətini, arala, dağlar.

El məni yanında xəcalət etdi,
Xəzanə qalmadı, arana getdi.
Əbədi sakinlər peymana mərddi,
Məkansan cüyürə, marala, dağlar.

Səda salsam, kimsə çıxmaz eşiyə,
Bərələrdə təkə durub keşiyə.
Bərqin yenə atəş salıb meşiyə,[1]
Zərbindən şəcərən nar ala, dağlar.[2]

Qəmnak oldum Mıxtökənə çıxanda,
Şad olaram burda – Tərtər axanda.
Elsiz yaylaqlara qəmli baxanda,
Rüxsarım təlx ola, sarala, dağlar.

---

[1] İldırım meşəyə işıq salıb.
[2] İldırımdan, ildırım zərbəsindən ağaclar od alar.

Giryanam Murovdağ, Qonur can desin,
Dəlidağ kükrəsin, qanhaqan desin,
Kəpəz əhvalını nigaran desin,
Bivədə zirvəsin qar ala, dağlar.

Qəhri qəzəbindən halı da getdi,
Çəkdi sürüləri, malı da getdi.
Eşitsən fənadan Alı da getdi,
İsminə qələm çək, qarala, dağlar.

## DAĞLAR

Sədrin səfalıdı, sərin sevdalı,
Aləmi imkanda sədalı dağlar.
Tufana yenilməz, şaha baş əyməz,
Vüqarlı, cüssəli, ədalı dağlar.

Təlatüm zərbindən olundun bina,
Müqəddəs yerindi Turunan, Mina.
Haziranda döndü rövzü-rizvana,
Zimistanda qəfil qadalı dağlar.

Altı ay zülcəlal, altı ay kəmin,
Ellər yığnağından yaranar dəmin.
Dəyişsə halını asiman, zəmin,
Çəkər bir-birindən bad alı dağlar.

Səxanı, sayəni bimürvət danı,
Yeyildi qoynunda min elin nanı.
Abı-kövsər üstdə zənburun şanı,
Nemətindən doyan dad alı, dağlar.

Bahar el məkanı, xəzanda kanı,
Xotkarın, sərdarın, sultanın hanı?!
Vəsfikarı köçən bir bülbül tanı,
Qalmaz nə Ağ Aşıq, nə Alı, dağlar.

## DAĞLAR

Qəzanın qədəri, çərxin gərdişi,
Çəkdi yollarımı haraya,[1] dağlar?!
Ağladıban sızladırsız aşığı,
Alıbsız dörd yandan araya, dağlar.

Nə müddətdi damənində qalmışam,
Şirin canım kəməndinə salmışam.
Siz karsınız, yoxsa ki, mən lalmışam?!
Eşidin səsimi, haray, a dağlar!

Qarlı-qarlı gədiyinə varanda,
Boran olub yollarını hörəndə.
Aşıq Alı şirin canın verəndə,
Şahlar şahı yetsin haraya, dağlar.

---

[1] İstiqamət mənasında.

## KEÇDİ

Səfalət əlindən, peyman əlindən,
Aşıq kərə-kərə dağları keçdi.
Halətimə əsla yarım yanmadı,
Görəndə mənimtək ağları, keçdi.

Tənha qaldı, yarım eşqi hüveyda
Qəfildən arada qəm oldu peyda.
Dolanır həsrətlə bülbülü-şeyda,
Gəldi gül görmədi, bağları keçdi.

Alının qürbətdə anı yüz ildi,
Yarı-vəfadarsız canım üzüldü.
Abı-çeşmim leysan oldu, süzüldü,
Ömrümdən məhşərin çağları keçdi.

## GETDİ

Bir vücudi-səcdəgahım sanardım,
Tərk etdi fərzəndin, üqbaya getdi.
Apardı əqlimi, din-imanımı,
Nuhu Nəbiyyiyə həmsayə getdi.

Verdi fərmanını təqdiri-qüdrət,
Xanədən qeyd oldu aliyə xilqət.
Qərzinə nakamam, dürüst xəcalət,
Qaldı kəlamımda nəzm, ayə getdi.

Qəfil susdu o xeyirxah zəbanı,
İtirdim ateyi, ol mehribanı.
Kimsəsiz sanaram fəna dünyanı,
Vermədi sirrini kimsəyə getdi.

Giryanam, çeşmimdən qanlı yaş axar,
Hicranı cismimi yandırar, yaxar.
Anam nalə çəkər, bacım darıxar,
Qeyb oldu üstündən himayə getdi.

Seyri-fələk dəhşət oldu Alıya,
Mirzə sayaq kim baxardı balıya?!
Firqəti cismimi xaka calıya,
Rəhm etmədi məntək bivayə, getdi.

## VAR

Namə, ərzi-halım söylə canana,
Ucbatından qürbət eldə qalan var.
Səfalət baisdi bu sərgüzəştə,
Bəd güman var, bədəsil var, nalan var.

Züleyxa səxalı, ey nazlı niyar,
Aludən peymanda sərini qoyar,
Məhbubəm cismimdi, canımdı diyar,
Kafər deyər kəlamında yalan var.

Həm olsa yadlara Alı uyası,
Səngisar eyləsin gözəllər xası.
Mürdədil olmasın cənnət huması,
Qəlbdə qara, can evində talan var.

## AŞIĞI

Həbib oldum, eldən doğdu qüdrətim,
Xudam qul xəlq etdi elə aşığı.
Şagird xəbis oldu, artdı küdrətim,
Xar olsun aləmdə belə aşığı.

Sənətkara yaddı çeşmidən xumar,
Qəlbdən ana bilər, dildən desə yar.
Aşıq bir abdaldı bəhrə etibar,
Qardaş bilin siyah telə aşığı.

Nadanın əlindən hey çəkərəm dad,
Ucbatından könül olmadı abad.
Alıya kimsənə tutmadı irad,
Bir nakəs salmadı felə aşığı.

## KEÇDİ

Qəlbi dəmə çəkdim, qəmə yan aldı,
İbtidadan ömrüm hicranda keçdi.
Dərdi-sər əlindən cana gələndə,
Dedi: nadan ömrü dövranda keçdi.

Qəza nəqafildi, dəmadəm güdür,
Gərdiş bir ümmandır, ömür üzgüdür.[1]
Bu dəhri məna da bir zay güzgüdür,
Xilqət nəzər saldı bir anda keçdi.

Qüdrətdən yox, Alı, dəyanət sənə,
Nəğməkarlıq oldu bir adət sənə.
Xəyanət eylədi səadət sənə,
Hərdən yavuqlaşdı, yan-yan da keçdi.[2]

---

[1] Misranın mənası: zaman, dolanan dünya dənizdir, ömür də üzgüçü.

[2] Yandan, uzaqdan.

## APARDI

Piranəlik ömrə müdhiş bəladı,
Xürrəm avazımı dildən apardı.
Qüdrətimi kəramətim puç etdi,
Ram eylədi qəlbim eldən apardı.

Fələyin mənimlə kəcrəftar qəsdi,
Sərimdə sevdadı, guşimdə səsdi.
Nainsaf qocalıq yaman tələsdi,
Aldı simli sazım əldən apardı.

Dövranın aşıqla qəsdi al oldu,
Eynim zəlil oldu, qəddim dal oldu,
Alı fənalara bir timsal oldu,
Cümlə taqətimi beldən apardı.

## OLMAZ

Təbib deyə hey dolandım diyarı,
Zəlili-eynimin çarəsi olmaz.
Şamu-səhər qanlar axar qəlbimdən,
Sitəmi candadı, yarası olmaz.

Könlümün şəhridi virandan viran,
Qan ağlar sərasər əhvalım soran.
Qəmlər qəmxanəmdə oldu hökmran,
Saysız leşkəri var, darası olmaz.

Çağrılardım nəğməkarlar xası mən,
Yad oldu çeşmimə nuri-asiman.
Alıyam, saxlaram canda yası mən,
Onun toy-büsatla arası olmaz.

## SALIBDI

Sitəmkar dolanır fəna gərdişi,
Mahalı qovğaya, qala salıbdı.
Məxluqatın ah-naladı vərdişi,
Səhrayi-sərgəndar hala salıbdı.

Baharım xəzandı, iqbalım yaman,
Bimürvətdi fələk, verməyir aman.
Qəza-qədər ilə hökm edir zaman,
Bəd azarı dövlət-mala salıbdı.

Hərras qan ağlayır, fotdu əkənək,
Mərtubat qeyb oldu, zaydı biçənək.
Kimsənə yox, arxa bilib söykənək,
Qəhətliyi bu mahala salıbdı.

Sərimdə seyr edir fələk qovğası,
Viran qaldı çoxlarının yuvası.
Təqlil oldu sazımın dəm havası,
Şikəstəylə çalhaçala salıbdı.

Qəlbdən kənar olmur dövranın dərdi,
Giley-güzar iqbalımdan hədərdi.
Alının peşəsi qəmdi, kədərdi,
Neçə belə dövran yola salıbdı.

## QADASIN ALDIĞIM

Bir bölük gözəllə qarşıma çıxdın,
Bir az dayan, dur, qadasın aldığım.
Müjgan oxun sinəm üstə tuş etdin,
Kamandarsan, vur, qadasın aldığım.

Ustadlar sözünü söyləməz qələt,
Gəzmişəm hər yanı, olmuşam bələd,
Gözəllərdə olar aşığa xələt,
Layiq bilsən ver, qadasın aldığım.

Aşıq Alı deyər, bir şirin dildi,
Bülbüllü bağçada bir qızıl güldü.
İşarət anlayıb mətləbi bildi,
Çox arifdi, gör, qadasın aldığım.

## ZAMANIDI

Ay ağalar, gəlin sizə söyləyim,
Vəfasız ömrümün köç zamanıdı.
Bu fani dünyada kama yetmədim,
Dost ilə düşməni seç zamanıdı.

Arif odu, dediyimi tez qana,
Dolanır qərinə – günbəgün sana.
Ömrüm azalıbdı, çatıbdı sona,
Ağlayın üstümdə, köç zamanıdı.

Alıyam, fələkdən çox intizaram,
Məni incitməyin, ağrıyır yaram.
Hündürdən danışın, guşumdan karam,
Bulunmaz dərdlərdən düş zamanıdı.

## İTİBDİ

Bülbül fəqan eylər, hey gəlir səsi,
Güllər solub, o bağbanlar itibdi.
Oxuyub qumrutək kəklik ləhcəli,
Mən gördüyüm növcavanlar itibdi.

Oxumamış mən əbcəti bilirəm,
Dərya kimi təlatümə gəlirəm.
“Bey” peyğəmbər, “əlif” Allah qanıram,
Din tərk olub, yol ərkanlar itibdi.

Göydə bir quş varır, adı dolaşıq,[1]
Nitqi yoxdur, sözün söylər dolaşıq,
Hər saz çalan deyir, bil mənəm aşıq,
Alı kimi süxənkarlar itibdi.

---

[1] Dolaşa quşu.

## MƏNİ

Ay ağalar, gəlin sizə söyləyim,
Nə üçün tapdayır yazı qəm məni.
Üç ay zimistanım qar-boran oldu,
Baharda çulğadı yazı qəm məni.

Oxu kitab – “əlif”, “bey”i, “qayın”ı,
Bəla tutsun müxənnəti, xayını.
İtirməynən nə haqqını, sayını,
Öyrətdim dilimə yazıq “Əmmə”ni.

Alı deyər, nəqş eyləyin sözləri,
Vurulub sinəmə eşqin közləri.
Gülsifətli, lalə yanaq qızları,
Az qalıb öldürə nazı, qəm məni.

## SÜRÜDÜ

İstəyirəm qələm alım, söz yazım,
Xəyal məni çox yerlərə sürüdü.
Qohum-qardaş, dost-müsahib yad oldu,
Vaxt da keçdi, cavan ömrüm çürüdü.

Fələk qəhr eylədi saldı çöllərə,
İntizaram, göz dikərəm yollara.
Yazaram vəsfimi düşər dillərə,
Qəza gəlib ətrafımı bürüdü.

Alıyam, sinəmdə eşqin sevdası,
Ətlas nimtənəsi, gümüş baftası.
Çalxanır dəryada suyun sonası,
Bilmirəm mələkdi, yoxsa hürüdü?!

## DƏRDİMİ[1]

Nə həkim, nə loğman, nə cərrah qaldı,
Yazdırmışam hər dəvaya dərdimi.
Mənim dərdim hər bir dərddən uludur,
Nə nər çəkər, nə də maya dərdimi.

İgid odu mayasını pak tuta,
El içində öz-özünü xak tuta.
Tüccar gərək bu dərdimi yük tuta,
Mirzə gərək yaza, saya dərdimi.

Aşıq Alı deyər, ay günü qara,
Bulunmaz dərdimə gəl eylə çara.
Yusif getdi satılmağa bazara,
Gedin deyin Züleyxaya dərdimi.

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

## TAPILMAZ[1]

İsmi münəvvərsən, mahi münəvvər,
Gah sühasan, gah süheyli tapılmaz.
Lübabi zülcalal[2] sənsən cahanda,
Məcnunam, araram, Leyli tapılmaz.

Həsrətindən yara yandı cismimdə,
Kərəm adı gör əyandı ismimdə.
Peyman olar gözəllərin qismində,
Əsil Əsli nisbət xeyli, tapılmaz.

Şəfa çeşməsisən, sərvi-xuraman,
Səbi sərbəst elə, aman, əl-aman.
Könül ver Alıya, afəti-zaman,
Qeyri kimsənədə meyli tapılmaz.

---

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.
[2] Xalis (burada-əsl) cəlal sahibi.

## NEYLƏYİM[1]

Keçdi cavanlığım, keçdi dövranım,
Zəmanə qəddimi əydi, neyləyim?!
Arif işarədən duydu dərdimi,
Nadan tənə edib söydü, neyləyim?!

Düşmənəm binadan amana, aha,
Tükənib ocaqdan kösöyüm daha.
Ağlasam, xoş getməz göydə Allaha,
Məni kor yığvalım döydü, neyləyim?!

Alışa bilmirəm heç bu sayağa, –
Dərzi sapa həsrət, küpçü boyağa,
Bəyliyə layiqlər düşüb ayağa,
Hər yava ağızsa bəydi, neyləyim?!

Gözsüz, pərəstarsız biçarə Alı,
Gəzdi doğruluğu əli çıraqlı.
Batıbdı zülmətə Göyçə mahalı,
Aləm bir-birinə dəydi, neyləyim?!

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

## YERİ[1]

Gözəl, sən ki seyrangaha çıxıbsan,
Gəl belə sallanma, yolu düz yeri.
Cananım, cövrünə can saxlamışam -
Ömrüm budağının gülün üz, yeri.

Can qurban sənintək vəfalı dosta,
Həsrətin çəkməkdən olmuşam xəstə.
Qazdır məzarımı su yolu üstə,
Hər gəlib-getdikcə dolan, gəz, yeri.

Alıyam, yurdumu el-el gəzərəm,
Çarəsiz dərdlərə dərman yazaram.
Gətirmişəm tirmə şallar, bəzərəm,
Sən yaxana qızıl düymə düz, yeri.

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

## GÜLÖYŞƏ[1]

Səni gördüm, cani-dildən şad oldum,
Həsrət idim bir gülüşə, Gülöyşə.
Ömr elədim qürbət eldə, yad oldum,
İncə belli, əndam şüşə Gülöyşə.

Müşk-ənbərin mərəkəmi bürüdü,
Baxan deyir: ya pəri, ya hürüdü.
Tənha qəlbim qəm evində çürüdü,
İqbalıma qəmlər düşə, Gülöyşə.

Bu fənadı, açılan bir, solan bir,
Mənim kimi eşq oduna qalan bir,
Abü-tabla məclisimi dolan bir,
Mən aşiqəm şux yerişə, Gülöyşə.

Fəraqından öz canıma qəsd oldum,
Camalın şövqündən bihal, məst oldum,
Şükürlər ki, öz elimdə rast oldum,
Şəkər dəhan, sədəf dişə, Gülöyşə.

Avazımla qəlbdən qəmi silərəm,
Vədəm çatsa, diyarında ölərəm.
Erkən yoldu, gedib bir də gələrəm,
Son qoyaram bu gedişə, Gülöyşə.

---

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

Sevdim gözəlləri, bu niyyətimdi,
Elə, el oğluna bu biyətimdi.
Qoşdum qoşma, dünya ölüm-itimdi,
Yad edərsən sən həmişə, Gülöyşə.

Bais sənsən sevgimə, sevincimə,
Bir də baxım dürdanəmə, incimə.
Səni Tanrı, gəl Alıdan incimə,
Aşıqlarda budu peşə, Gülöyşə.

## ZƏRNİŞAN[1]

Nə şövq ilə gərdəninin üstünə,
Darayıb tökübsən teli, Zərnişan.
Bir gün aşiqindən aralı düşsən,
Axar gözlərinin seli, Zərnişan.

Geyibsən ayağa çəpkən başmağı,
Sənə var aşığın dastan qoşmağı.
At üzdən niqabı, götür yaşmağı,
Çağır tamaşana eli, Zərnişan.

Dost üçün, el üçün Alı da kilid,
Vəfalı gözəlin alı da kilid,
Baş qoyub hökmünə bir tərlan igid,
Deyib dediyinə "bəli", Zərnişan.

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

## YETMƏDİM[1]

Nahaq yerə qəhrə düşdüm dünyada,
Bağ becərdim, payız bara yetmədim.
Pusqu qurdum, kəmənd atdım, qovladım,
Gecə-gündüz bir şikara yetmədim.

Anlamıram, nə gərdişdi, nə işdi,
Müxənnətlər hər kamına yetişdi.
Ömrüm-günüm həsrət ilə ötüşdü,
Cəfa çəkdim, heyif, yara yetmədim.

Mən biçarə, sən Alosman maralı,
Alışaram, gəzmə məndən aralı.
Görən gündən müştağında bu Alı,
Qoynundakı bir cüt nara yetmədim.

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

## DÜNYA[1]

Sinni qoca bir səmada zibadı,
Gəşd eylər bəşərlə yanaşa dünya.
Mail oldum aşüftəhal hüsnünə,
Etmədim canana tamaşa, dünya.

Bətnində bərqərar cümlə imkanım,
Sənsən mənim əzəl, axır məkanım.
Vücuduna qərzidardı bu canım,
Alanda düşmərəm təlaşa, dünya.

Rəsimlərin kimsə çəkə bilmədi,
Qurdu, açdı min mərəkə, bilmədi,
Təqdirini kimsə sökə bilmədi,
Heyranam o nadir nəqqaşa, dünya.

Afitab salmasa üstünə sayə,
Zay olar qüdrətin, yetməzsən haya.
Döndərib üzünü müdam səmaya,
Eylə əhsənləri birbaşa, dünya.

Bir köçən olmasa, yaranmaz biri,
Haqq – ana sanıram mübarək yeri.
Peşkəşdi bətninə Alının səri,
Döndər ya turaba,[2] ya daşa, dünya.

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.
[2] Turab – torpaq (dialekt söz).

## DÜŞDÜ

Bir dəzgah qurmuşam, yüz min qolu var,
Hər telindən, dilbər, bir şanə düşdü.
Ömür keçdi, cavan qəddin büküldü,
Yasəmən zülflərə nişanə düşdü.

Əldə şanə, zülfün dara bir yana,
Hurilər, bir yana, dilbər bir yana,
Dərdimi yüklədim, oldu bir xana,
Dəryada nəhəngə, ümmana düşdü.

Dibi dərya, başı qar, qubara bax,
Yar sinəsi səmər vermiş, nara bax.
Deyər Aşıq Alı, sən bu kara bax -
Mömin nara, kafər rizvana düşdü.

## HƏLƏ[1]

Ey dünyanı anlamağa can atan,
Bilə-bilə get başını yor, hələ.
Məhəbbətə, mərhəmətə baxan kim?!
Məxluqatı ram eləyir zor, hələ.

Baş girləmə, qalıb sərvət hayına,
Neçə yerdən göz dikilib payına.
Ayıq ol ki, duz tökərlər çayına,
Gözlərinə çəkilməmiş tor, hələ.

El xəbərsiz sinəmdəki yaradan,
Qəmim yada xoş gələcək, yara dan.
Məhəttələm, nə gözləyir yaradan,
Çalınmayıb indiyədək sur, hələ?!

Dəli könül istəyini danmadı,
Ocaq çatdım, küləklədim, yanmadı.
Kimə dedim mətləbimi, qanmadı,
Dedi: çəkil, cızığında dur, hələ.

Aşıq Alı məskən salıb qayada,
Qıy çəkir ki, yatmışları oyada.
Bic toxumlar hal qoymadı mayada,
Kül içində gizlənibdi qor, hələ.

---

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

## MƏLƏK[1]

Gözəllər sərbəstə seyrangahdadı,
Ərz etdim: Mələklər şahıdı Mələk.
Cansitanım inkar etməz sözümü –
Bu çeşmə başıdı, şahidi Mələk.

Aludəni qəlbi para eyləmə,
Kim sövq eylər – dərdə çarə eyləmə?!
Kuhkan mənəm, günü qara eyləmə,
Desinlər, şəbistan mahıdı Mələk.

Vəfasızsan, imdadıma çatmasan,
Xabi-əcəldəyəm, sən oyatmasan.
Tənha qalıb, sübh-sadiqə yatmasan,
Bişəkki, Alının ahıdı Mələk.

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

## KEÇDİ[1]

Addadı zimistan, gəldi nobahar,
Dolandı ruzigar, havalar keçdi.
Dəli könül gündə yüz xəyal eylər,
Bəlalı sərimdən sövdalar keçdi.

Mən sana nə deyim, ay şahi-şonqar,
Apardı ağlımı gözdəri xumar,
Könlümə olmadı bir münasib yar,
Gəldi məleykələr, sonalar keçdi.

Aşıq Alı, pürğəm səni bürüdü,
Eynin yaşı sel-sel oldu, yeridi.
Cavan canın qürbət eldə çürüdü,
Neçə çərşənbələr, cumalar keçdi.

[1] Şeirdə qafiyyə səhvi var.

## BAX

Bu dünyanı mən təcrübə eylədim,
Bu çərxi-gərdişin yollarına bax.
Satıcılar yalan yerə and içir,
Gör nələr danışır – dillərinə bax.

İnanmayın boyaqçının dilinə,
Cövhər, aşqar – yaman qatır lilinə.
Baxmayın hacının yoğun şalına,
Gedib evlərində günlərinə bax.

Dövlətlilər əzrayılsız can alır,
Pulun sələminə ot, saman alır,
Əvvəlcə beş verir, sonra on alır,
Qiyamət günündə hallarına bax.

Bənnalar da divar çəkir hər yana,
Axşamacan danışırlar əfsana.
Nəccarlardan var yaxşısı bir dənə, –
Zoddu İbrahimin əllərinə bax.

Əllaf ilə baqqal nə işlər görür,
Haqqını düz alıb yarımçıq verir.
Bir arşında yarım çərək qol vurur,[1]
Sən onların fəndi-fellərinə bax.

---

[1] Çərək (f.) dörddə bir – misranın mənası: baqqal hər ölçüdə (qol ilə arşınlayanda) alıcını aldadır.

Gör neyləyir qalayçıyla dəmirçi,
Xalqın evin yıxdı papaqçı, kürkçü.
Arvadları soyur pinəçi, çərçi,
Sövdadakı qiylü-qallarına bax.

Nalbənd də çəkici çox döyür nala,
Pulunu almamış salmayır yola.
Tez-tez mıxa salır, haqqı bol ola
Üzünə tüpürür, yallarına bax.

Hər nə dükançı var hazar eyləyin,
Çıxın şəhərlərə nəzər eyləyin,
Gedin bəzzazınan bazar eyləyin
Saldıqları qalma-qallarına bax.

“Amin” düşməz mollaların dilindən,
Arvadların asma asır telindən,
Cin çağırır, baş açmazsan felindən
İlgəklə qurduğu fallarına bax.

Dəyirmançı neylər, söyləyim sənə,
Üç yol şahad alır doymayır yenə.
Altından ling qoyur, üstdən dəndənə,
Qabaqdan toz edir, dallarına bax.

Pirim Şahi-Mərdan, Heydəri-Kərrar,
Dadıma yetişsin Əhmədi-Muxtar.
Aşıq Alı üzü qara, günahkar,
Cəhənnəm odunun küllərinə bax.

## DÜŞMÜŞƏM

Əziz mehribanım, gözümün nuru,
Beyqəfildən bir azara düşmüşəm.
Qəza yazdı, qədər gördü işini,
Alışıb ataşa, nara düşmüşəm.

İtirdim irahı,[1] gəzdim düzünü,
Mən görmüşəm nainsafın yüzünü,
Gəl sənə söylüyüm sözün düzünü,
Ah çəkibən ahu-zara düşmüşəm.

Alıyam, sərimnən gedib xəyalım,
Nə loğman tapmadım, nə də ki alim,
Mən sənə neylədim, a qəddar zalım,
Ucbatından hey avara düşmüşəm?!

[1] Yolu itirmək.

## KƏSİLDİ[1]

Fərzəndi-şərəfim köçdü fənadan,
Fələyin boynuma qəhri kəsildi.
Necə əl götürüm həmdü-sənadan?!
Şəkər dəhanımda zəhri kəsildi.

Şərəfim, şöhrətim, oydu pənahım,
Xaliqin önündə nəydi günahım?!
Ərşə bülənd oldu amanım, ahım,
Həyat çeşməsinin bəhri kəsildi.

Nə ümid qəzadan məntək halıya?!
Fəryadım elləri oda qalıya.
Ümid çeşməsiydi yazıq Alıya,
Çeşməsi qeyb oldu, nəhri kəsildi.

---

[1] Oğlu İsmayılın ölümünə yazdığı şeir.

## MƏNİ[1]

Cəsədi möhnətdə nara qalandım,
Yandırıb döndərər küllərə məni.
Dərdim dərya kimi coşub-çağlayır,
Qərq edər ümmana, sellərə məni.

Əyibdi işimi qəzavü-qədər,
Gəşd edib dünyanı dolannam hədər.
Ömrümün növrağı tamama yetər,
Həsrət qoyar doğma ellərə məni.

Aşıq Alı deyər: həsrətəm yara,
Görən tapılarmı dərdimə çara?!
Baş alıb gedərəm qürbət diyara,
Salar dərdi-möhnət çöllərə məni.

---

[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.

## TANIRAM[1]

Gözəllər söhbətin salma araya,
Mən gözəli binasınnan tanıram.
Əsli gözəl olan əslin itirməz,
Atasınnan, anasınnan tanıram.

Yadlar kəməndinə salmaz özünü,
Müddahiyə[2] deməz dostun sözünü.
Bədnəzərdən dalda tutar özünü,
Örpəyinnən, cunasınnan tanıram.

Mən Şahi-Mərdana meylim salmışam,
Pünhani dərsimi çoxdan almışam.
Alıyam, Bəstimi haxdan almışam,
Əllərinin xınasınnan tanıram.

---

[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.
[2] Araqatan, aravuran.

## ÇƏKMƏYƏ[1]

Bir gözəllə əhdi peyman edəndə,
Gərək yarın səngi-dağa[2] çəkməyə.
Mərd özündən görər, namərd özgədən,
Dar məqamda dost qabağa çəkməyə.

Dostdan giley dönər dastan, nağıla,
Gələr bir gün gəlməyən iş ağıla.
Ünsiyyət olmasa, xanə dağıla.
Zənən sola, əri sağa çəkməyə.

Alı, rast olanda yaman yamana,
El gələr əlindən aha, amana.
Qəhr eyləyər cümləsinə zamana,
Münsif gərək sər qırağa çəkməyə.

[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.
[2] Burda: dağa-daşa.

## YAZDIM[1]

Min rəhmət söylərəm kamil ustada,
Ərz etdi dərsimi düzünə yazdım.
Köçməsin ünvansız türfə gözəllər,
Vəsfini mehparə üzünə yazdım.

Kökü safsa, bəhrə verər əsl dən,
Bir şeyxi xürrəməm pakı nəsildən.
Zaman keçər, xəta umma əsildən,
Təmənnasız nəğmə yüzünə yazdım.

Əhval tutdu Alı asman[2] zəmindən,
Kənar qaçdım xilqət əqli kəmindən.
Məğrurlar dönəndə mətləb cəmindən,
Yüz cavab hər kəlmə sözünə yazdım.

---

[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.
[2] Asiman, göy, səma.

## GƏRƏKDİ[1]

Əziz ana, gəlin sizə söyləyim,
Qız alanın cibi dolu gərəkdi.
Toxunmayın bu könlümün dərdinə,
Toylası komunnan[2] malı gərəkdi.

Siz məni çəkirsiz bilin ki dara,
Mənim bu dərdimə tapılmaz çara,
Möhtacam dünyanın verdiyi vara,
Yar alanın mah camalı gərəkdi.

Aşıq Alı, nə çəkirsən dərdü-qəm?!
Var olsun mahallar, eyləginən dəm.
Huşunu başına toplagınan cəm,
Zikr eyləyən çox xəyallı gərəkdi.

---

[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.
[2] Tövləsi dolu.

## ƏVƏZİNDƏ[1]

Qönçə dəhanından çıxan kəlmələr,
Hər biri qiymətli ləl əvəzində.
Ağ buxağa aşiq olub yanıram,
Əta et, aşığa bal əvəzində.

Gözlərin qüdrətdən qaynar bir bulaq,
Dodaqların yeni gəlmiş ağ qaymaq,
Üzünə baxmaqdan heç olmur doymaq,
Qızarır yanağın gül əvəzində.

Ətlas-zərbaf, tirmə örtüb başına,
Al-xara geyibsən, gəlir xoşuna.
Biçarə Alıyam, sənin başına,
Dolanım kəlağay, şal əvəzində.

[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.

## OLMUŞAM[1]

Dörd yanımda dövrə vuran gözəllər,
Ağlımı itirib zayıl olmuşam.
Məcnuni-məhəbbət, eşqi Leyliyəm,
Düşüb səhralara sayıl olmuşam.

Mən görürəm siz hamınız şahsınız,
Gözəllikdə tamam mehri-mahsınız.
Bilqeyis sifətli xoşzəbansınız,
Kəklik sürbənizə mayıl olmuşam.

Mən Alıyam, öz Bəsdimin yarıyam,
Görməzə-bilməzə intizarıyam.
Hicran barkeşiyəm, dərd tüccarıyam,
Qəm yükü çəkməyə qayıl olmuşam.

[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.

## GÖRMƏDİM[1]

Halay vurub, dəstə duran gözəllər,
Öz yarımın başqa tayın görmədim.
Qədəm qoydum bağçasına, bağına
Heyif ola, nübar payın görmədim.

Geyibsiniz çəpkən, başmaq, məsini,[2]
Çox görmüşəm gözəllərin bəhsini.
Mən istərəm öz Bəsdimin səsini,
Harayladım, bir yol hayın görmədim.

Nə salıbsız qiylü-qalı, bəsdi, bəs,
Aşıq Alı çox eşidib Bəsdi bəs?!
Lazım deyil başqa gözəl, Bəsdi bəs,
Bəsdi, – dedim, Bəsdi boyun görmədim.

---
[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.
[2] Yumşaq ev başmağı.

## DÜŞMÜŞƏM

Əziz mehribanım, gözümün nuru,
Beyqafıldan bir azara düşmüşəm.
Qəza vurdu qədər gördü işini,
Alışıb ataşa, nara düşmüşəm.

İtirdim irahı, gəzdim düzünü,
Mən görmüşəm nainsafın yüzünü.
Gəl sənə söyləyim sözün düzünü,
Ah çəkməkdən ahu-zara düşmüşəm.

Alıyam, sərimdən gedib xəyalım,
Nə loğman tapılır, nə də ki alim,
Sənin eşqin ilə bilsən, a zalım,
Məcnun kimi mən avara düşmüşəm.

## BİLMƏRƏM

Sinnim rəqabətdə doxsan yüzünən,
Firavanda doqquz, onu bilmərəm.
Cansitan hədələr, məzar əl eylər
Biçərlərmi bəyaz donu – bilmərəm.

Cəfa üçün bu dövrana girəli,
Ümidlər çəkibdi geri, irəli.
Cahan əhli qoymaz udam bir əli,[1]
Xilqət heçdi, dünya sonu – bilmərəm.

Alı alar fənalığı hey dilə,
Simu-zər eşqində o bilə-bilə.
Amal eyniyatdı qarışqa, filə,
Nə sirri sübhandı – onu bilmərəm.

---

[1] Qələbə çalım.

## GƏLMİŞƏM

Dünya gözəlidi, mən mübtəlası,
Deməərəm əlindən zara gəlmişəm.
Zimistan mərəkə, toylar ağası,
Seyr etməyə növbahara gəlmişəm.

Bəhrə al fürsətdən, ellər gözəli,
Xəlq edir öz əli, alır öz əli.
Dur, danış, mənimlə duzlu, məzəli,
Sığal ver, zülflərin dara, gəlmişəm.

Səxa sahibidi, səxavəti var,
Əfsunkar mələkdi, pür adəti var,
Bir gün bil səninlə zarafatı var,
Mizanı düz, bir bazara gəlmişəm.

Piranlıq hünərdi, son köç şərəfdi,
Hökmü var aləmin, o şeş tərəfdi,
Bir qoynu gülüstan, bir qoynu bərfdi,
Geymək üçün mən al-xara gəlmişəm.

Alıya anadı, mən ona övlad,
Gəl bax camalına, ondadı imdad,
Huşyaram eyləsən son məqamda yad,
Qüdrətiylə müdam kara gəlmişəm.

## DEYƏRLƏR

Əl götür ədadan, vədə dayanmaz,
Ömür keçər sənə qarı deyərlər.
Əhdi-amalında vəfadar olsan,
Bir şahi-şonqarın yarı deyərlər.

Əzvacın dövranı yaranıb qoşa,
Beş günlük fənada qeyrətlə yaşa.
Ömür karvanını vuranda başa,
Müqəddəsdi namus-arı deyərlər.

Alı təqdir ilə çatdı avaza,
Kənar oldu ondan hər qafil qəza.
Döndü el içində sadiq sərbaza,
O sevmədi eldə xarı deyərlər.

## YETİRDİN

Dərdi-dil aşiqi dilşad eylədin,
Yardan nə xoş, sən sorağı yetirdin.
Qəlbimi çıxardın qaradan, qasid,
Fidan əkdin, könül bağı yetirdin.

Şahdı kərəm əhli, məzlumdu uman,
Xilqət əhli xəlq olundu bədgüman.
Açıldı sərimdən bu miskin duman,
Peymana, yar, mərd olmağı yetirdin.

Ərşin qəhrin adətkardı çəkə xak,
Nə halda dolanır o xilqəti-pak?!
Alını bir daha görməzsən qəmnak,
Sən ki, mənə ləb qaymağı yetirdin.

## ŞAFADA

Dəştin divanəsi, cismani cansız,
Peydər-pey arayar canı Şafada.
Səngi-dil xəlq oldu pəri camalın,
Yarəb, insaf-mürvət hanı Şafada?!

Qaşları can alan kamana bənzər,
Gözləri şux, mahi-təbana bənzər,
Sədri həmayilli asmana bənzər,
Şəmsi rüxsarında yanı Şafada.

Almışam sevdamı bətni-anadan,
Çarəsin qıymadı loğman binadan.
Sordum məlhəmini İbni-Sinadan,
Dedi qəmin bir imkanı Şafada.

Afəti-dövran da amansız oldu,
Cövri-cəfaları gümansız oldu.
Mübtəla Şıx Alı imansız oldu,
Axır tapdı din-imanı Şafada.

## ZÜLEYXA

Ucbatından divanəyəm, ay zalım,
Səhralara saldın səda, Züleyxa.
Dərdimə məlhəmdi şəhdi-ləblərin,
İnsaf eylə, gəl imdada, Züleyxa.

Hüsnündə mələyi, hurini gördüm,
Şirindən, Əslidən birini gördüm.
Qəlbimi arxanla sürünü gördüm.
Tapdı məni qəfil qada, Züleyxa.

Həsrətindən kaman kimi əyiləm,
Camalından qismət gəzən sailəm.
Züleyxasan, mən ki, Yusif deyiləm,
Sən layiqsən bil bu ada, Züleyxa.

Qəm çəkdim bazara, alan olmadı,
Ah çəkdim, qeydimə qalan olmadı.
Cahanda mənimtək nalan olmadı,
Şad olmadım bu dünyada, Züleyxa.

Olmadı bimara bir iltifatın,
Getmir göz önündən boyun, büsatın.
Neylərəm fənanın müdhiş sursatın,
Yarım ola mələkzadə Züleyxa.

Qüdrətdən yarandın, el yaraşığı,
Etmədin qəlbimlə qəlb barışığı.
Biəcəl öldürmə Alı aşığı,
Hərdən-hərdən sal bir yada, Züleyxa.

## TÜKƏZBAN

Sənsən qönçədəhan, sərvi xuraman,
Yaraşırsan bağça-bağa, Tükəzban.
Bəyaz sinə, eyin şəhla, qaş kaman,
Müştaq oldum ay qabağa, Tükəzban.

Əsl şükufəsən on dörd yaşında,
Fəzl fərasətsən qəlb sirdaşında.
Xəlq oldun həyalı, əqli başında,
Ürbənd salma al yanağa, Tükəzban.

Pür qəmidim qəfil qəza-qədərdən,
Gördüm hüsnün, kanar olum kədərdən.
İnsaf eylə, salma məni nəzərdən,
Yolundadı sər-sədağa, Tükəzban.

Apardın əqlimi sahib simənbər,
Ahu çeşmiləri az yana döndər.
Etmə biganəlik, can əldən gedər,
Tab eyləməz yaşamağa, Tükəzban.

Yazıq Alı qəm dustağı yarandı,
Şəmsi qızmar, baqi qara arandı.
Köçhaköçdü, el yaylağa darandı,
Güzar eylə bizim dağa, Tükəzban.

## DOLANIM

Göstər mah camalın, ey huri nisbət,
Baxım şəhla gözlərinə, dolanım.
Din, danış bir kəlmə məlakə ismət,
Uyum şirin sözlərinə, dolanım.

Sərfi-nəzər aşiqini süzəndə,
Yan-yan baxıb yerdən lalə üzəndə.
Səhər-səhər bağçanızda gəzəndə,
Düşüm şehli izlərinə dolanım.

Fərhadı, Kərəmi görrəm özümdə,
Məcnun olmaz tayım qəmə dözümdə.
Bir anlığa görünməsən gözümdə,
Diyarının düzlərinə dolanım.

Göstər iltifatın, Aşıq Alıyam,
Qüdrətim yox, qəlb evini talıyam.
Gözəllərin qəmzəsindən halıyam,
İzin versən, dizlərinə dolanım.

## BU YERƏ

Qaraxaç, Dəlidağ, Taxta baxarı,
Səcdə eylər, tutar üzün bu yerə.
Murovdan Ketiyə, Tərtər axarı
Sərbaz olub zillər gözün bu yerə.

Asmana söykəyib dağlar başını,
Qüdrətdən səngərli gədik qaşını.
Gördüm igidlərin pür savaşını,
Bir rəqib salmadı izin bu yerə.

Qeyrət gördüm zənənində, ərində,
Neçə sirr var bu dağlarda dərində.
Alı vəsfin aparmadı sərində,
Bəxşişlədi söhbət, sözün bu yerə.

## ALI

Sarı yaylaq, Sarı bulaq, Dəlidağ,
Müsafiri oldu yayınan Alı.
Yetər el dadına, eyləmə soraq,
Olmadı cövrüdən yayınan Alı.

Zahiri cənnətdi, batini gövhər,
Varıram seyrinə hər şamu-səhər.
Sakinin mərd gördüm Koroğlu təhər,
Kəramət kəsb eylər toyunan Alı.

Möcüzə sayılar yallı oyunu,
Alı tərk edərmi oba toyunu?!
Kimi at bağışlar, kimi qoyunu,
Dönər mahalına payınan Alı.

## AY SONA

Hüsnün məlahəti aldı canımı,
Həsrətindən qəlbi qanam, ay Sona.
Ahım bülənd oldu ərşi-səmaya,
Zülm eyləmə, mən insanam, ay Sona.

Keçirrəm dövranı beytül-həzəndə,
Can alırsan, gərdən çəkib gəzəndə.
Bu eşq aləmində olmaz məzəndə,
Lal eyləmə, xoş zəbanam, ay Sona.

Axdı ümman oldu eynimin yaşı,
Salmısan canıma sönməz ataşı.
Ayaqdan hökm edir, yandırır başı,
Eşq oduna qoyma yanam, ay Sona..

Leyli giryan köçdü, Məcnunsa donsuz,
Hər görən söyləyir, tab etməz onsuz.
Atamın təkiyəm, eyləmə sonsuz,
Qanlı tutar səni anam, ay Sona.

Alıyam, tükənməz qəhrim, qəhərim,
Yarı yolda qoyma vüsal səfərim.
Sənsiz necə keçər şamu-səhərim,
Bir rəhmə gəl, əl-amanam, ay Sona.

## EYLƏR

Camalın şəmsidi, xilqət səcdədə,
Dövrəndə dövranı bir adət eylər.
Könlümün baharı virandı sənsiz,
Nəzərin min bəhrə kəramət eylər.

Asidi, ayətin həcdə tapanlar,
Nadandı, iqbalın gecdə tapanlar.
Siyah qaşlarına səcdə tapanlar,
Kəbeyi-beytullah ziyarət eylər.

Firqətin Alını yandırar, yaxar,
Dəmadəm eynindən qanlı yaş axar.
Cünunlar seyr edib, tənəylə baxar,
Halım bu nisbətdə əlamət eylər.

## OLMUŞAM

Dərsimi almışam kamil ustaddan,
Mərdlərin şahına mən qul olmuşam.
Səxam var, səvabım, sövmü-səlatım,
Sidqiylə ümməti-rəsul olmuşam.

Atamı, anamı – san qibləgahım,
Bir bəd əməlim yox, heçdi günahım,
Əhli-quran oldum, rəvandı rahım,
Nəğməkar içində üsul olmuşam.

Alı çox məğrurlar eylədi şikar,
Bu fəna dünyada durmadı bekar,
Ruzisin xudadan istədi aşkar,
Nə varı çox, nə də yoxsul olmuşam.

## SAZIM

Dühasıynan, nidasıynan, səsiynən,
Elin hüzurunda dayandı sazım.
Nə naqisdi, nə qovğakar, nə zalım,
Nuhi-nəbiyyədən əyandı sazım.

Elinən şad oldu, elnən ağladı,
Peyman etdi, ömrün elə bağladı.
İşi nə şərinən, nə nahaqladı,
Ellə yatdı, ellə oyandı sazım.

Şan-şöhrəti daim eldə qalandı,
Düşdü el izinə, ellə yollandı.
Odlar keçdi, dağlar aşdı, dolandı,
Nə çovğuna düşdü, nə yandı sazım.

Neçə dil söyləyən bu para taxta,
Billah qüdrətini sevibdi haqq da.
Dolandı Türküstan, İran, İraqda,
Dedilər hikmətdə bəyandı sazım.

Ruha qida verir, məclisə növraq,
Keçmişdən, keçəndən verəndi soraq.
Alının əlində görmədi fəraq,
Şöhrətin aləmə yayandı sazım.

# GÜLLÜ QAFİYƏ

## DEDİ

Bir nişan istədim gülüzlü yardan,
Dirsəyin göstərdi: alısan, – dedi.
Dedim: ay qız, küsdüm, sənnən əl çəkdim,
– Həlbət bir yadına salısan, – dedi.

Dedim: ay bəxtəvər, bu nə büsatdı?!
Dedi: nəzər eylə, gör nə sufatdı.
Dedim: çeşmim yaşı yeri islatdı,
– Verrəm dəsmalımı, silisən, – dedi.

Dedim: ay qız, qəmnən dəftər bağlaram,
Dedi: baxma, nişanını saxlaram.
Dedim: həsrətindən, bilnən ağlaram,
– Qorxma, yaxın vaxtda gülüsən, – dedi.

Dedim: ay qız, nə gözəldir şamama,
Dedi: dərmə, ömrün yetər tamama.
Dedim: ay qız, əl uzadım butama,
– Özünü nüfuzdan salısan, – dedi.

Dedim: xəstələrin can dərmanısan,
Dedi: aşiqlərin kərəm kanısan.
Dedim: ay qız, mənim adım tanısan,
– Əzəldən bilirəm, Alısan, – dedi.

## GET-GET

Dedim: göz bəbəyim, getmə barışaq,
– Çətin qəlbim sənə yan alı, get-get.
Heç olmasa keçən gündən danışaq,
– Qoydun məni əli xınalı, get-get.

Dedim: bu qismətdən, haqdan yazıdı,
– Çoxaltma dərdimi, dərdim azıdı?!
Dedim: mənə qarşı bəlkə nazıdı,
Dedi: əl üzmüşəm binalı,[1] get-get.

Dedim: mərhəmətsiz, heç insafın var?!
Dedi: sən eylədin, olsun sənə ar.
Dedim: sənsiz boğur məni ahu-zar,
Dedi: ölməlisən sən, Alı, get-get.

---

[1] Burada: yerli-dibli.

# GƏRAYLILAR

## ADIDI[1]

Dövlətindən kərəm, səxa,
Etsə, adamın adıdı.
Bu fənada səxavətdə
Qalan Hatəmin adıdı.

Səməri nə, sağı,[2] yesən, –
Nakəslə bal-yağı yesən?!
Bir mərd ilə ağı yesən,
Şəkər o tamın adıdı.

Oxuduğum qəlbə yatar,
Əsəl olub elə çatar.
Söz qoşmuşam min bir qatar,
Min bir Xudamın adıdı.

Elin qocası, ahalı,
Söhbətdə, sözdə bahalı.
Mahalım Göyçə mahalı,
Mirzə atamın adıdı.

Bir gün gələr köçər Alı,
Ondan bir nişanə qalı.
Anam Fatma – ömrüm balı,
Bəsdi butamın adıdı.

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.
[2] Saqi, həmdəm.

## NƏ MİQDARI, DİLBƏR

Bir bağda bülbül olmasa,
Gülün nə miqdarı, dilbər?![1]
Şəhdi-şəkər süzülməsə,
Dilin nə miqdarı, dilbər?!

Ala gözlər süzülməsə,
Baxan canlar üzülməsə.
Üz yanına düzülməsə,
Telin nə miqdarı, dilbər?!

Ocaq yanmaz qalanmasa,
Bağ quruyar sulanmasa,
Qulac qollar dolanmasa,
Belin nə miqdarı, dilbər?!

Yar dönüb elə gəlməsə,
Qayıdıb belə gəlməsə,
Sonası gölə gəlməsə,
Gölün nə miqdarı, dilbər?!

Alı neylər dəşt olmasa,
Hər dəm seyri-gəşt olmasa,
Məcnunu sərgəşt olmasa,
Çölün nə miqdarı, dilbər?!

[1] Nə miqdarı burada nə dəyəri, nə qiyməti mənasındadı.

## ZARINANDI[1]

Ay ağalar, ay qazılar,
Mənim işim zarınandı.
Bir anlamaz yar əliylə
Yaralarım sarınandı.

Zərgər də zərinən oynar,
Dövlətli varınan oynar,
Hərə bir karınan oynar,
Mənimki də xarınandı.

Alı deyər, boyu bəstə,
Dərdindən olmuşam xəstə.
İlqar verən durar üstə,
O da etibarınandı.

---

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

## GÖZLƏRƏM SƏNİ

Kimsən, gedən, boyu bəstə? –
Bilincə gözlərəm səni.
Dayanaram yolun üstə,
Gəlincə gözlərəm səni.

Şəbnəm üstə aydın izin,
Mehman mənəm – diyar sizin.
Sürünərəm dizin-dizin,
Yolunca gözlərəm səni!

Həftəyə, aya gəlməsən,
Dönüb bu taya gəlməsən,
Bahara, yaya gəlməsən,
İlincə gözlərəm səni.

Gözün şəhla, kiprik oxdu,
Köçən köçür, görən yoxdu.
Darıxmaram, səbrim çoxdu,
Ölüncə gözlərəm səni.

Alıyam, həsrət çəkərəm,
Qəmi biçib, dərd əkərəm.
Dəryaya qan-yaş tökərəm,
Dolunca gözlərəm səni!

## TELLƏRƏ-TELLƏRƏ[1]

Badi-səba, ərzim budur,
Dəymə tellərə-tellərə.
Seyraqub gözü tutulub,
Düşsün əllərə-əllərə.[2]

Qarşıdakı sarı laçın,
Fələk qoymur qəddim açım.
Gəl səni götürüm, qaçım
Bizim ellərə-ellərə.

Alı deyər, bir gül əkdim,
Gülün çox cəfasın çəkdim.
Qürbət eldə gözüm dikdim
Uzaq yollara-yollara.

[1] Şeirin Naxçıvanda Aşıq Sonayla deyişmə variantı da var (hər iki variantı olduğu kimi saxladıq).
[2] Gözü görməyəni əllə tutarlar (hərləyərlər).

## OLMUR

Bizim elin gözəlinin
Camalından doymaq olmur.
Boy-buxunu can alandı,
Ləbləritək qaymaq olmur.

Əydi budaq bar əlindən,
Dağ zinhardı qar əlindən,
Eşq badəsin yar əlindən
Alsan, yerə qoymaq olmur.

Bir söz dedim yada, qandı,[1]
Bu məkanda qada-qandı.
Sevmək nədi? – Qadağandı;[2]
El-obaya yaymaq olmur.

Aralıyam sirdaşımdan,
Həbibimdi ilk yaşımdan.
Səxa süzür göz-qaşından,
Qeyrisinə uymaq olmur.

Bir əlif yaz, qoy məddini,
Dağıtsın qəmin səddini.
Alı, aşdı dərd həddini,
Sana çəkib saymaq olmur.

---

[1] Yad anladı, qandı.
[2] Burada: pünhan, gizlin.

## DAĞLAR QOYNUNDA-QOYNUNDA

Tənha qaldı nazlı yarım,
Dağlar qoynunda-qoynunda.
Cüt şamama peymanını,
Bağlar qoynunda-qoynunda.

Peşkəş olmaz nar gələnə,[1]
Meyvə qalmaz qar gələnə,
Amanatı, yar gələnə
Saxlar qoynunda-qoynunda.

Yaradanım qərar qoyub,
Bağrımın başını oyub.
Çoxlarını ağlar qoyub
Dağlar qoynunda-qoynunda.[2]

El yox bizim ellər kimi,
Sadiq siyah tellər kimi,
Yarsız sular-sellər kimi,
Çağlar qoynunda-qoynunda.

Alını yarı şad eylər,
Bir kəs birini ad eylər,
Bülbül gülsüz fəryad eylər,
Bağlar qoynunda-qoynunda.

---

[1] Narı hər gələnə (kim gəldi) verməzlər.
[2] Dağlamaq, dağ çəkmək mənasında.

## TƏBRİZ GÖZƏLİ

Bir mişginab, bir mübərra,
Gördüm Təbriz gözəlini.
Qıya baxdı, aldı canım,
Qoydu eşqin təməlini.

Qəmzəsi cismimi yarır,
Gedəndə ruhum aparır.
Duranda qəlbim qoparır,
Baxanda bağrım dəlini.

Xəzan olmaz o tər ləçək,
Boyu bəstə, üzü göyçək.
Görüb cünun oldum gerçək,
Dil-dodağı məzəlini.

Şəninə qəsir yaparam,
Nə qüssə, nə qəm taparam.
Fərhad olub dağ çaparam,
Gər ola anam gəlini.

Od qaladı can içində,
Dedi: Alı, yan içində,
Qafil gördüm dan içində,
Deyəmmədim deməlini.

## ÖLÜRƏM

Əlac eylə dərdimə, gəl,
Mahi-tabanım, ölürəm.
Sinə sədəf, ləbi əsəl,
Şəkər zəbanım, ölürəm.

Əhvalımın al xəbərin,
Ahım ümman, dərdim dərin.
Cahanda yox bərabərin,
Bilsin cahanım, ölürəm.

Alının çeşmi-çırağı,
Tərk etmir qəlbim fərağı.
Təbiblərdən al sorağı,
Qönçə dəhanım, ölürəm.

## OLDU

Yar yanında günahkaram,
Doğru sözüm yalan oldu.
Yeriş etdi qəm ləşkəri,
Könlüm şəhri talan oldu.

Bax bu qaşa, bax bu gözə,
Yandı bağrım döndü közə.
Keçən sözü çəkmə üzə,
Keçən keçdi, olan oldu.

Aşıq Alı sənə qurban,
Gəl eyləmə bağrımı qan.
Əldən uçdu tülək tərlan,
Sar da kəklik alan oldu.

## OLDU

Cəfa çəkdim yar yolunda,
Heyif, eşqim hədər oldu.
Yar firqəti üzdü canım,
Ömrüm ah-vay, kədər oldu.

Cəhd eylədi bir neçələr,
Ömrümə hicran seçələr.
Yol verməyin, dar küçələr,
Yar atlanıb gedər oldu.

Cüda düşər, keçər dağlar,
Gülsüz qalar bizim bağlar.
Alı tənha qalar, ağlar,
Dərdim dağlar qədər oldu.

## OLDU

Dəhrdə cəfa əlindən,
Əlif qəddim kaman oldu.
Əhdə bivəfa əlindən,
Hər gün haray, aman oldu.

Şah başında tac yaşadı,
Rəncbər əkdi, ac yaşadı,
Xoş sözə möhtac yaşadı,
Nə insaf, nə iman oldu.

Alı sözün dedi üzə,
Kül üfürdü dövran gözə.
Fələk sitəm etdi bizə,
Əhvalımız yaman oldu.

## EYLƏSİN

Peymanında qalan yarı,
Xaliq müdam var eyləsin.
Baxt ulduzu şöləlnsin,
Haqqı ona yar eyləsin.

Dağ, dağ olmaz, qarsız ola,
Bağ, bağ olmaz, barsız ola.
Bir gözəl ki, arsız ola,
Dövran onu xar eyləsin.

Zənən bəddisə ərinə,
Məzarın qazdır dərinə;
Qoyma Alının sərinə,
Bu dünyanı dar eyləsin.

## DÖVRAN

Eli elə saldı yadlar,
Matəm oldu elə dövran.
Uydu əqildən kasadlar,
Düşdü fitnə-felə dövran.

Arif olan, qəmin artdı,
Piran imdaddan kasaddı.
Nə dövrandı, nə həyatdı?
Viran qalsın belə dövran.

Molla, mömin olub ası,
Qur mərəkə, saxla yası.
Cövlan etdi qəm dəryası,
Qafil düşdü selə dövran.

Güllə atır hər bir naşı,
Oldu qəlbim qəm yoldaşı.
Qopur fəryad addımbaşı,
Dönüb siyah telə dövran.

Alı zəlil, yox hünəri,
Nə fitnədi – var xəbəri.
Qəm-qüssəyə dözmür səri,
Necə etsin elə dövran?!

## BİRİSİN

Biri nanu-nəmək tapmaz,
Gəzər qaymaq, bal birisin.
Gah növrəsti növrəst tapar,
Gah da tapar çal birisin.

Tuş olanda əqli kəmə,
Qərq olarsan dərdi-qəmə;
Özünü zinhar eləmə,
Boşa onu, al birisin.

Biri yedi, giryan gəzdi,
Biri tapmaz, hər yan gəzdi,
Biri daim üryan gəzdi,
Qucdu tirmə-şal birisin.

Şadnak gördüm, sonu vaydı,
Ömür gördüm, qışı yaydı,
Gözəl gördüm, ağlı zaydı,
Gördüm mah-camal birisin.

Aşıq Alı belə yazdı:
Şan-şöhrəti telli sazdı.
Bir rəqib çox, yüz dost azdı,
Demə gözdən sal birisin.

## QAZANAR

Cəm eyləyib xəsis malı,
Bəhrəsini yad qazanar.
Aqibətdən deyil halı,
Yeməz, içməz, şad qazanar.

Dövran keçsə boran, qarda,
Səxa əhli qalmaz darda.
İnsafsızı görmə varda,
Hörmət əhli ad qazanar.

Dağlar bəlli vüqarından,
Alı qəlbi qubarından.
Ehsan eylər öz varından,
Dəhanında dad qazanar.

## ELLƏRDİ

Dolananda yad diyarı,
Müdam sorağım ellərdi.
Qəmli qəlbin növbaharı,
Qürurlu dağım ellərdi.

Gül dərdim, gülə bənd oldum,
Bir tuti dilə bənd oldum,
Gəşt etdim, elə bənd oldum,
Eşqim, marağım ellərdi.

Bu Alıya qada yetə,
Cəm olarlar – səda yetə.
İgidləri dada yetə,
Zağlı yarağım ellərdi.

## QALDI

Kəcrəftarın ucbatından,
Qəlbdə saysız yara qaldı.
Qəm əlindən abdal oldum,
Dolanmadım hara qaldı?!

Səda düşdü, koxa gəldi,
Sərmayədən toxa gəldi,
Sanma ki, o, yoxa gəldi,
Rəyyət günü qara qaldı.

Aldı müflis danasını,
Mələr qoydu anasını.
Qorudu öz xanasını,
Çara[1] ahu-zara qaldı.

Füqərayla çəkir hesab,
Necə eylər el buna tab?!
Qəm əlindən vurur qüllab,
Nə əncam, nə çara qaldı.

Yedi elin malın, qoynun,
Dəhşət sandım fəna oynun.
Əlac olsa vurram boynun,
Alı ta zinhara qaldı.

---

[1] Çarə.

## DÖNDÜM

Əhli-əyal həsrətindən
Büryan yandım, külə döndüm.
Yar həsrəti üzdü canım,
Müdam nalan dilə döndüm.

Dağ dolandım duman, çəndə,
Kimsə salmaz məni bəndə.
Yad bağçama su səpəndə,
Xəzan olmuş gülə döndüm.

Çətin Alı yada uyar,
Qərib sözün kimlər duyar?!
Zindan oldu kanar diyar,
Ayaq aldım elə döndüm.

## DAĞLAR BİZİM DAĞLARMOLA[1]

Yönü bəri baxan dağlar,
Dağlar bizim dağlarmola?!
Sərin sulu, car bulaqlı,
Dağlar bizim dağlarmola?!

Açılıb qönçə, nərgizlər,
Karvan azsa, yolu izlər.
Gözəllərin yolun gözlər,
Dağlar bizim dağlarmola?!

Mən deyirəm bu sözləri,
Sinəmdə eşqin közləri,
Çox gəzmişəm o düzləri,
Dağlar bizim dağlarmola?!

Baxırsan yarı görəndə,
Gözəllər zülfün hörəndə,
Hicran coşub dərd verəndə,
Dağlar bizim dağlarmola?!

Bu görükən Vers dağına,
Dikpilləkən tərs dağına,
Oxşayır cənnət bağına,
Dağlar bizim dağlarmola?!

---

[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.

Sarıyalın beli düzdü,
Bulaqları tamam buzdu,
Gözəllərdən əlim üzdü,
Dağlar bizim dağlarmola?!

Yolaşan, Böyük yoxuşdu,
Qoşqar dağda hələ qışdı,
Alı deyər, vaxdı keşdi,
Dağlar bizim dağlarmola?!

## SƏNİNLƏDİ[1]

Öz-özünə deyinməynən,
Qışım, yazım səninlədi.
Ruzi verənə şükr elə –
Çoxum, azım səninlədi.

Beş dənədi qəza-qədər,
Hara getsən sənlə gedər.
Ahu-vay eləmə hədər
Alın yazım səninlədi.

Alı, sığın ol Xudaya,
Dar günündə yetər haya.
Hər aşığı salma saya
Telli sazım səninlədi.

---

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

## ÖLDÜRÜR

Əldən alıb ixtiyarım,
Bir boyu bəsdə öldürür.
Həsrətini çəkə-çəkə,
Düşmüşəm xəstə, öldürür.

Kərəməm, ocağa düşdüm,
Fərhad olub dağa düşdüm.
Sənanam, sorağa düşdüm,
Məcnun həvəsdə öldürür.

Əsli-Leyli odur, düzü,
Buxaq büllur, ayna üzü.
Lalə yanaq, şəhla gözü,
Yoxdu bir kəsdə, öldürür.

Alı qəfil yandı oda,
Leylü-nəhar düşdü yada.
Can alandı mələkzada,
Durubdu qəsdə, öldürür.

# ƏLİF-LAM[1]

"Əlif" həmdəmsə "lam" ilə,
Dürüstü min bir ad eylər.[2]
"Be" billahın bir adıdı,
Sən yad eylə, o yad eylər.

"Pe" pənc əla, səda oldu,[3]
"Te" tohiddi, əda oldu,
"Se" seyyidə nida oldu,
İkramın qəlbin şad eylər.

"Cim" cəmaldı Məhəmmədə,[4]
"Ha" Heydərdi sirr Əhədə.
"Xe" Xaliq olsa kimsədə,
Viran qəlbi abad eylər.

"Dal" davərdi, haqq arayan,[5]
"Zal" zalımdı, qaldı üryan.
"Re" rəbbidi, olmaz əyan,
Üç ad kəlmey-şədət eylər.

---

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən. Aşıq Alı bu şeirində Tohid (İxlas) surəsinin tələblərini cavablayır: 1) Tohid – Tanrının təkliyi, 2) Nübüvvət – Peyğəmbərin qəbul edilməsi, 3) Məad – qiyamətə iman gətirmək, 4) Ədl – Tanrının adil olması, hər şeyə münsif olması, 5) İmamət.

[2] Əlif-lam – Allah, illah, la-ilahə-illəllah və s. sözlərinə işarədir, Allahın min bir adından biridir, billah Allaha pənah aparmaq mənasına işarədir.

[3] Pe – Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseynə işarədir; Te – Tohid – Allahın təkliyinə işarədir; Se – Əli və Fatimədən törənmiş imamların övladlarına işarədir.

[4] Ha – Allahın Heydər (İmam Əli) sirrinə işarə; Xe – xaliq olsa, hər kəsdə onun viran qəlbi abad olar.

[5] Dal – davər, Allahın sifətinə işarədir ki, qiyamət günü hakimlik edəcək; Üç ad – Kəlmeyi-şəhadətdə adları çəkilən Allah, Məhəmməd və Əliyə işarədir.

“Ze” zülcəlal, Əli mərddi,[1]
“Sin” surədi, yüz on dörddü.
“Şin” şivən, şamu firqətdi,
“Ce” cəngdən cümlə dad eylər.

“Sad” səməddi, bi həmdullah,[2]
“Zad” Zəburdu, nazil Allah.
“Ta” təvvabdı rəhmi güllah,
“Zat” zat əkrəm irad eylər.

“Eyn” etiqat qıl tamaşa,[3]
“Ğeyn” qüsul, ayaq-başa.
“Fe” faiddi hər bir yaşa,
“Qaf” qadirdi, imdad eylər.

“Nun” nəqqaşdı, qüdrət onda,[4]
“Kaf” kaf – peykər firudunda.
“Vav” vahidi sevər xuda,
“Cim” cahartəb murad eylər.

“Kaf” kafərdi Zülfüqarə[5],
“Zamla” ilə yeki ara.
“Mim” münkərdi, çəkər darə,
“Haqq” Alını azad eylər.

---

[1] Şin – şivən işarədi İmam Hüseynin qətlindən sonra Şamda şivənlərinə.

[2] Saməd – Tanrı ehtiyacsızdır; Ta – peyğəmbər zamanı tövbə edənlərə verilən addır ki, Tanrı onların tövbəsini qəbul eylər.

[3] Ğeyn – ayaqdan başa qüsul eləmək; Qaf – Peyğəmbərin son həcc ziyarətindən sonra Xum adlı çöldə dayanıb irəlidə gedənlərlə arxada gələnləri toplayıb dedi: kim ki, məni böyük qəbul eyləyir məndən sonra (ikinci şəxs) Əlini tanısın (bilsin).

[4] Nun – nəqş etmək (misal üçün kasıb və varlı olmaq) Tanrının qüdrətindədi; Quranda cəbr-ixtiyar, ilahi qəza-qədər və əməllərin cəzası ilə bağlı məsələlərə işarə edilir; Vav – vahidi (vahidliyi, birliyi) Xuda sevər.

[5] Kaf – İslamda ədalətin rəmzi sayılan, müqəddəs hesab olunan dini əşyalardan biri İmam Həzrət Əlinin haça uclu qılıncına işarə, eyni zamanda zülfüqarə irfan ədəbiyyatında küfrü anlamdadır; Zam – kölgənin vasitəsiylə əsli (Allahı) tap (ara) mənasındadır.

# CİNAS GƏRAYLILAR

## OYANAM MƏN

Görmək üçün qibləgahı,
Müdam erkən oyanam mən.
Sizsiz necə ömr edərəm,
Oy atam, mən, oy anam, mən?!

Şad olarsız – bala gəldi,
Mehman qaymaq, bala gəldi.
Görsəm sizə bala gəldi,
Öz çeşmimi oyanam mən.

Zənbur çəkər dala şanı,[1]
Nə sövq eylər dala şanı.[2]
– Alı, ayır dalaşanı!
– Nə bu yan, nə o yanam mən.

[1] Arı balı dal (ərəb əlifbasında hərf) şəkilli yuvaya (şana) yığar.
[2] İnsanın çiyni, beli, qaməti nədən əyilər (dala dönər).

## YAR, ALMA DAN

Gərdən çəkib, oğrun baxıb,
Şirin canım, yar, alma dan.[1]
Bağban deyir alma gözəl,
Mən deyirəm yar almadan.[2]

Yox dinc seyfim, ya dinc əlim,
Tənə vursa, yad incəlim.
Necə yatım, ya dincəlim?!
Sevdicəyim yar almadan.[3]

Düşdü köhlən bax ca nalı,[4]
Boy-büsatın bax, can alı.
Qoy tək dərsin bağçan, Alı.
– Vermə yada, yar, almadan.[5]

---

[1] Dan üzü can alma.
[2] Mən deyirəm yar almadan gözəldi.
[3] Sevdiyim yarı almasam (yar mənim olmasa).
[4] Köhlənin nalı yerdədi, yerə düşdü (ca - yer deməkdi).
[5] Almadan yada vermə.

## ARAZA DA

Madər dedim əzəlimdən,
Kürümə də, Araza da.
Cüda düşdü elim eldən,
Ara kəsdi arazada.[1]

Çərxi-pirdə yox san ilə,
Vədə yetsə yoxsan ilə.
Bir güzarın yoxsa Nilə,
Yaddı Fərat Araz ada.

Düşər bir gün Alı yada,
Rəva bilməz ram ol yada.
Ya qaib ol, cəm ol, ya da,
Olsun qeyrət, ar azada.

---

[1] Aravuran (dialekt söz).

## BİRİSİNƏ

Seyrangahda cüt gözəlin
Mail oldum birisinə.
Dərd məndədi, dərman onda,
Biri ləbdi, biri sinə.

Sordum adı Gülxar oldu,
Gül dərəndə, gül xar oldu,[1]
Biri dedi – “gül” xar oldu,
Bilməm dedi birisi nə.

Ziba gördün qu çağını,
At əsvədin, quc ağını.
Zalım açmaz qucağını,
Alı sinə, bir isinə.

---
[1] Gül utandı, xar oldu.

## YAR ATALI

Əhvalımı görən ağlar,
Divanəyəm yar atalı.[1]
Son qoymadı fitnə-felə,
Deyəmmədim, yar, at alı.[2]

Bələnibdi yar ala, bax,
Bağrım qandı, yarala bax.
İstər düşüm yar ala bax,
Bahəm, zalım, yar atalı.[3]

Mənəm büryan od ağları,
Bu düyünü, o dağları.
O Fərhadı, o dağları,
Peyman üçün yar, at, Alı.[4]

---

[1] Yar məni atan gündən.
[2] Deyə bilmədim yar hiyləni, kələyi atsın.
[3] Üstəlik də yar atalıdı, atası var.
[4] Dağları yarıb at.

## YAR, AY AĞA

Həbib səndən gileyləndi,
Deyil sənə yar, ay ağa.[1]
Sirrin bəyan eyləyəni,
Vur sərindən yar ayağa.[2]

Afitab qəlbidə yana,[3]
Nalanın qəlbi dayana.[4]
Yar yardan qəlbi dayana,
Təqlil edə yar ayağa.[5]

Çən aldı ha yalı gözdə,
Tələsmə, hayalı, gözdə.[6]
Olmasa hayalı göz də,
Çeşmi şərdən yara yağa.[7]

Alı üzdə xalı gəzmə,[8]
Həsir üstə xalı gəzmə.[9]
Bilib dəhri xali gəzmə,[10]
Çoxdu sadiq yar, ay ağa.

---

[1] Daha sənə yar deyil.
[2] Ayağa qədər yar.
[3] Günəş qəlbidə (göydə) yana.
[4] Nalə edənin qəlbi dayanar.
[5] Yar aşağı endirə.
[6] Burada xitab (hayalı).
[7] Həyası olmayan gözdən yara yağsın.
[8] Xal, nişan gəzmə.
[9] Xalı, xalça gəzmə.
[10] Dünyanı bilib boş gəzmə.

## QARALMA, DAN

Seyri-yara cəhd eylərəm,
Batma, günəş, qaralma, dan.
Yar sinəsi qardan ağdı,
Təşbeh: ağdı qar almadan.

Saysız dərdim, yar, say ilə,[1]
Sənsiz döndüm, yar, sayilə.
Ömrüm zimistan sayilə,
Diyarımı qar almadan.

Qopar dağdan ya daş, ya tar,
Pünhan qaldı dağda yatar.
Alı yarsız çətin yatar,
Ömür şamı qaralmadan.

---

[1] İllərlə say.

## SONA, CEYRAN

Həsrətini çəkə-çəkə,
Ömür yetdi sona, Ceyran.
Ha gözlədim həbib ola,
Məni yarı sana Ceyran.

Dolan sərvi budağınan,
Gəlib getmə bu dağınan.
Öləərəmsə, bu dağınan,
Kim yar olar sana, Ceyran?![1]

Mən demədim yaran ası,[2]
Zalım oldu yar anası.
Olmaz bir də yaranası,
Alı ömrün sana, Ceyran.

[1] Sənə, Ceyran.
[2] Ası yaranmaq (ası yaranmağını istəmirəm).

## QALA YAXŞI

Sadiq olsa yar yarına,
Hey qeydinə qala yaxşı.
Əzvac keçinə bədrəftar,
O xanədən qala yaxşı.[1]

Ya tökülüb, ya dolanda,
Sirr söyləmə yad olanda.
El sərində yad olanda
Yaxşı adı qala yaxşı.[2]

Az Alını sən yan ara,
Qərq et dəryaya, ya nara.
Alış qəlbdən sən yanara,
Məni oda qala yaxşı.

[1] Bədrəftar olan yerdən qazamat (qala) yaxşıdı.
[2] Eldə xatırlananda yaxşı adla xatırlana.

## YARI YANDI

Haqq bimürvət bir yar oldu,
Ucbatından yarı yandı.[1]
Kəm sevənlər kəm ilqardı,
Yandısa da, yarı yandı.[2]

Güman etmə yaram azdı,
Qəm ucaldı, yaram azdı,[3]
Firqət sevən yaramazdı,
Məhbub dərdə yarıyandı.[4]

Çatdı can, anacan, ata!
Deyim: can, ana, can, ata!
Alı canana can ata,
Qoy yarısın, yarıyandı.[5]

---

1 Yar yandı, odlandı.
2 Yarımçıq can yandırmaq.
3 Azmaq, burada: qəmim çoxaldı yaramı unutdum.
4 Dost dərdə qalandı, dərdə yarayandı.
5 Canan sevgidən yarısın, o dosta yarıyandı.

## ÜZDƏN, ÜZDƏN

Pünhan görmə, yarı üzdə,
Seyrinə var üzdən, üzdən.
Kənar gəzmə, yarı gözdə,
Əğyar salar, üzdən, üzdən.

Ömr eyləmə sinə, sinə,[1]
Qərq olarsan sinə, sinə.[2]
Bağban ol yar sinəsinə,
Aram-aram, üzdən-üzdən.

Qüdrət cəlil yaza baxdım,
Zimistandan yaza baxdım.
Bərfdən dönüb yaz ab axdım,[3]
Yar qəlbinə üzdən, üzdən.

Nə kəsmisən darı, yağı,[4]
Qurdurubsan darı, yağı.[5]
Şərmi sanma darı yağı,[6]
Dağ boydadı üzdən, üzdən.

Alı, qocal, qarı yaxşı,[7]
Dağ sərində qarı yaxşı.[8]
Yar görünmür – qarı yaxşı,[9]
Növrəs qaldı üzdən, üzdən.

---

[1] Əyilmək, əyilə-əyilə.
[2] Qəbrə qismət olarsan.
[3] Yazda qardan suya dönüb axdım.
[4] Darı və yağı kəsdin, göndərmədin.
[5] Dar ağacı qurdurubsan, yağı.
[6] Axirət evindən (balaca olmasından) utanma.
[7] Yaxşı qocal, yaxşı qarı.
[8] Dağın başında qar yaxşıdı.
[9] Arvad yaxşıdı.

## SAYANA, XANIM

Sayalıdı qədəmlərin,
Heyranam sayana, xanım.[1]
Saymayanın ol sultanı,
Məhəl qoy sayana, xanım.

Heyran etdin yar aşığı,
Götür seyfi yar, aşığı.
Ol xanəmin yaraşığı,
Olarsan say ana, xanım.[2]

Alı sədri bir ox uyan,[3]
Dəl sinəm, atma oxu yan.
Çağır bir əbcət oxuyan,
Günahım say, Anaxanım.

---

[1] Qədəmlərin sayalıdı, düşərlidi.
[2] Sayılıb-seçilən ana olarsan.
[3] Alının sinəsi ox uyan yerdi, ox məskənidi.

## BALAXANIM

Can alan bir cananasan,
Boyu bəstə Balaxanım.
Zənəxdanın qoxur ənbər,
Ləb bələnib bala, xanım.

Aç zülfünü, ya da bağla,
İçər olsan yad ab ağla.
Az qəlbini yada bağla,
Olma cana bala, xanım.

Alı düşdü hər il qara,
Gəli hər ay, hər il qara.
Qol qoymazdı hər ilqara,
Dəhanından bal axanım.

# AYAQ TəCNİSLəR

## AY ÜZƏ-ÜZƏ

Qəm məni çulğayıb saldı dəryaya,
Cəhd eylədim çıxam ay üzə-üzə.[1]
Oğrun-oğrun öz oduma yanıram,
Qəza vurub saldı ay üzə, üzə.[2]

Yaranan da borclu olub bir cana,
Bənzəmədim nə sultana, nə xana.
Dolandım dünyanı, bildim əfsana,
Bu cavan canımı ay üzə-üzə.[3]

O gün olarmı ki, şad olub gülək,
Sən əydin qəddimi, ay qoca fələk.
Alı, yaradandan sən eylə dilək, –
O, deyər dərdini ay üzə, üzə.[4]

---

[1] Sudan üzə-üzə çıxmaq, başqa mənası suyun üzünə çıxmaq.
[2] Üzə düşmək, üzə salmaq, üz vurmaq.
[3] Can üzmək, cəfa çəkmək.
[4] Sözü üzə demək, qırmızı demək.

## AY AĞA, HARAY

Əyildi qamətim, büküldü belim,
Sən yetiş dadıma, ay ağa, haray![1]
Könül coşdu, qanadlanıb uçmağa
Yanıbdı şahpərim, ayağa haray.[2]

Tərlan olan qanad çalmaz lələksiz,
Arzu-dilək səmər verməz əməksiz
Qalmışam zülmətdə gözsüz-köməksiz,
Çeşmim həsrət qalıb ay ağa, haray![3]

Ağalar ağası, ya şahi-süvar,
Düşmüşəm qovğaya, gəl məni qurtar,
Çağırram, qulunu qoyma sərgərdar,
Alı enib başdan ayağa, haray![4]

---

[1] Müqəddəslərdən kömək ummaq.
[2] Qanadsızam, ayaqdan kömək.
[3] Gözüm işığa (ağa) həsrət qalıb.
[4] Başdan ayağa (aşağı) düşmək.

## DOLANDI

Həbibimdi, təbibimdi Bəsdi yar,
Uydu könlüm o dildara dolandı.
Vəfasız dünyanın vəfalı yarı,
Əmr eylədi, düz ilqara dolandı.

Tay olmaz sədrinə bir qeyri sinə,[1]
Qoymadı qoynuna bir qeyri sinə.[2]
Yarı meyl etmədi bir qeyrisinə,
Gəldi neçə zülfü qara dolandı.

Yazı haxdan oldu, od oldu yandı,[3]
Hərdən əbri təki o doldu, yandı.[4]
Sevda aləmində od ol, duy andı,[5]
Alı səməndərdi, nara dolandı.

---

[1] onun sinəsinə ayrı sinə tay olmaz.
[2] Yar qoymadı qoynuna ayrısı əyilsin (burda – sığınsın).
[3] Od tutub yandı.
[4] Bulud tək doldu yandı.
[5] Sevda aləmində sən də odlan, andı unutma.

## GÖZDƏ GÖZÜ SƏN

Gövhər mədəniyəm, düşmüşəm dərdə,
Dərman eylə, gözə gözdə gözü sən.[1]
Aman həkim, əllərinə mən qurban,
Zay olmasın gözüm, gözdə, gözü sən.[2]

Çox dövran sürmüşəm fani dünyada
Allahı çağırram yetişsin dada.
İşıq vermir, gözüm görmür dünyada,
Rəhm eylə gözümə, gözdə gözüsən.[3]

Biçarə Alıyam, gəlmişəm dada,
Hesab eylə haqqı salgınan yada.
Cəsədim alışır, yanıram oda,
Eylə gözlərimə gözdə gözü sən.[4]

---

[1] Gözdə gözümü gözə (toxu).
[2] Gözümü gözlə (qorumaq mənasında).
[3] Gözdə gözümsən.
[4] Mənası: gözlərimi göz et.

## DAL DALA

İsmin üç hərifdi, eylədim bəyan,
"Mim"di, "cim"di, "nun" yazılıb dal dala,[1]
Seyraquba, müxənnətə qoşulma,
Əlif qəddin bəd nəzərdən daldala.[2]

Səyyadısan, dağlar sənin, gəz-dolan,
Alışarsan öz oduna, az qalan,
Maral gəldi, keç bərədə daldalan,
At oxların peykanını dal-dala.[3]

Deyər Aşıq Alı meydən için də,
Oxudum dərsimi meydan içində,[4]
Doxsan min kəlməni meydan içində,[5]
İsbat eylə, sübut eylə dal-dala.[6]

---

[1] Ərəb əlifbasındakı bu üç hərfdən Məcnun kəlməsi alınır.
[2] Qəddini gizlə.
[3] Oxları dalbadal at.
[4] Dörd küçə arasındakı yerdə.
[5] Camaatın içində, ortalıqda.
[6] Ard arda, bir-bir sübut eylə.

## DE BİR ÜZ-BİR ÜZ

Vaxt məni tulladı qəm dəryasına,
Ovçuyam gəzirəm de bir üz-bir üz.[1]
Leyli müştağıyam düşdüm odlara,
Yetirin loğmana, de birüz, birüz.[2]

Fərhad sevdi Şirin yarın kamalın,
Kərəm sevdi Əsli yarın camalın,
Ürək istər, könül deyər kam alın,
Göz-gözə baxanda de bir üz-bir üz.[3]

Alıyam, xəyalım kəc dolanırdı,
Xosrov da başında tac dolanırdı,
Məcnun Leyli deyib ac dolanırdı,
Almadı Leylidən de bir üz-bir üz.[4]

---

[1] Ovçu kimi dağın o üz-bu üzünü (üz-üz, yəni hər yeri) gəzmək.
[2] Biriniz məni loğmana yetirin.
[3] Üz-üzə baxanda kam almaq istəyi.
[4] Leyli üz vermədi, üz göstərmədi.

## BİRİSİN

Apardı ağlımı bir mələkzada,
Söyləyin dərdimin yara birisin.[1]
Naşı gəldi, neştər vurdu yarama,
Loğman gəlsə, söylə yara birisin.[2]

"Qaf" qəhhardan dərsim aldım mən də hey,
"Kaf" kəffardi bu dünyada, sən də hey.
Təbib gəldi, dərman qaldı səndə, hey,
Sən bilirsən bu dərdimin biri "sin".[3]

Alıyam, çağırram gözəl Allahı,
Dilimdən tərk etməm simu-billahı.
Əliyyən-Mürtəza, – şahların şahı –
Şahi-Mərdan açar dərdim, bir isin.[4]

---

[1] Yara dərdimi söyləyin.
[2] Loğman birisini yarsın.
[3] Ərəb əlifbasında sin hərfi, bismillaha işarədir.
[4] Dərdini, dərmanını taparlar, sən bir yerini isit, sən bir isin (toxta).

## AYİLƏ İLƏ

*(dodaqdəyməz ayaq təcnis)*

Səhər çağı səyyad gəzər səhrada,
İllər ayrısıdır, ayilə ilə.[1]
Qəza-qədərindən, ay yazıq ana,
Qalarsan intizar ay ilə, ilə.[2]

Yetişcəyin nazlı yarın yanına,
İstəyər ki, qanın qatsın qanına,
Naşı səyyad gəlsə tərlan yanına,
Tez çaşar xəyalı – ayilə ilə.[3]

Aşıq Alı, dastan eylə dilində,
Həyatında, sənətində, əlində.
Qəza gəlsə, səni alsa, elində
Dil aşkar eyləyər ay ilə ilə.[4]

---

[1] Ailə ilə illər ayrısıdır.
[2] Aylar, illər intizar, həsrət çəkərsən.
[3] Ayılmaq, özünə gəlmək, ilə ayıla-ayılmaya.
[4] Ürək başa gələni ay ilə (ilə bağlayıcıdı) ilə duyuq düşə, düşməyə.

# CIĞALI TəCNİSLəR

## BAŞA-BAŞ

Dost odur ki, öz dostunnan dost ola,
Düşməninnən düşmən ola başa-baş.[1]
Aşıq deyər, başa-baş,
Oxu dərsin başa-baş.
Bədəsildən qaç qurtar,
Ayaq götür başabaş.
“Can!” deyənə “Can!” – deyinən mərdana,
Baş qoyanın qoy yolunda başa baş.[2]

Aşıq gərək bu meydanda bir qala,
Oxugunan hər dərsini bir qala.
Mən aşıq, qala-qala.
Tikilib qala-qala.
Cavan ömrüm çürüdü,
Qürbətdə qala-qala.
Ağlayana can vermərəm bir qala,[3]
Baş verənə mən verərəm başa, baş.[4]

---

[1] Ömür boyu.
[2] Əvəz-əvəz.
[3] Bir davada (qalda), bir dəfəyə can vermərəm.
[4] Başına qıyana baş qıyaram.

Aşıq dərdin kim yetirər sənə, yar,
Oxudunmu bu dərdimi sən, a yar?!
Aşıq deyər, sənə yar,
Qurban olum sənə, yar.
Tarix keçsə qoy keçsin
Ömür elə sən, a yar.
İstəyirsən yaxa yırtıb, sinə yar,
Əl çəkmərəm olsam candan başa-baş.[1]

Aşıq Alı, həzar dərdə davadı,[2]
Bir dərdim var, həzar dərdə davadı.[3]
Yox, aşıq, dava gəzər
Xəstələr dava gəzər.
Əsil çay-çörək verər,
Bədəsil dava gəzər.
Davaçısan, bu meydanda davadı,[4]
İstəyirsən kəllə vuraq başa-baş.[5]

---

[1] Tamam candan olsam.
[2] Bülbül dərdə dərman edəndi.
[3] Bir dərd min dərdə dərmandı.
[4] İrəli dur, bu meydanda dava gedir.
[5] Kəllə-kəlləyə gəlmək, kəlləşək.

## NƏ QARAM İNDİ

Ayəsiydim çahar fəsli bustanın,
Nə abi leysanam, nə qaram indi.[1]
Aşiq nə qaram indi,
Xalı, nə qara mindi.[2]
Dövran keçdi, gün keçdi,
Ömrə nə qaram indi.[3]
Qəddi dalam, dildən çaşqın, eyni zay,
Qalmadı zülfdən ağ, nə qaram indi.[4]

Mərd igidə nəsdən bəhrə – qarat, ar,[5]
Badi əsər, səri kuhdan qar atar,[6]
Aşiq mənəm, qar atar,
Kaman əlvan, qara tar.
Zimistanın üryanı,
Əl-ayağın qar atar.
Hasil olar qar dəyəndə qara, tar,[7]
Qar xaka minəndə nə qaram indi?![8]

---

[1] Nə yağış, nə qaram.
[2] Xalın nə qaradı (burda: zil qara).
[3] Ömrə nə edim, nə qayırım.
[4] Saçda qara qalmadı.
[5] Mərd üçün nəs işdən xeyir tutmaq qarat kimidi, ardı.
[6] Külək dağ başından qar atar (burada: sovurar).
[7] Qar qara dəyəndə (burda: üst-üstə yağanda) tar əmələ gələr (tar sözünə izah üçün sözlüyə bax).
[8] Qar torpağa düşəndə, yağanda (yolu bağlayanda) nə edərəm.

Alı deyər: xəlq olanda qar, daş, dar,
Arxalanar, qardaş bilməz qar daşdar.
Aşiq, mənəm qardaşdar,
Rahi bivec qar, daş, dar.[1]
Qureyş qovar nəbini,
Əbəs yerə qar daşdar.
Yekdil olsa, ümman keçər qardaşdar,
Eyləyər kərgədan, nəqa ram indi.[2]

---

[1] Qarlı, daşlı, dar yol çətin yoldu.
[2] Kərgədan, dəvə ram olar.

## AYAĞA SƏNİ

Məğrur olub ustadından deyinmə,
Bu halət çəkəcək ayağa səni.
Aşiq, ay ağa, səni,
Salar ayağa səni.
Dağdan çəkər arana,
Leysan, a yağa səni.
Mərdlərin şahısan, fəqir ağası,
Çağırram imdada, ay ağa, səni.

Pərvanə dolanar oda, ya şama,
Ömrə zər yaz, nə gərəkdi yaşa ma.[1]
Aşiq deyər, yaşama,
Yaşamırsan yaşama.
Ayrılırsan gəl ayrıl,
Tökmə gözdən yaş, ama.
Mərdanə ömr eylə, ya da yaşama,
Dövran həsrət qoyar ay ağa səni.

Alı çox görübdü dar ayağını,
İnşallah tez salar dara yağını.
Aşiq, dar ayağını,
Yemə dara yağını.
Ər oğlu ər istərəm,
Çəkə dara yağını.
Gətirmə gəl elə, dara yağını,[2]
Həsrət qoyar nana, a yağa səni.

---

[1] Yaşa su nə gərəkdi.
[2] Eldən yağını dara (qov, təmizlə).

## YANA YAR

İnsaf eylə, pünhan gəzmə sevəndən,
Həsrət qala camalına yana yar.[1]
Aşiq mənəm, de yar-yar,
Dəydi yara, de yar, yar.[2]
Təhna qalsan harayla,
Leyli-nahar de: – Yar, yar!
Eşq oduna büryan yandım, nainsaf,
Kərəm eylə, sən də bir an yana yar.[3]

Bihal oldum əksin düşdü ayniyə,
Gah paradı, gah münəvvər, Ay niyə?![4]
Aşiq mənəm, ayniyə,
Nalan qaldın ay niyə?!
Müsəlsəldi səfində,
Daldaladı ay niyə?![5]
Vədə verdin, yubanmısan ay niyə?
Şeyda bülbül çəkər meylin yana, yar.

---

[1] Yar həsrət qala, yana.
[2] Yara yetişdi, de yaranı yar.
[3] Sən də bir az yana (yandakına, səndən uzaqdakına) kərəm et.
[4] Ay gah paradı, gah işıqlıdı (parlaqdı).
[5] Beytin mənası: silsilədi, bir-birinə bitişikdi, ilin ayları ard-ardadı.

“Rey”, “əlif”, “yey” yazdım, yar ayəsində,
Gəldi səna heydər yara yasində.
Aşıq, yar ayəsində,
Bağrın yar, ayə, sin də.[1]
Kimsə əsla eyləməz,
Məlhəm yaraya sində.
Nəşin mara-mura yaraya sində,[2]
Qal qeydinə, sən Alının yan, a yar.[3]

[1] Qorxut və əyil (gizlən).
[2] Nəş ilan-qarışqaya yarayar qəbirdə.
[3] Alının qeydinə qal, ona yan.

## YAYİNƏ MƏN DƏ

Ala gözlüm, çıx baharın seyrinə,
Yubansam gələrəm yayinə mən də.[1]
Aşiq mənəm, nə məndə,
Yazma, çatmaz namən də.
Günah əğyarda oldu,
Nə səndədi, nə məndə.
Tiri baran eyləyirsən sinəmi,
Sanma sərrast oxun yayinə məndə.[2]

Dərd əhlini dərk eylədi nəbilər,[3]
Huşyar ol ki, tapa səni nəbil ər.[4]
Aşiq mənəm, nəbil ər,
Dərsi azlar nə bilər?!
Düşmə eşqin bəhrinə,
Nə canan bil, nə bil ər.
Nadan gül əndamın qədrin nə bilər,
Kənar çək vücudun, yayin əməndə.[5]

---

[1] Mən də yaya özümü çatdıraram.
[2] Beytin mənası: oxları arası kəsilmədən yağdırırsan, sərrast atsan oxun yayınmaz.
[3] Peyğəmbərlər dərd əhlini dərk eylədilər.
[4] Ayıq ol ki, sənə ağıllı, fəzilətli rast gəlsin.
[5] Beytin mənası: nadan qədrini bilməz, səni əməndə vücudunu yayındır.

Alı gəzə, heyran qala dal, yana,[1]
Yada qalar, nə cəm etsən dal yana.[2]
Aşiq mənəm, dal yana,
Dal halına dal yana,[3]
Ömür keçdi, gün keçdi
Hədyan baxar dal yana.[4]
Qamətin şux, nə yaraşır dal yana,
Əmlik fəsillərin yayinə məndə.

[1] Qoca yana, yaxıla.
[2] Yeməyib geriyə yığdığın yada qismət olar.
[3] Qoca halına qoca yanar.
[4] Geriyə baxmaq mənasızdı.

## ÜZ ÜZƏ İNDİ

Sadiq oldu dürəfşanım peymana,
Dilxahdı ümmanda üz üzə indi.[1]
Mən aşiq, üzə indi,
Sonalar üzə indi.
Eşqin sərgüzəştini,
Gəl çəkmə, üzə indi.
Vüsal məqamıdı cənnət deyilən,
Mehriban söykəndi üz üzə indi.

Məqamıdı, al şəmşiri, yar dərdi,[2]
Əsla deyil yar nigaran, yar dərdi.[3]
Mən aşiqəm, yar dərdi,
Yar çeşmədə yar dərdi.[4]
Pünhan dəydi şamama,
Mərhəm oldu, yar dərdi.[5]
Gülüstandan nadir gülü yar dərdi,
Dayandı yarıyla üz-üzə indi.[6]

---

[1] Könül istəyən dəryada üzdən üzə.
[2] Al qılıncı yar (doğra) dərdi.
[3] Yar nigaran deyil, onun yarı bilikli adamdı.
[4] Yar bulaqdan gəlir, tərləyib.
[5] Yarın şamamasını mərhəm olan dərdi.
[6] Əldə gül yarla üz-üzə durmaq.

Peymana mərd aşıq Alı yarandı,
Sədaqətdə əyar oldu yar andı.[1]
Mən aşiqəm, yarandı,
Yaradan var, yarandı.
Ləbindən şəfa tapan,
Cümlə sənin yarandı.
Aşiqinə aludəsin yar andı,
Təcriddi ürbənddən üz, üzə indi.[2]

[1] Sədaqət vaxtı yarın andı meyardı.
[2] Rübənddən (üz örtüyü) üz üzdən ayrıdı, təcrid olub.

## HA DALA, DALA

Ərşin qovğasında bir kar eyləməz,
Leylək nərə çəkə ha dala, dala.[1]
Aşiq, baxma ha dala,
Zaysan, qalsan ha dala.
Qismət olar yadlara,
Nə cəmləsən, ha dala.[2]
Hünər məqamında pir kar eyləməz,
Sən candan olarsan ha dal ad ala.[3]

Asmısan xanəndə yad ələm indi,
Bəyan eylə elə – yad ələm indi.[4]
Aşiqəm, ələm indi,
Qüdrət cəm ələmindi.
Ara haxla yeksansa,
Hər ruzi, əl əmindi.[5]
Cismini yandıram, ya dələm indi,
Xofum yox, kənarın had ala dala.[6]

---

[1] Göydə leylək nərəsi qartala heç nə eləməz.
[2] Dala, geriyə yığdığın yada qismət olar.
[3] Beytin mənası: hünər göstərmək məqamında qoca bir işə yaramaz, sən onun ad alması üçün cəhd etsən də.
[4] Bəyan eylə ki, daha mən sizdən deyiləm (yad əl olmaq).
[5] Beytin mənası: ara, ortalıq düzdüsə, asayiş varsa, ruzi (mal-dövlət) təhlükəsizdi.
[6] Dəlmək üçün silahının ucunu nə qədər iti, kəsici (sözlükdə had sözünə bax) etsən də xofum yoxdu.

Alı, oyan quşlar gəldi dan dilə,
Nə cəfa çək, nə cövr eylə dandilə.
Mən aşiqəm, dandilə,[1]
Şərarəti dan dilə.[2]
Şam diləyi bəd olar,
Nə diləsən dan dilə.
Əl uzat ruzini xudadan dilə,
Boş qaytarmaz əlin ha dala-dala.

---

[1] Beşik.
[2] Pis, yaman deməyi dilə qadağan et.

## BAXDI, YARA BAĞLADI[1]

Qövr eləyir canda zəxmi müttəsil,
Çeşmim çeşmə baxdı, yara bağladı.[2]
Aşıq deyər, bağladı,
Kari-bağban bağladı.[3]
Koma qurdum, dər saldım,
Fələk nə tez bağladı?!
Məftun oldum, canan məlhəm qoymadı,
Bilməz aşıq baxtı yara bağladı.[4]

Nainsafa müsaidin yan aram,[5]
Mahcamallar mehribansa, yanaram.[6]
Aşıq deyər, yan aram,
Yavuqlaşma, ya naram![7]
Əbəs gəl atəşləmə,
Öz-özümə yanaram.
Qaibana dildar sevdim – yanaram,
Aqil baxdı, baxdı, ya rəbb, ağladı.[8]

---

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.
[2] Yara bağlamaq.
[3] Bağ işçisi (bağban) bağda işindədi.
[4] Bəxti yara, sevgiliyə bağlamaq.
[5] Nainsafa kömək edən aramla yansın.
[6] Mehriban olanın halına yanaram, acıyaram.
[7] Yaxın gəlmə mən odluyam, sən də yanarsan.
[8] Ya rəbb, halımı, dərdimi görən aqil ağladı.

Mələk misal, gəl Alını yarıdağ,[1]
Etmə, qəlbin yarı möhnət, yarı dağ.
Aşıq deyər, yarıdağ,
Yarı dəşti, yarı dağ.[2]
Cəhdim səri kuyindi,
Qət eylədim yarı dağ.[3]
Nakam Fərhad fəraqından yarı, dağ,[4]
Əbəs baxtın baxtıyara bağladı.

---

[1] Alını yarıdağ, ona kömək olaq.
[2] Yarı səhradı, yarı dağdı.
[3] Dağın yarısını qət etdim, çıxdım.
[4] Fərhadın ayrılığından dağ yarıyar.

# TƏCNİSLƏR

## AĞ DAMAR, DAMAR[1]

Fəhməndanə gərçi süxən ağ ola,
Onun gözlərinə ağ damar, damar.[2]
Halalı tərk edib harama qaçar,
Nəslə bəna edər ağ damar-damar.[3]

Dağların başını qar alar gedər,
Kəc işdə yar yardan qaralar gedər,
Can köçər, cismilər qaralar gedər,
Qalmaz can evində ağ damar, damar.[4]

Alını xar edən namərd eynidür,[5]
Dəryalarda eyni inci, eyni dür,
Mar əhlinin ağ-qarası eynidür
Dam anda qara mar, ağda mar damar.[6]

---

[1] Şeirin cığalı təcnis variantı qüsurlu olduğu üçün qoşma variantı saxlanıldı.
[2] Gözünə ağ gələr, gözləri ağarar.
[3] Nəslinin adına ləkə gətirər (biabırçılığı xal kimi nəslə yapışdırar),
[4] Canda bir ağ damar qalmaz.
[5] Namərd gözüdür.
[6] Qara zülf ağ üzdə ilan kimidi.

## DAMI DAYANSIN

Uçubdu könlümün dəri, divarı,
Bir sütun vurgunan damı dayansın,[1]
Hər kim dostdan dosta yaman qandırsa,
Qiyamət oduna damıda yansın.[2]

Dedim: könül, bir qayıtsan özünə,
Bir baxgınan mənə, bir də özünə,
Axirətdə bir ev tiksən özünə,
Uçmasın başına, damı dayansın.[3]

Deyər, Aşıq Alı acar ovluya,[4]
Zənbur şirə çəkə, acar ovluya,[5]
Bir dost səni qoyub acar ovluya,[6]
Od vur qapısına damı da yansın.[7]

---

[1] Tavan uçmasın.
[2] Cəhənnəmdə yansın.
[3] Qəbr evinin üstü, damı.
[4] Gülüzlü ovlaya.
[5] Çapqınçı, oğru apara.
[6] Yenisini tapa.
[7] Evi də yansın.

## DAL-DALA

Yaz açılcaq gəl çiçəyin seyrinə,
Təbib deyər, qoy tökülsün dal-dala.[1]
Bu dünyada şir də yalqız olmasın,
Qardaş gərək cüt dayana dal-dala.[2]

Müxənnət göz qoymaz dala, qabağa,[3]
Hərcayılar heç çıxmasın qabağa.[4]
Yaxşı köhlən cəhd eləyər qabağa,[5]
Yaxşı igid fikir verər dal-dala.[6]

Xudam məni tək yaradıb, təkbətək,[7]
Gecə-gündüz fikr elərəm, təkbətək.[8]
Aşıq Alı, çək döşünə təkbətək,[9]
Müxənnətdən çək ətəyin, daldala.[10]

---

[1] Budaq-budağa, eyni zamanda çiçəklərin şəkli dal hərfinə oxşayır.
[2] Bir-birinin ardınca, sırayla.
[3] İrəli, geri.
[4] Qənşərə, göz önünə.
[5] İrəli.
[6] İgid özün arxadan qoruyar.
[7] Xuda məni yaradanda təkbətək idik, (ikimiz idik).
[8] Özüylə tək qalmaq.
[9] Bir-bir.
[10] Dala dur, geri dur (gizlən, görünmə).

## AY AĞ ALMASIN

Bimürvət yar məni candan eylədi,[1]
Tutubdu dəstində ay ağ almasın.[2]
Gəzdim dostun bağçasını, seyr etdim,
Görmədim bağında ay ağ almasın.[3]

Katiblər oxuyar dərsin hər aya,
Bayram ayı demək olmaz hər aya,
Şahi-Mərdan, özün yetiş haraya,
Düşmən üstümüzə ayaq almasın.

Aşıq Alı deyər, yar ab ağlaya,
Yaxşı təbib gərək yara bağlaya,
Bir yar meylin qeyri yara bağlaya,
Həftə tamam olub, aya qalmasın.

---

[1] Alının kitabda bu beytlə başlayan iki təcnisi var.
[2] Əlində almaz (kəsər) tutub.
[3] Meyvə.

## AY AĞI BELƏ

Bimürvət yar məni candan eylədi,
Tutubdu dəstində ay ağı belə.[1]
Can deyən dostlarım, can qardaşlarım
Olubdu canıma a yağı belə.[2]

Dar günümdə yetiş dedim, ay ağa,
Müxənnətə göydən bala, a yağa.
Bir igid ki, enə başdan ayağa
Kəsilər dostların ayağı belə.

Alı deyər, ömrüm sinə[3] yetəndə,
Oxudum dərsimi sinə[4] yetəndə.
Vədəm tamam olub, sinə[5] yetəndə
Bükəllər qəddimə ay ağı belə.

---

[1] zəhər.
[2] düşmən.
[3] Yaşa dolmaq.
[4] Ərəb əlifbasında hərf.
[5] Qəbir, gor, məzar.

## DOLANA, DAĞLAR

Keçdim İstanbuldan, İzmirdən, Qarsdan,
Gəlmişəm dolana-dolana, dağlar,
Duman, çən libasın qaldır səmaya,
Aman ver müsafir dolana, dağlar.

Meylim olmaz elin mal-qoyununda
Şərh et, qamətimi təşdid qoy “nun”da,
Yar firqəti qoymaz qalam qoynunda,
Halımdan kədərlən, dol, ana dağlar.

Aşiqin Alıyam boylu, busatdı,[1]
Bir dürriydim, həcər deyə bu satdı.
Üç ay dolanarsan toylu, büsatdı,
Doqquz ay gözləri dolan, a dağlar.

[1] Burda: boy-buxunlu, yaraşıqlı.

## YARASAN MƏNİ[1]

Əl çəkmərəm, baba, əhdi-peymandan,
İstər şəmşir alıb yarasan məni.
Mürğü şəbistanam fəhmən uçaram,
Sanasan zülmətdə yarasan məni.

Sər düşdü nagahan dara çəkindi,[2]
Mübtəla ahından dara çəkindi.[3]
Tənəf gərdənində, dara, çək indi,[4]
Ya yetir, vüsali-yara sən məni.

Alı xəcil oldu, ayağa baxdı,
Sərsəri didədən ay ağ ab axdı.
Hər kəsin dəstində ay ağa baxdı[5]
Qurtarar bu qəmdən yar, asan məni.

---

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

[2] Baş qəfil dara çəkilib düşdü, üzüldü.

[3] Burda möhtac olanın (ehtiyacı olanın) ahından mal sahibi, ağa, hökmdar çəkindi.

[4] Uzun boyunda dara çək məni.

[5] Hər kəsə öz ağa bəxti kömək olsun, yar olsun.

## AY BELƏSİ NƏ

Sərraf gözü seyr eyliyə zıbanı,
Nadan əsla bilməz ay beləsi nə?!
Camalın şövqündən ay-gün xof edə,
Günəş belə sinə, ay belə sinə.[1]

"Sin" içində oxumuşam, ağa, "lam",
Yar sədrinə müqabildi ağ alam.
Əbcət ilə qulluğunda "a" qalam,[2]
Qul olam ilinən, ay beləsinə.

Aşıq Alı, çıx gülşənə nərgiz dər,
Sərraf maya ağuşunda nər gizdər.
Olmaz tayı züleyxalar, nərgizdər,
Əsla yox kimsədə ay belə sinə.

[1] Qorxudan bir yana Günəş əyilə, bir yana Ay.
[2] Ərəb əlifbasındakı "a" (əlif) hərfi kimi qulluğunda dik durmaq.

## DALA YAY İNDİ

Sitəmkar yar saldı nara cismimi,
Zimistanda döndü dala yay indi.[1]
Atdı müjgan oxun dəldi sinəmi,
Zalım çəkir bir də dala yay indi.[2]

Gül dərdim, bilmədim kimsəyə dərdim,[3]
Dildarımdan qeyri kim sayə dərdim?![4]
Yox kimsənəm deyim kimsəyə dərdim,
Firqətindən ollam dal ay-ay indi.[5]

Alı, dön bir mina gərdanə sarı,[6]
Təşbehi mürğ uça gərd anə sarı,[7]
Bimürvət, aç zülfün gərdanə sarı,[8]
Önümdə çin-çin et, dala yay indi.[9]

---

[1] Qışda yay geri döndü.
[2] Zalım oxu qoyub təkrar, yenidən yayı dala (geri) çəkir, atmağa hazırlaşır.
[3] Gülü kimə dərdiyimi bilmədim.
[4] Yardan başqa mənim dərdimi kim sayar və ya kim dərdimə pənah durar.
[5] Həsrətdən əyilib dala (ərəb əlifbasında hərf) dönərəm.
[6] Mina boyluya sarı bax.
[7] Könül quşu uçub dolanar gözələ, gözəşirinə sarı.
[8] Saçını boynuna sarı, dola.
[9] Qarşımda çin vur, kürəyinə yay.

## BİR İNCİ

Pünhan sözüm ərz eylədim güləsən,
Mən demədim üsyan eylə, bir inci.[1]
Lalə yanaq, bənzəyirsən gülə sən,
At rübəndi, təam edək birinci.[2]

Gəldi novruz, başlayıbdı odu yaz,[3]
Miskin qəlbə hicranı yaz, odu yaz.[4]
Öz dəstinlə al qələmi odu yaz,[5]
Qətl olunmuş fərmanınla birinci.[6]

Güman etmə Aşıq Alı beləydi,
Balü-pərim külüng əydi, bel əydi.[7]
Bais oldun hicranından bel əydi,[8]
Əsəl ləbli, ey dişləri bir inci.[9]

---

[1] Demədim üsyan edib inciyəsən.
[2] Düyü (aş, plov) yeyək.
[3] Odur bax, yaz başlayıbdır (gəlibdir).
[4] Yazığın bəxtinə ayrılığı, atəşi (odu) yaz.
[5] Göstəriş verməkdi: öz əlinlə al qələmi odur (odur ha) yaz.
[6] Fərmanınla birinci qətl etdiyin.
[7] Qol-qanadımı külüng, bel əydi.
[8] Sənin hicranın bais oldu belim əyildi.
[9] Bal dodaqlı, dişləri inci olan.

## BU DAĞLAR MƏNİ

Sitəmli dağ çəkdi yarım sinəmə,
Zinhar eylər düyün, bu dağlar məni.[1]
Ucbatından səhranişin olmuşam,
Çəkibdi qoynuna bu dağlar məni.[2]

Vüsal peymanında ay ara verdi,[3]
Firqət məzacını a yara verdi,[4]
Can evimə saysız a yara verdi,[5]
Kəsər balü-pərim, budaqlar məni.[6]

Savaşda əsirə yazıq alını,[7]
Qışı qəhrin çəkdim, yazı qalını,[8]
Deyin öldürməsin yazıq Alını,
Bud öldürər məni, bud ağlar məni.[9]

---

[1] Sinəmin dağ-düyünü məni zinhar edir.
[2] Dağlara, səhralara çəkilmişəm.
[3] Vüsal əhdinə yar ara verdi.
[4] Ayrılıq dərdini, azarını yara qismət elədi.
[5] Canıma saysız yara verdi.
[6] Qol-qanadımı qırıb məni döyər (budayar).
[7] Müharibədə yazıq əsir götürülər, əsir alınar.
[8] Qışda əziyyətin çəkdim, yazda davasını.
[9] Burda iki mənalıdı: 1.həyat məni öldürər, ağlar, 2.eyni zamanda sevgilinin budu, əndamı nəzərdə tutula bilər.

## BİLSİN – ƏMİNDİ

Ahu-nalə çəkmək aşiq vərdişi,
Nalədən zövq alan bilsin – əmindi.[1]
Əyibdi qəddimi çərxin gərdişi,
Ömrüm talan oldu, bil, sinə mindi.[2]

Alırsan, hifz eylə sinə min dağı,[3]
Haçandan girləyir sinə min dağı.[4]
Bihudə qövr eylər sinəmin dağı,
Böylə şanə-şanə bil sinə mindi.[5]

Alı indi məclislərdən kəmindi,[6]
Nə müdhiş bəla var, əqli kəmindi.
Eşq əhliydim, oldum eşqi kəm indi,
Tərk eylər nəğmələr bil sinəm indi.[7]

---

[1] Nalədən zövq alan, əmin olsun, xatircəm olsun bu bizdə vərdişdi.
[2] Ömür sona yetdi, qəbirə mindi.
[3] Sinəmdən alanda qoru, hifz eylə dağları.
[4] Sinə çoxdan min dağı hərləyir (yada sal: əcəl girləmək), əl çəkmir.
[5] Belə şan-şan sinə minlərlədi.
[6] Alı indi məclislərdən gizlənir, kənardı.
[7] Nəğmələr sinəmi tərk eyləyər.

## DİN CƏLİL

Aşıq olub el içinə varan kəs,
Atma nanı, dolan cəlil, din cəlil.[1]
Qafil olma, hədyan gəzmə, şər baxma,
Ola bilməz gərdişində dinc, əlil.[2]

Aşiyanı nə dərin qaz, nə dayaz,[3]
Hərzü-hədyan nə al dilə, nə də yaz.[4]
Bədxah olma üç fəsildə, nə də yaz[5]
Bəxtin yatsa, cəhd eyləmə, dincəl il.[6]

Şıx Alıya bir ziyafət qur, ana,
Səcdə qılaq bu gərdişi qurana.
Zəbur, Tövrat, İncil çatmaz Qurana,
Mustafadan bərhəqq qaldı din, cəlil.[7]

---

[1] özünü daim uca tut, dinəndə mərtəbəni bil.
[2] dinc adam dolananda şikəstlik, üzgünlük, qüsurlu hərəkət edə bilməz.
[3] yuvanı, sığınacağı nə dərin, nə dayaz qaz.
[4] boş, hədərən-pədərən sözü nə danış, nə də yaz.
[5] Həm üç fəsildə (yay, payız, qış), həm də yazda başqalarını pisləmə.
[6] Bəxt dönübsə, bir il dayan, gözlə, dincəl.
[7] Peyğəmbərdən haqq olan dinimiz, ilahi dinimiz həmişə uca qaldı.

## QARALI, GƏL-GƏL

Yazda yaylaq, payız aran köçünü,
Gözləməkdən gözüm qaralı, gəl-gəl.[1]
Aparan yox, qəlbim viran köçüdü,
Zimistanda yollar qar alı, gəl-gəl.[2]

Səbəb nədi ayaq bizdən kəsildi?!
Bu hicranı insaf eylə, kəs, ildi.[3]
Sənsiz bağçamızda bitmir kəs ildi,[4]
Oldu zülfüm ağlı-qaralı, gəl-gəl.[5]

Saysız hikmətlər var Yasin içində,[6]
Qoydun məni giryan yasın içində.[7]
Ya səhrada axtar, ya sin içində,[8]
Harayla: Məskəni qar Alı, gəl-gəl.[9]

---

[1] Səni gözləməkdən gözüm qaraldı.
[2] Qışda yolları qar aldı, gəl.
[3] Bu hicran bir ildi aramızdadı, onu kəs.
[4] Sənsiz bağçamızda bir ildi çiçək bitmir.
[5] Saçım ağ-qara oldu gəl.
[6] Qurandakı surədən bəhs edir.
[7] Məni yas içində ağlar qoydun.
[8] Məni ya səhrada axtar, ya qəbirdə.
[9] Çağır – məskəni mağara olan Alı, gəl.

## NƏ DANA BELƏ

Qoyma intizarda eli, obanı,
Deyərlər mürvətin nə dana belə.[1]
Abı-həyat çeşməsidir həyatın,
Nə könül təşnələ, nə dan ab elə.[2]

Kənar ol inaddan, yaxa qan sənə,[3]
Deməsinlər əl qan, yaxa qan sənə,
Zalım deyər, ya xan, ya xaqan sənə,
Əhsən deməz aqil, nə dana belə.[4]

Qəlbim içrə axar, olmaz qan aram,[5]
Sev birini, düşün aram, qan aram.[6]
Mən Alıyam mətləbini qanaram,[7]
Uymaq istəməzsən nadana belə.[8]

---

[1] El səndən mərdlik, mərhəmət gözlədiyi halda başqaları istər ki, sən belə işlərdən əl çəkəsən, danasan.
[2] Həyatın dirilik suyudur, könül təşnə etmə ki, dan üzü su istəmə.
[3] İnad şəxsdən uzaq ol, sənə qan yaxar.
[4] Adına layiq iş tutmasan sənə aqil və alim əhsən deməz.
[5] Ürəyimdə qan durmadan, aram vermədən axar.
[6] Aramla düşün, aramla qan.
[7] Mən sənin mətləbini qanan kəsəm.
[8] Məni qoyub cahilə, qanmaza uymazsan.

## YARA DAN SÖYLƏ

Şam xeyrindən fərzdi sabahın şəri,
Ey qasid, əhvalım yara dan söylə.[1]
Bu dərdi-möhnəti, bu intizarı,
Yazdı iqbalıma yaradan söylə[2].

Ahəstə de, dolanıram, yar, dağı,[3]
Eşq atəşi hökm eyləyir yar dağı.[4]
Sinəm üstə yara dağı, yar dağı,[5]
Zinhar oldum qəmdən, yaradan, söylə.[6]

Şıx Alıdan kənar oldu, can üzdü,[7]
Yandı cismim eşq bəhrində can üzdü,[8]
Həsrətindən abdal oldu, can üzdü,[9]
Nainsaf, bir görüş yarad, an söylə.[10]

---

[1] Əhvalımı yara sübh, dan vaxtı söylə.
[2] Bu həsrəti yaradan yazır.
[3] Yara de, dağı dolanıram.
[4] Eşq atəşi hökm edir ki, dağı yarım.
[5] Sinəmdə yara yeri, yar dağı.
[6] Ağrıdan, yaradan zinhar oldum.
[7] Səndən kənarda ömrü, canı üzdüm.
[8] Eşq dənizində can üzdü.
[9] Həsrətindən abdal (burda səfeh) kimi canım üzüldü.
[10] Görüş edib ürəyəyatan bir iş yarat.

## NARA-NAR

Biilqarı, bimürvəti, nakəsi,
Gördüm giryan, bətni-büryan, nara-nar.[1]
Can atəşli, təmənnaya gəlmişəm,
Könlüm səndən ehtiyaca nar anar.[2]

Nədən oldun aşiqinə, yar, ası,[3]
Sayalanmaz acı dilin yarası.[4]
Leyli-nahar yaxasından yar ası,[5]
Əzəlindən həmsayədir nara nar.[6]

Yar dəstiylə bu odlara qalan da,[7]
Sevda vursaq, sən salarsan qal, anda.[8]
Könül bağı qürbət eldə qalanda,
Nalə çəkər, Alı deyər nar, a nar.[9]

---

[1] Cəhənnəm atəşində ağlayaraq yanan gördüm.
[2] Könlüm səndən nar istər, anar, umar.
[3] Nədən sevənə üsyan etdin.
[4] Acı dilin yarası sağalmaz.
[5] Axşam-səhər yar qoynundan asıb.
[6] Əzəldən yar qoynunda nar narın qonşusudur.
[7] Yar əliylə bu odlara qalan.
[8] Sevişmək məqamında dava salarsan.
[9] Bağdan ayrı düşəndə Alı, nar, nar, deyər.

## TƏR SAYA YAXŞI

Gözəllərin şahı sərvi-xuraman,
Yaraşır geyəndə tər saya yaxşı.[1]
Əşyan eylə qoynun, qərq olum tərə,
Məcazə gətirər tər saya yaxşı.[2]

Döşənib xanənə o xalı gözlə[3],
Sərsəm səyyad əldən ox alı, gözlə.[4]
Rüxsarda can alan o xalı gözlə,
Dəyişmərəm yüz min tərsaya yaxşı.

Sənətkaram eylə təhrik, başda yaz,[5]
Həsrətinnən ömür puçdu, baş dayaz.
Sərraf, yazsan, sən Alını başda yaz,
Yazmaram şəninə tərs aya yaxşı.[6]

---

[1] Təzə saya geyim (bir rəng parça) sevgiliyə yaxşı yaraşır.
[2] Xəstəni tər (tərləmək) tez sağaldar.
[3] Xalça.
[4] Ehtiyatlı ol – dəli ovçu əldən oxunu ala bilər.
[5] Ərəb əlifbasında hərfi hərəkətləndirmək, sənətkarı məcbur eylə, yazmağa başla.
[6] Tərs söz yazmaram.

## QALA QALMAYA

İnad edib çıxma mənim sözümdən,
Bir imkanım qiylü-qala qalmaya.
Bahəm olsan, bil ki qəlbim qaladı,
Sənsiz uçar qala, qala qalmaya.[1]

Ya əsli bimaram, ya zaram indi,
Dərdi-qəm əlindən yazaram indi.
Zəkam hökm eyləyir yaz aram indi,
Mətnindən nişanə qala-qalmaya.

Bu qarlı dağları heç yar aşarmı?!
Beylədə həddini heç yar aşarmı?![2]
Biganəlik sənə heç yaraşarmı?!
Qayıdanda Alı qala-qalmaya.

[1] Uçar qala qalmaz.
[2] Sevən yar bu məqamda yolundan çıxarmı?

## QALADA YANMAZ

Qəlbim yanar bir qaladı, məskən et,
Sidqiylə sinənlər qalada yanmaz.[1]
Atəşin qəlbimi salma möhnətə,
Binəvadı, qiylü-qala dayanmaz.

Alır camalından şəmsi tab edir,[2]
Kamalına cümlə aləm tabedir,
O qəm ləşkəri ki, qəlbim tab edir,[3]
Ona bir qüdrətli qala dayanmaz.

Alı pərvanədi, yara dolanır,[4]
Firqətindən canda yara dolanır,
Yar salır meylini yara dolanır,
Güman etmə tənha qala, dayanmaz.[5]

---

[1] Təmiz qəlblə sığınan qalada yanmaz.
[2] Camalının günəşindən qəlbim işıq, ziya alır; işıqlanır.
[3] Qəm ordusuna qəlbim dözür, tablaşır.
[4] Alı pərvanə kimi yar başına dolanır.
[5] Tənha dözməz, dayanmaz.

## DAŞINAN

Yar yolunda cövrü-cəfa çəkməyən,
Peşman olar, vurar başa daşınan.
Səxa umma sən bu çərxi-fələkdən,
Yetməz vəslə peymanından daşınan.[1]

Şəhdi-şəkər sədaqətlə iç ərdən,
Nimdaş dəhnə pər dağıdar, içər dən.[2]
Yaxşı zənən xanə qurar içərdən,
Ərz eyləyər həmsərinə daşı, nan.

Geyindirdi yar qəddinə yar ağı,[3]
Nəsil-soyla yar məlhəmdi, yar ağı.[4]
Alı, nandı mərd igidin yarağı,
Həm parçalar, həm cilalar daşı nan.

---

[1] Peymana dönük çıxan, əhdindən daşınan vəslə yetməz.
[2] Pis dəhnə (suyu gah çox, gah az gələn dəhnə) dəyirmanın pərini dağıdar, dən itkiyə gedər.
[3] Yar ağ libas geyib.
[4] Yar həyat üçün ya məlhəm, ya ağı (zəhər) olar.

## NƏ GÖZƏL, GÖZƏL

Nazlı canan, nə şahanə gəzirsən,
Dolandın gülşəni nə gözəl, gözəl.[1]
Bax şümşad əlinə, şəhla gözünə,
Qüdrət xəlq eyləyib nə gözəl göz, əl.[2]

Adət budur həmsər sərin dolana,[3]
Qəza tutmaz həm sərsərin dolana,[4]
Gözəl əyal, həmsər sərin dolana,[5]
Ondan həbib olmaz, nə gözəl, gözəl.[6]

Qələm nə götürə, nə yaza yaxşı?!
Nə korla hürfatı, nə yaz "a" yaxşı.
Alı, əlvan qalar nə yaza yaxşı,
Əbədi var olar nə gözəl-gözəl.

---

[1] Gülşəni nə gözəl dolandın, gözəl.
[2] Yaradan gözəl göz və əl xəlq edib.
[3] Adətdi həyat yoldaşı yoldaşı arar, yoluxar.
[4] Tufan olsa da onu qəza tutmaz.
[5] Gözəl yar, yoldaş sərin dolansa (aranı sərin saxlasa).
[6] Ondan nə sevgili, nə gözəl olar.

## QAR, AYAZ

Zimistanda tənha qaldım səhrada,
Nuri-çeşmim aparıbdı qar, ayaz.[1]
Ümid etdim bahar gülər üzümə,
İqbalımdan yenə gəldi qara yaz.[2]

Taleh bəd gətirdi, tutdum üz ünə[3],
Ara dostun batini nə, üzü nə?![4]
Köçdü yarım, həsrət qaldım üzünə,[5]
Öz dəstinlə kəm baxtımı qara yaz.[6]

Var pənahım – ərənlərin əridi,[7]
Fəna etdin, Alı ilkən ər idi.[8]
Hüsnün şöləsindən qəlbim əridi,
Elə bil ki, hökm eylədi qara, yaz.[9]

---

[1] Gözümün işığını qar, ayaz apardı.
[2] Bəxtimdən yenə yaz qara gəldi.
[3] Səsə tərəf üz tutdum, getdim.
[4] Dostun içini, çölünü ara.
[5] Yarın üzünə həsrət qaldım.
[6] Öz əlinlə bəxtimi qara yaz.
[7] Övliyaların başçısı.
[8] Alı ilk, əvvəl ərəndi, öndərdi.
[9] Hüsnün şöləsi yaz qarı əridən kimi qəlbimi əritdi, yumşaltdı.

## YAZIQƏ MİNDİ

Firqəti can alan ey pərizadə,
Bir anlıq hicranın yazıqə mindi.[1]
Ah-vay ilə zimistanı keçirtdim,
Çəkirəm bihudə yazı qəm indi.[2]

Naəlac mürğüyəm dilin dən mənə,[3]
Rəhm et, həmdəm olsun dil indən mənə.[4]
Taleh bəxş eyləsin dilindən mənə,[5]
Bir vüsal hərfini yazı qəm indi.[6]

Alı sərin vücudunnan kəs at, yar,[7]
Əzalarım birər-birər kəs, at, yar,[8]
Xəlq olundun mərhəmətdən kəsat, yar,[9]
Demədin ləbimnən, yazıq, əm indi.[10]

---

[1] Bir an hicranını mən yazığa yüklə, mindir.
[2] Bu yazı (fəsil) qəm çəkirəm.
[3] Əlacsız quşam, dilin mənim dənimdi.
[4] İndən (indidən) belə qəlbin mənə həmdəm olsun.
[5] Dilindən mənə pay düşsün.
[6] Qəm indi bir vüsal hərfi yazır.
[7] Yar, Alının başını bədənindən kəsib at.
[8] Əzalarımı bir-bir kəs, at və yar.
[9] Səndə mərhəmət yoxdu, mərhəmətdən kəsatsan.
[10] Yazığa ləbdən əmməyi buyurmadın, təklif etmədin.

## HA, SARI, DAĞLAR

Atar səni ellər gedər arana,
Kədəri gərdənə ha, sarı, dağlar.[1]
Tərlan sədalısan, qartal ədalı,
Cüda sal sərindən ha sarı, dağlar.[2]

Qəhr edəndə geyinirsiz ay ağı,
Nadan, naqis ərz eyləyər, a yağı,
Sarıyerdən Sərisəngə ayağı,
Çəkirsiz diyara hasarı dağlar.

Nə adətdi, nə sehirdi, nə aldı,[3]
Zər yığanlar cəlalından nə aldı.[4]
İndi rəngin nə yaşıldı, nə aldı,[5]
Xəzanda geyərsiz ha sarı, dağlar.[6]

Sənətkara hər cəhətin sənadı,[7]
Dağ nəs addı, hardan aldın sən adı.
Alı səndə son sanını sanadı,[8]
Sər çəkir səcdənə ha sarı dağlar.[9]

---

[1] Kədəri boynuna dolamaq, sarımaq.
[2] Sarı (qarğa-quzğunu) zirvənə qoyma.
[3] Nə feldi, nə kələkdi.
[4] Nə aldı, nə götürdü.
[5] Nə yaşıl, nə qırmızısan.
[6] Payızda sarıya bürünərsən.
[7] Sənətkara hər üzün, hər fəslin tərifdi.
[8] Son günlərini sanadı.
[9] Baş elə sənə səcdəyə sarı, səcdə etməyə əyilir.

## ÇATAÇAT

Nainsafsan, nahaq vurdun daşlara,
Can evini sən eylədin çataçat.[1]
Hey çalışdın düzəldəsən, faydasız,
Gör qarışır neçə yerdən çata çat.[2]

Çağır Fərhad gələ yara dağları,
Qövr elər sinəmdə yara dağları,[3]
Ey Xuda, nakəsi yarad ağları,[4]
Gözüyaşlı, qaşları da çata-çat.[5]

Əsil sevən Leyli təkin yarana,
Leyli-nahar nalə çəkə, yar ana,[6]
Vaxtın çatdı, çarə olmaz yarana,
Həsrət qaldın, Alı, yara çata-çat.[7]

---

[1] Can evi daşlardan çat verib, çat-çat olub.
[2] Çat çata qarışıb.
[3] Yaralar dağ olub.
[4] Xuda, alçağı ağlar yarat.
[5] Gözü yaşlı olsun, qaşları da həyəcandan çatılsın.
[6] Axşam-səhər yarı yad edə, onu ana.
[7] Yara çat, cəhd et yara çatmağa.

## O DAD, ÜZ QALA

Halal nanın dadı getməz damaqdan,
Dolana zamanlar o dad, üz qala.[1]
Namərdin qalası kəc olar himdən,
Hər kim mərdsə, qurdu o da düz qala.

Siyah dövranından qaçsa yar ağa,
Qətlin üçün əlin atar yarağa.
Təpə-dırnaq aman vermə yar, ağa,
Al canın, cəsədin, oda düz qala.[2]

Aşıq Alı zinhar oldu nəs ildən,
Cəfa qalar, verə bilməz nəs il dən.
Kim sadiqsə əzəl soydan, nəsildən,
Yarınan peymanda o da düz qala.

---

[1] Burada – dad damaqdan getməz, üzdə qalar.

[2] Bəndin mənası – sənin qara günündə yar ağ günə qaçırsa, səni öldürmək istəyəcək, sən onu təpədən dırnağa yarıb öldür ki, oda (ev) düz (qaydasında) olsun.

## HA LALI

Bəddən bədgümanam, naqisdən incik,
Bimürvətdi – leyli-nahar ha lalı.[1]
Təqdir taleyinə canan yazmasa,
Püşkün çəkər şili, koru, ha lalı.[2]

Afət törər dü simudan, dü zərdən,[3]
Ruzi paksa, lap sünbüllə düzər dən,
Düz soy törər düz zənəndən, düz ərdən,
Haram atar, meyli çəkər halalı.

Əzəldən həmidə, həmid uyandı,
Hami dur əsilə, hami duyandı,
Səxalı yad edən, həmi duyandı,
Tapdı ası, oldu müşkül hal Alı.

---

[1] Axşam-səhər ha yalvar, xeyri yoxdu.
[2] Bəxtinə şil, kor, ya da lal düşər.
[3] İkisindən: gümüş və qızıldan zərər gələr.

## QALACA NANI

Əfsanədi bu dunyanın sursatı,
Fənada Hatəmin qalaca nanı.[1]
Piran ömrə imdad olmaz kimsədən,
Ümidəm qeydinə qala cananı.[2]

İbrət annamazdan keçmə yan, ağa,
Rəngi təğyir tapar, rəhm et, yan ağa.
Bədəfkar yar ola bir al yanağa,
Çulğayar qazamat, qala cananı.[3]

Alı əlin verdi düz ələ belə,
Səxavət eləsən, düz ələ belə.
Sınan qəlb inanma düzələ belə,
Bihudə sövq etmə qala cananı.[4]

---

[1] Şərq əsatirində varlı bir adamın əliaçıqlığına, səxavətinə işarədir – yəni bu dünyada Hatəmin verdiyi çörək qalacaq.

[2] Sevgilinin qeydinə cananı qalacaq.

[3] Pis fikirli adam bir gözələ yar olsa, o gözəlin olduğu yer qazamata, qalaya dönər.

[4] Cananı həvayidən qala (davaya) çəkmə.

## OYAN, AY ANA

Rahi-rəvan oldum qürbət ellərə,
Yan fərzənd halına, oyan, ay ana.
Eşqim şəms olundu, bədnam dillərə,
Qəflən çəkdi qəlbin o yana, yana.[1]

Hüzn kəlamıdı qəm dər Yasində,[2]
Qalar qəmxanədə qəmdar, ya sində.[3]
Məcnun olub qaldım qəm dəryasında,
Yarım deməz üzüm o yana, yana.[4]

Verdi Alı ömrün o bada yandı,[5]
Ahu əfqanımdan oba da yandı.
Atəşim seyrinə oba dayandı,
Nainsaf qəflətən oyana yana.[6]

---

[1] Qəlbini yana çəkdi, yan oldu.
[2] Yasin surəsində qəmlənmək.
[3] Qəm əhli ya qəmxanada olar, ya qəbirdə.
[4] Sevgilim dəryada qalana (batana) tərəf üzməz.
[5] Ömrümü bada verib yandırdım.
[6] İnsafsız ayılıb yana.

## HA BELƏ BAŞDA

Məğrur aşıq, hikmət söylə, hikmət aç,
Qoymusan əlini ha belə başda.[1]
Xəbər ver nübüvvət, merac evindən,
Beytul-Müqəddəsdən ha belə başda.[2]

Xali bilib dırmanırsan sərinə,[3]
Ləng əhlinin astası nə, səri nə?![4]
Hey ağıl qoy qurumsağın sərinə,
Kəramət duymadım ha belə başda.[5]

Gəldim, getdim bu fənadan bir andım,[6]
Sənət əhlin bir aradım, bir andım.[7]
Mən Alıyam var əzəldən bir andım,
Dayanam məclisdə ha belə başda.[8]

---

[1] Əlini başına qoymusan.
[2] Söhbətə Beytul-Müqəddəsdən başla (Qüds şəhərindəki müqəddəs Əqsa məscidi nəzərdə tutulur, müsəlmanların ilk qibləsi).
[3] Bağı sahibsiz (xəlvət) bilib ağacın başına dırmanırsan.
[4] Ləng, topal adamların astası da, sürətlisi də bir şeydi.
[5] Sarsağın başına ağıl qoysan da kəraməti olmaz.
[6] Fanidə ömür bir andı.
[7] Sənət əhlini aradım, andım.
[8] Alı istər həmişə məclisdə başda dayana.

## TANIDAR MƏNİ

Fəhmim, fəzilətim, əqlü-kamalım,
Sənətim sərvətdi, tanıdar məni.
Zahirim sayəsə, bətni xoşgüləm,
Varsa fərasətin tanı, dər məni.

Xalı xətaisə, dərməni atma,[1]
Güləm gülşənində, dər məni, atma.[2]
Can sökən meyli xoş, dərməni atma,[3]
Dərk eylə, nabina, tanı dərməni.

Önümdə kədərdən çəkdi bir səf il,[4]
Pünhan dərdim çəkə bilməz birsə, fil.
Canan sorağında Alı bir səfil,
Sorana bir kamil tanıdar məni.[5]

---

[1] Xətayi xalıya (xalça) dərmə, əlavə naxış vurma.
[2] Məni gül kimi dər (götürə bildiyini götür), atma (əlindən yerə qoyma).
[3] Hər dərmanı (ziyanlı) atma, qəbul etmə.
[4] Kədərli illərin səfi, qatarı.
[5] Məni soruşan şəxsə kamil adam, adil adam tanıdar.

## AY AĞAM, İNDİ

Zəlili-bimaram, müşkül çağımdı,
Yetəsən dadıma, ay ağam, indi.[1]
Ellər yaraşığı, pür kamal aşıq,
Təqlil olub başdan ayağa mindi.[2]

Asiləri çalsın ay ilan belə,[3]
Olmasın sübhüdən ayilən belə,[4]
Anırsan bidarı ay, il, an belə,[5]
Bu qəbildən üzü ay ağam indi.[6]

Alıyam, qadirə, zikrim sübhana,[7]
Müdam qəlbim xaliqini sübh ana,[8]
Bismillahla dəstin yetər sübhana,[9]
Şükrüm lisanımda, ay ağa, mindi.[10]

---

[1] Ağam indi dada yetsin.
[2] Qiyməti, qədri bilinmədi, başdan ayağa keçdi.
[3] Günahkarı ilan çalsın.
[4] Sübh ayılmasın, sabaha sağ çıxmasın.
[5] Yatmayanı, oyağı hər zaman an.
[6] Bu sarıdan üzü ağam mən.
[7] Alı qüdrət sahibini (Allahı) yada salıb mədh, tərif edər.
[8] Qəlb yaradanı müdam sübh (namazda) yad edər, anar.
[9] Bismillahla əlin yetər süfrəyə.
[10] Şükrüm dilimdə mindi.

## SANASAN MƏNDƏ

Pürsəda aşıqlıq, sehirli səslə,
Məkanın bir canda sanasan məndə.[1]
Neçə yer, neçə göy, neçəsə rizvan,
Zəmindən asmana sana-san məndə.[2]

Avazımla tövbə verrəm həzara,[3]
Hikmət açım, dilimdən gəl ha zara.
Bir əlifi cəm eyləsəm hazara,[4]
Min bir məna verir san asan məndə.[5]

Billah olmam ruzədara mən asi,[6]
Yeddilikdə neçə verər məna si.[7]
Dörd kitabın amalıyla, mənası,
Alıyam, vahiddi sanasan məndə.[8]

[1] Hesab edəsən.
[2] Hamısı, birbəbir.
[3] Avazım bülbülə oxumağı tövbə etdirər.
[4] Farsca min (1000), Tanrının min bir adına işarədir.
[5] Say asanlıqla məndə min bir məna verir.
[6] Oruc tutana asi deyiləm.
[7] Ay və ayı təşkil edən dörd həftə.
[8] Əgər saya bilsən, sanasan.

## CANALI YAYLAQ

Heyran qaldım cəlalını görəndə,
Süsənli, sünbüllü, canalı yaylaq.[1]
Sultana baş əyməz türfə gözəllər,
Qıyqacı baxanda can alı, yaylaq.[2]

Seyrəlib toy-büsat qalsın həmd, əmi,[3]
Tükənməsin elin varı, həm dəmi.[4]
Məxluq olsun bir-birinin həmdəmi,
Candan kənar olsun can alı yaylaq.[5]

Qovlar köhlən, rəva bilməz ər zini,[6]
Səna deyib gəzdim İslam ərzini,[7]
Rəncidəyəm, eşitmədim ərzini,[8]
Deyə gözəllərin "can, Alı!", yaylaq.[9]

---

[1] Sevgili yaylaq.
[2] Can alır.
[3] Toy-büsat seyrəlsə də duamız, şükrümüz, mədhimiz qalsın.
[4] Elin kefi həmişə saz olsun.
[5] Məxluqdan bir-birini aldatmaq, candan gələn hiylə kənar olsun.
[6] Ər köhlənə yəhəri rəva bilməz.
[7] Təriflə (mədh etməklə) islam dünyasını, coğrafiyasını dolandım.
[8] Eşitmədim, ərz etmədilər.
[9] Demədi gözəllər "can, Alı!", yaylaq.

## ATA BİLMƏZSƏN

Biganə olanda ata fərzəndə,
Sən onu əzəldən ata bilməzsən.[1]
Keçirsən ovunu bəndi-bərədən,
Oxun hədyan gedər, ata bilməzsən.[2]

Güman etmə nankorluğu az ardı,[3]
Səmtsiz uçan səmasında azardı.
Bəd xələfin cismi cana azardı,
Nə qədri cövr etsə, ata bilməzsən.[4]

Fəsli xəzan açmaz lalə, səmən də,
Leylü-nahar zikr olunar sə məndə.[5]
Buraq nədi, kim suvardı səməndə?![6]
Sən onu bənzətmə ata, bilməzsən.[7]

Alı baxtın bağlayıbdı bir ada,
Əbcət ilə qərar tutdu bir "a" da.
Gəşt eylərəm qalmaz dərya, bir ada,
Naqafil gəlişim, ata, bilməzsən.[8]

---

[1] Övlada biganə olanı ata (valideyn) bilməzsən.
[2] Ata (vura) bilməzsən.
[3] Nankorluq az ar (burda: ayıb) deyil.
[4] Xələfin bəd olsa da sən onu ata (qova) bilməzsən.
[5] "Allah, Məhəmməd, Əli" deyib zikr edərəm.
[6] Səmənd at (misranın mənası üçün "Sözlük"də Buraq sözünə bax).
[7] Sən onu ata (heyvana) bənzətmə.
[8] Burada "ata" xitabdır.

## QARALAR SƏNİ

Nadidə naqqalsan, kəlamdan kasat,[1]
Mədh eyləyər üzü qaralar səni.[2]
Əhli mərfət diyarından kənar ol,
Novhəkər novhəylə qaralar səni.[3]

Aç barxanan, çək meydana birüzə,[4]
Şeş cəhətə hikmət söylə bir üzə.[5]
Zərbi fəzlim haşa verəm birüzə,[6]
Məskənin dəşt olar, qar alar səni.[7]

Dolandı neçə ay bud ağa çıxdı,[8]
Nadanlar bəhərsiz budağa çıxdı.[9]
Bəhs eyləmə, Alı bu dağa çıxdı,[10]
Sən çıxa bilməzsən, qar alar səni.[11]

---

[1] Sən görünməmiş naqqalsan, kəlam səndə kəsaddır.
[2] Üzü qara olanlar.
[3] Ağıçı səni ağıyla qaralasın (yada sal: bir adamı qaralamaq), yəni səni ağlasın.
[4] Yükü tök meydana göstər, büruzə ver.
[5] Altı yana bir nəfəsə, bir dəfəyə, dayanmadan.
[6] Burada: istedadımın gücünü haşa (üzdən iraq, allah göstərməsin) birinizə versəm.
[7] Məskənin səhra olar, mağarada qalarsan.
[8] Aylar dolandı, varlıq üzə çıxdı.
[9] Ağacın budağı.
[10] Alı bu dağa çıxdı.
[11] Sən qara düşərsən, qar alar səni.

## BU DAĞI SEÇƏR

Leyli peymanından rəncidə Məcnun,
Ömrə məskən eylər – bu dağı seçər.[1]
Mürğü-ruhum cövlan etsə səmada,
Yenə Leyli qonan budağı seçər.

Cünun fəsilləri dağda dağladı,[2]
Naləsindən çəkdi dağ dad, ağladı.[3]
Yar firqəti sədrin dağda dağladı,[4]
Nabina seyr etsə bu dağı seçər.[5]

Oxu Aşıq Alı, həm çal "Kərəmi",
Sal yadına sən Əslini, Kərəmi.
Üryana zimistan etməz kərəmi,
Əsər badi-sərsər bud ağı seçər.[6]

---

[1] Ömür sürmək üçün dağı seçər.
[2] İl boyu dağda qaldı, dağladı.
[3] Dağ dad çəkib ağladı.
[4] Yar həsrəti sinəsini dağladı.
[5] Kor seyr etsə bilməz bu dağı (sinə dağını) seçər.
[6] Üryana (lütə) qış rəhm etməz, sərsəri küləklər həyatda o varlığı seçər.

## AY SƏRİN-SƏRİN

Bir an görməyəndə səbrim tükənir,
Sən bizə gəlirsən ay sərin-sərin.[1]
Əqlim zaye olur, artır möhnətim,
Əzabın artırma, ay, sərin, sərin.[2]

Əfsunundan biganədir şahmara,[3]
Vurğun oldu, sığal verdi şahmara.[4]
Gəldi novruz, şəmsi döndü şahmara,[5]
Tab eylə başlasın ay sərin, sərin.[6]

Söylə, Alı yazdı saqinaməni,
Çatdır o dildara, saqi, naməni.
Alsın yar dəstinin saqinə məni,[7]
Gəşt edək dağların ay sərin, sərin.[8]

---

[1] Bizə az-az, hərdən-hərdən gəlirsən.
[2] Başımın əzabını artırma.
[3] Elə əfsun etmisən ki, şahmara (ilana) biganədir.
[4] Saçına sığal verdi.
[5] Günəş qızdı, isindi (yada sal: gün adamı ilan kimi çalır).
[6] Tab elə isti keçsin, sərin düşsün.
[7] Yar məni sağ tərəfinə alsın, çəksin.
[8] Dağların başını gəzək, seyr edək.

## SƏDAQƏTİNDƏN

Kainat üns ilə yerbəyer oldu,
Qeys oldu divanə sədaqətindən.
Fərhada yetişdi fitnə sədası,
Binəsib köç etdi səda qətindən.[1]

Həbib aləmindən gələr aş kara,[2]
Səda bilməz, demə dağlar aş kara,[3]
Pünhan sevmə, sevəndə sev aşkara,
Olsun mürğüdilə sədaqətin dən.[4]

Alı, yar peymanda qalasa, yardı,[5]
Sidqiylə odlara qalasa, yardı,[6]
Aşiq rəvan eşqi qala sayardı,[7]
Bəxşiş ola bilməz sədaqətindən.[8]

---

[1] Sədanın kəsilməsindən, səsin gəlməməsindən (yada sal – yol qət oldu, yəni bitdi).
[2] Sevgilinin aşı, plovu kara gələndi (dadlıdı).
[3] Kara anlatmaq olmaz dağlar aşsın.
[4] Sədaqətin könül quşu üçün dən olsun (ruh versin).
[5] Əhdində qalan yar yardı.
[6] Yandırıb yaxsa yardı.
[7] Aşıq diri, saf, təmiz eşqi qalası sayır.
[8] Sədəqələrdən bəxşiş ola bilməz.

## HA BELƏ-BELƏ

Yarı yardan cüda salan kafəri,
Səngi-sər eyləyəm ha belə-belə.[1]
Xənnas bədmehirdi Kühkana dağda,
Dağ çəkdi sədrinə ha belə belə.[2]

Axdı zənəxdandan tər, sana, aşıq,[3]
Aman verməz vəslə tərs ana, aşıq,
Ümman coşqun, yoxdu tərsana, aşıq,[4]
Əl çatmır o incə ha belə, belə.

Alı ilqarından ar alan maya,[5]
Amandı, fitnədən aralan, maya.[6]
Yar quca yarını, aralanmaya,
Yapışa "lam", "əlif", "ha", "be" ləb elə.[7]

---

[1] Hər yandan daş-qalaq oluna.
[2] Burda: çalın-çarpaz.
[3] Zənəxdandan axan təri sana (say).
[4] Tərsanə, liman yoxdu gəmi yan alsın.
[5] Alının ilqarına güvənən, ar alan qadın, sevgili (dişi).
[6] Sevgili fitnədən aralansın.
[7] Hərflər oxunanda dodaq-dodağa deməkdir.

## AĞLA MƏNİ SƏN

Süzgün baxışınla, şəhla gözünlə,
Möhtac etdin fəhmə, ağla məni sən.[1]
Nalə çəkdim, sən yanmadın halıma,
Köçəndə yas tutub, ağla, məni sən.[2]

Zimistanda ruzgar meyli qaradı,[3]
Bimar mənəm, yandım, çəkmə qar adı.[4]
Biilqarın müdam üzü qaradı,
Həmdəm et, bir üzü ağla məni sən.[5]

Heç sevmədim gözəllərin alını,[6]
Könlüm şəhri yar hökmüylə alını.[7]
Bir busəylə şad etmədin Alını,
Bəxşişlə beş arşın ağla məni sən.[8]

---

[1] Məni fəhmə və ağla möhtac qoymusan.
[2] Öləndə məni ağlayarsan.
[3] Qışda ruzgar qar eylər.
[4] Xəstə yanında qarın adını çəkmə.
[5] Məni bir üzü ağla (burada: ilqarı olanla, vəfalıyla) həmdəm et.
[6] Gözəllərin felini, fitnəsini sevmədim.
[7] Könül şəhərim ancaq yarın hökmüylə alına bilər.
[8] Öləndə beş arşın ağla məni bəxşişləyərsən.

## AYƏ CƏM EYLƏR

Əl çək simu-zərdən, aldanma, aqil,
Fərasətli fəzil ayə cəm eylər.[1]
Xənnas salar qiylü-qalı araya,
İl məni urumlu, ay əcəm eylər.[2]

Qəbahətdi zülmə salmaq ha ramı,
Sızıldadar qaib zərbə haramı?![3]
Gətirmə, araya lütfən, haramı,
Şərh olundu şərab ayəcə meylər.

Rahi rəvanımı qəm əli kəssə,[4]
Şərrat hökmündəki qəməli kəssə.[5]
Aşıq Alı, əlin qəməli kəssə,[6]
Min kəlam yaradar, ayə cəm eylər.

---

[1] Tez başa düşən (firasətli) bilik qazanar.
[2] Xənnas məni il urumlu (kafər), ay əcəm (müsəlman) eylər.
[3] Qiyabi, gözdən uzaq olanın zərbəsi (qeybəti) məni sızıldatmaz (ağrıtmaz).
[4] Həyat yolumu qəmin əli kəsərsə (məni həyatımdan məhrum edərsə).
[5] Fitnəkarın hökmünü icra edən qəməli (bıçaqlı) kəsdirsə (şəxsdirsə).
[6] Əlini bıçaqlı şəxs kəssə.

## “HEY” ATA-ATA

Zəbani-zikrimdi “yey”di, “dal”dı, “rey”,
Yazdım əvvəlinə “hey” ata-ata.[1]
Fəthi namümkünsə dəri Xeybərin,
Çağır, bərbad etsin hey ata-ata.[2]

Bədəsillər əzəlindən ha laldı,[3]
İşi qəmə döndü müşkül hal aldı.
Ruzi-pədər o kəslərə halaldı,
Dəmadəm zikr etsə, hey ata, ata.[4]

Alı rast olmadı, bir də o dada,[5]
Ata ləblərindən busə o dada.[6]
Dar məqamda tez yetişdi o dada,
Özünü odlara hey ata-ata.[7]

---

[1] “Hey” ata-ata – yəni qoya-qoya (“yey”, “dal” və “rey”-i birləşdirib əvvəlinə “hey” hərfi yazanda Heydər oxunar).
[2] İmam Əlinin Xeybər qalasının qapısını yerindən qoparıb atmasına işarə.
[3] Nanəciblər el içində gözükölgəlidi, laldı.
[4] Ata çörəyi o kəsə halaldı ki, həmişə atanı zikr edər.
[5] Dada, tama rast gəlmədi.
[6] O busə ata (atmaq), o dada (ləzzət ala).
[7] Özünü oda salaraq, qərq edərək.

## SƏNƏ DƏ KEÇƏR

Məkkarə kimsədə məsərrat olmaz,
Kənar ol, kəlamı sənə də keçər.[1]
Haqdan təcrid olub, asi olma sən,
Sanma bağışlana, sənə də keçər.[2]

Tənha demə əsli cahar həmdəmə,[3]
Müsəllasan çəkmə qəmə, həm dəmə.[4]
Kənar etmə lisanından həmd əmə,[5]
Məsiyət nəqş olar, sənədə keçər.[6]

Qəmnak Alı, vur, qəlbinə qəmə, yar,[7]
Müdam oldu dövranına qəm əyar.[8]
Adətkaram bu qüssəyə, qəmə, yar,
Candan ruzi şəbu sənədə keçər.[9]

---

[1] Pis adamdan uzaq ol, adəti sənə də keçər.
[2] Sənə də keçməz, bağışlamaz (yada sal: bunu mənim xətrimə keç).
[3] Məhəmməd peyğəmbərin dörd yaxın dostu və silahdaşı olan Əbubəkr, Ömər, Osman və Əli – onlara çaharyar da deyilir.
[4] İbadət yerini nə qəm yeri, nə də kef yeri sanma.
[5] Qoy həmişə dilindən şükür, dua, təşəkkür eşitsinlər.
[6] Günah yazılar sənədə (kağıza) keçər (düşər).
[7] Qəlbinə (ürəyinə) qəməylə vurub yar.
[8] Qəm sənin dövranına (həyatına) meyar (göstərici) oldu.
[9] Qəm candan gündüz-gecə müddətiylə qövr edib ilə keçər.

## BİR GÖZƏ LƏLİ[1]

Arif ziba görsə, meyl etməz ona,
Göstərmə gəl, sərraf, bir gözə ləli.
Qur nizam-tərəzi, tap isbatını,
Bir gözə gözəl qoy, bir gözə ləli.

Açmışam baharı yasəmənimlə,
Alqışla gül-çiçək, ya səmənimlə.
Öləndə gəl batma yasa, mənimlə,
Dirilləm, oxşasa, bir gözəl əli.

Qəm, dəm dolu, qoşa bu iki sini,[2]
Əzvaca gəl qazma bu iki sini,[3]
Alı gözəl bilir bu ikisini –
Bir gözəl Məhəmməd, bir gözəl Əli.

---

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.
[2] Sini, məcməyi.
[3] İki qəbri.

## AY ÜZƏ-ÜZƏ

Əl-aman eylərəm hicran əlindən,
Az qalıb canımı ay üzə-üzə.[1]
Qəhr eyləyib nə gəzirsən daldada,
Qəbahətim söylə ay üzə-üzə.[2]

Bəla gəldi, düçar oldu dal anda,[3]
Yar gəlmədi, gözüm qaldı dalanda.
Çeşmə başı xəyallara dalanda,
Sonalar keçdilər ay üzə-üzə.[4]

Nalə çəkər, Alı deyər, qəm, əri,[5]
Əzəlindən yaranmışam qəm əri.[6]
Bədirlənib on dördündə qəməri,
Dolanır səmada Ay üzə-üzə.[7]

---

[1] Hicran canımı üzür.
[2] Pərt olmusan - qəbahətimi üzümə de, qırmızı de.
[3] Bəla gələn kimi (göz yumub-açınca) bel büküldü, qocaldım.
[4] Sonalar (burda ördəklər) üzüb keçdilər.
[5] Alı istəyir ki, qəm ərisin.
[6] Mən qəmin əriyəm, daim bir yerdəyik.
[7] Qəmər, Ay səmada (göyün üzündə) üzə dolanır.

## AYƏ MƏNDƏDİ[1]

Bu gün seyraqubdan bir söz eşitdim,
O söz dostdan deyil, ayə məndədi.[2]
Dedim: nədir sədrin üstə bəslərsən?!
Dedi: tifil ikən ay əməndədi.[3]

Sevdiciyim təzə geymiş buxara,
İnsafdımı bülbül baxa bu xara?!
Gəşt eylədim Bəsrə, Bağdad, Buxara,
İndi də gəlişim a Yəmən dədi.[4]

Aşıq Alı pirdən içdi nə cami,[5]
Nə axunddu, nə molladı, nə cami...[6]
Nə Firdovsi, nə Səyyadi, nə Cami?!
Təcnis sinədəftər, ayə, məndədi.[7]

---

[1] Bəzi mənbələrdə (eyni zamanda elektron) bu təcnis həm də Ağ Aşığın adına gedir.
[2] Nişan, əlamət məndədi.
[3] Körpə ikən döş əmən.
[4] Yəmən ovlağından gəlirəm.
[5] Qədəh, kasa.
[6] Məscid, ibadət yeri.
[7] Xitab, əvvəlki şairlər məni kimi təcnis yaratmayıblar mənasında.

## YA DƏLİ DƏYSƏ

Dərdi dil olmaram, nə dili-xəstə,
Qəlbimə avara, ya dəli dəysə.
Pürməlal tənənin çarası olmaz,
Könül paralayar, ya dəli dəysə.[1]

Səslə mərəkəmə həmid əmməni,[2]
Şükür şad eylədi həmidəm məni,[3]
Tərk eylər məhəbbət, həmi dəm məni,
Naqafil, sədrinə yad əli dəysə.

Alıya can birdi, dərd ara verməz,[4]
Malı beytul açar, dərdara verməz.[5]
Yoxsa Şahi-Mərdan dər dara verməz,[6]
Saysız o Xeybərə yad Əli dəysə.

---

[1] Dəysə dələr.
[2] Tanınmış, seçilmiş bibimi.
[3] Ürək dostu, sevgili, həyat yoldaşı.
[4] Canda dərd ara vermir, dayanmır.
[5] Pay-püşk olar, qapıçıya verməz.
[6] İmam Əli qapını dardan qurtarar, darda qoymaz.

## BUD, AĞA

“Əlif” allah, “bey”di billah, “fe” fail,
Məşuqədir bu məxluğa bud, ağa,[1]
“Qaf” qadirdi, müntəzəri əzrail,
Alar canın, tab et möhnət bu dağa.[2]

Asimandı, bil tabağa-tabağa,[3]
Bir qəhrinə eyləmərsən tab, ağa.[4]
“Qey” qasimdi, ruzi paylar tabağa,[5]
Səcdə eylə xaka, baxma bu dağa.[6]

Aşıq Alı xəlqiyyətin biridi,[7]
“Xey” xaliqdi, ibtidadan bir idi.[8]
Yek hökmüylə dərk eylədi biri di,[9]
Ruzi ənasirdən çıxdı budağa.[10]

---

[1] Varlıq, həyat insana məşuqədir.
[2] Möhnətə, dağa (əzaba), tab et.
[3] Asiman, göy üzü tabağa bənzəyir.
[4] Qəhrə sən tablaşmazsan, tab etməzsən.
[5] Tabağa (qaba) ruzi bölər, paylayar.
[6] Torpağa səcdə et, dağa baxma.
[7] Alı sənətiylə xalqa məxsusdu.
[8] Tək idi.
[9] Təkin hökmüylə iki biri dərk etdi.
[10] Torpaq, su, od və havadan ruzi yarandı – budağa çıxdı.

## HEY DƏRƏ BİR

*(divani-təcnis)*

Yar olana yar olaram, salsa məni dara, maram,[1]
Nankora bağ nə lazımdı, meyvəsini hey dərə bir.[2]
Əhdə sadiq olmayanın, siyah zülfün daramaram,
Xof etmərəm daşqın seldən, axıb gedə hey dərə bir.[3]

Dost yolunda baş qoymasan, əsla səni aramaram,[4]
Hər bir kəsin öz təhrində, ara loğman, ara maram.[5]
Gəl yad eylə rəsulunu, həccə eylə aram-aram,[6]
Ol Kəbeyi-Beytullahda səcdə eylə hey dərə bir.[7]

Alı zalım bir nakəsə yar olsa da yara maram,
Nadan elə teyləmişdi, indi oldu yaram aram.
Qüdrətim yox, vəsf eləyəm, mən ki buna yaramaram,
Əldə seyfi qətl zalım, yaraşıqdı Heydərə bir.[8]

---

[1] Məni dara salsan ilanam (mar), çalaram.
[2] Nankoru bağa qoymayın, meyvəsini də dərməsin (hələ bir meyvə də dərsin).
[3] Qorxmaram seldən dərəylə bir olsa da (dərə dolusu).
[4] Səni axtarmaram, aramaram.
[5] Hər kəsə özünə görə rəftar edirəm, gah (ara) loğman, gah (ara) ilanam.
[6] Həccə getməyə çalış.
[7] Kəbənin qapısına səcdə etmək mənasında.
[8] Əldə qılıncla zalımları öldürmək ancaq İmam Əliyə yaraşır.

# DODAQDƏYMƏZ TƏCNİSLƏR

## AY EYLƏR QIJ-QIJ

Yağar leysan, dağda qarı əridər,
Şəlalə sədası ay eylər qıj-qıj.
Açar xəlic, xakı salar iraqa[1]
Sədası sərində ay eylər qıj-qıj.

Açırsan gözəl xan ad aşa dəyər,[2]
Yada həcər atsan adaşa dəyər,
Daşar çaylar, sellər a daşa dəyər,
Səngin sədasından ay eylər qıj-qıj.

Ərş əlada dal qeydinə dal qalar,[3]
Qaçhaqaçda hey geridə dal qalar,[4]
Aşıq Alı, şahə qalxar dalqalar,
Çalxanar, qaynayar, ay eylər qıj-qıj.

---

[1] Seldən əmələ gələn körfəz torpağı tutar, görünməz edər.
[2] Gözəl süfrə açmısan, aş adına layiqdi.
[3] Göyün ən yüksək qatında qartal qeydinə qartal qalar.
[4] Qaçanda qoca, beli əyilmiş dalda qalar.

## ARANI TEZ-TEZ

Gəldi yaz ayları, yaylaq çağıdı,
Ellər tərk eyləyir aranı tez-tez.[1]
Aralansa sərin hax dərgahından,
Sədaqət qısaldar aranı tez-tez.[2]

Gərdişə nəs anı sayalar, keçər,[3]
Yardan yara alsan, sayalar, keçər.[4]
Gələr allı-şallı, sayalar keçər,[5]
Aşiq qeyrət çəkər, ar anı tez-tez.[6]

Neçə ayə gəldi, yazıda yandı,
Qışı atəşlənən yazı da yandı.
Alı yay ağladı, yazı dayandı,
İndi yad eləyir Aranı tez-tez.

---

[1] Aranı tərk etmək (aradan çıxmaq).
[2] Sədaqət aranı yaxın edər.
[3] Saymaq.
[4] Sağalmaq, sayalanmaq.
[5] Allı-güllü və saya geyinmiş xanımlar.
[6] Aşiq tez-tez namus, ar anır.

## AYALI KEÇDİ

Yad edəndə yad ellərdə diyarı,
Aşığın eynindən ayalı keçdi.[1]
Sərdə yaraşıqdı ata Ağ Aşıq,
Dərsini sənədli, ayalı keçdi.[2]

Çətin ki, daralar yaşada səni,
Asi eylər haqqa, ya Şada səni.[3]
İslansan, salarlar yaşa da səni,
Cəhd eylə çat elə, a yalı keç di.[4]

Ərşdən çən çəkildi, ayazı qaldı,
Əqil zaya getdi, ay azı qaldı.
Sənətdən yadigar a yazı qaldı,
Gərdişi ah-zarla ay Alı keçdi.

---

[1] Əhli-əyalı, ailəsi.
[2] Sənəd-sübutlu dərs keçdi, Quranı da tədris etdi.
[3] Əsatirə görə, Yəməndə yaşamış zalım hökmdara (Şəddad) işarə edilir.
[4] Yalı (diki) aş, keç.

## HA QALA, QALA

Yarı yad eylə sən, a nazlı canan,
Eynindən iraqda ha qala, qala.[1]
Leyli-nahar həsrətindən nalandı,
Çəkirsən sərini ha qala, qala.[2]

Naqis rast gələndə qala, sarsıyar,[3]
Yar həsrəti canda qala sarsıyar.[4]
Eşqin atəşindən qala sarsıyar,[5]
Eşqə nə çəkirsən ha qala-qala.[6]

Səxalısan, az Alını yan ara,[7]
Kəc arasan at dəryaya, ya nara.[8]
Yanar neylər əzəlindən yanara,
Atəşi atəşə ha qala-qala.[9]

---

[1] Gözündən uzaqda qala.
[2] Davaya çəkmək.
[3] Naqis davaya (qalmaqala) tuş gəlsə, sarsılar.
[4] Yar həsrəti canda qaldıqca sarsılar.
[5] Eşq atəşi qalanı da sarsıdar.
[6] Sevənə qala hörməyin, divar çəkməyin xeyri yoxdu.
[7] Alını az yanıb ara.
[8] Ya dəryaya at, ya oda.
[9] Biri ki, yanar, başqa yanardan qorxusu yoxdu, atəş atəşə nə edəcək.

## DALDALA, KEÇSİN

Şəhla eynin, siyah qaşın can alır,
Gələndə nakəslər daldala, keçsin.[1]
Çəkər həsrətini, el cana gələr,
Nə gərək qal etsin, dal dala keçsin.[2]

Hərdən, ey nazənin ara, dan yarı,[3]
Ara aşkar de sən, ara dan yarı.[4]
Alarsa, haqq alsın aradan yarı,
El gəlsin yasına dal-dala keçsin.[5]

Ərz eylədin sən Alıya, yan, ağa,[6]
Aşiq yanar, nədən keçsin yan, ağa.[7]
Həssas eyni aşiqsə al yanağa,
Canan qarşı gəlsin, dal dala keçsin.[8]

---

[1] Üzünü ört, gizlət keçsin.
[2] Dalaşanda qartal qartala.
[3] Yarı dan üzü ara, gəz.
[4] Gah yarı aşkar de, gah da dan, denən tanımıram.
[5] Sırayla, bir-birinin ardınca keçsin.
[6] Alıya yanmaq.
[7] Sevən aşiq niyə yandan keçsin.
[8] Canan üstümə (tuş) gəlsin, qoca dala (burda - daldaya) keçsin.

## YARALAR YARI

Tiri xədəng nə atırsan dal-dala,[1]
Əl saxla, can alan, yaralar yarı.[2]
Naşı yar dəyəndə yar yarasına,
İncidər, sızladar yaralar yarı.[3]

Hədyan ərz eylədi dil, dara yıxdı,[4]
Haqsız tənə dəydi dildara, yıxdı.[5]
Əhdi ilqarına dildar ayıxdı,[6]
İstər riza, şaqqa yaralar yarı.[7]

Əqlin, Alı, gərdişindən nə kəsə?![8]
Cəhd eylərsən, rast gələrsən nakəsə.[9]
Çəkir xəncər, nə yayına, nə kəsə,[10]
Cəlladın əlindən yar alar yarı.[11]

---

[1] Oxu dalbadal atırsan.
[2] Yarı yaralayarsan.
[3] Yaraları yarı incidər.
[4] Hədyan deyən dil ev yıxar.
[5] Haqsız tənə sevgilini yıxdı.
[6] Sevgili həmişə əhdə sadiqdir.
[7] Yarı şaqqalasalar da, yarsalar da əhdindən dönməz.
[8] Gərdişdən (zəmanədən) ağlın nə kəsir.
[9] Həmişə alçağa tuş gəlirsən.
[10] Əldə xəncər nə yayındırır, nə də kəsir (burada: qıjanır).
[11] Yarı yar qurtarar, xilas edər.

# DODAQDƏYMƏZ
# CIĞALI TƏCNİSLƏR

## YARA YAR

Qəddah qəhr eyləsə, dərdi sər artar,
Sədasından həsrət qalar yara yar.[1]
Aşiq, sənsən yara yar,[2]
Dərd səddini yar, a yar.[3]
Tənha qalan haraylar,
Dada yetiş, yar, a yar.
Hədyan ərz eyləsə nadan lisanı,
Sadiq qalar sənə aqil yar, a yar.

Dərdkeşin qayəsi dərdə sarıdı,[4]
Əyirdi dərdləri dərdə sarıdı.
Aşiq, dərdə sarıdı,
Dərd əsiri sarıdı.
Qəsrin şaha layiqdi,
Nədən rəngi sarıdı?!
Canansız xanələr dərd əsarıdı,[5]
Əhli-hallar yar dərdinə yarayar.

---

[1] Yar yardan ayrı düşər, həsrət qalar.
[2] Sən aşiqin, yarın yarısan.
[3] Dərd səddini yarmaq, dağıtmaq.
[4] Dərd çəkən dərdə meyllidi.
[5] Canansız xanələr dərd bazarıdı.

Qəhrin sədasına tərsalar ağlar,[1]
Can naçar qalanda, tər salar ağlar.[2]
Aşiq, tərsalar, ağlar,
Yaylıq tər salar, ağlar.
Haqqına ar alana,
Desən, tərs alar, ağlar.
Alı yaddan çara tərs alar, ağlar,[3]
Yar yaranda, sayalanar yara, yar.[4]

---

[1] Qəzəb, hirs olan yerdə xaçpərəst də ağlayar.
[2] Xəstənin canı tərlə ağlayar.
[3] Yaddan çarə qorxu gətirər, qorxuludu.
[4] Yar yaranı yarsa sağalar, sayalanar.

## NƏ YAXŞI YARA

Dəsti canan sayalıdı əzəldən,
Yaranda yaranı nə yaxşı yara.[1]
Aşiq, nə yaxşı yara,
Dedi nə yaxşı yara?!
Yarının qal qeydinə,
İşinə yaxşı yara.
Talesizin rast gələni hardadı,
Nə yaxşı canana, nə yaxşı yara?!

Yar eytacı, ay nazənin, yaradı,
Can eytacı canda dəhşət yaradı.
Aşiqsənsə, yaradı,
Yarın dərdə yaradı,
Xaliq anın içində
Neçə xilqət yaradı?!
Sızlar yara ərz edəndə yar adı,
Yar, dəydi sinədə nə yaxşı yara.[2]

---

[1] Cananın əl işi (əli) sayalıdı (düşərlidi) – yaranı yaxşı yarır.
[2] Sinədə yara dəydi, yetişdi.

Yad nəzər eyləyər yara daldadan,[1]
Naqis xəncər atar yara daldadan.[2]
Aşiq, yara daldadan,
Uyar yara dal dadan.
Dayan dəhan-dəhana,
Söylə yara dal dad an.[3]
İstəyirsən şərrat yara daldadan,
Alı, erkən yetdi nə yaxşı yara.[4]

[1] Yad gizlindən, pünhan yerdən yara nəzər edər.
[2] Naqis arxadan xəncər atıb yarar.
[3] Yarla dodaq-dodağa dur, denən, ləzzət ansın (dadsın).
[4] Alı yarına vaxtında yetişdi, qovuşdu.

## YARASA, SƏNİ

Yaxşı aşiq, çalış yaxşı yara yet,
Sağaldar cəsədin yarasa, səni.[1]
Aşiq, yar asa səni,
Saysa yar asa səni,
Kaş nazənin xanəndə,
Sana yarasa səni.
Lisanı şirinsə, gərdişi şirin,
Yaxşıdı şəstindən yar asa səni.[2]

Ərşdən gərdəninə qəddara salsa,[3]
Qəhrə qərq eyləsə, qəd dara salsa.[4]
Aşiqsən, dara salsa,
Yar səni dara salsa,[5]
Dərdə salsa, yar salsın,
Nəs gələr dara salsa.
Haqq işin alyanaq qəddara salsa,[6]
Qailsən sər yana, yar asa səni.

---

[1] Cəsədin yarasa (yara olsa) sağalarsan.
[2] Dili, seyri (baxması) şirindisə saçından assa da səni xoş olar.
[3] Qoynuna qılınc salsa.
[4] Məcbur, zorla səni dara (çətinə) salsa.
[5] Evə salsa.
[6] Allah işini alyanaqlı vəfasız, əhdini pozan qadına salsa.

Yar desə sən aya, aya sən yarı,[1]
Cananlar içində aya sən yarı.[2]
Aşiqsənsə, san yarı,
Əsil aqil san yarı,
Sinnin çatdı əlliyə,
Gərdişindi, san yarı.
Alı, al dəstinə ay asan yarı,
Şad eylər dərdinə yarasa, səni.[3]

---

[1] Sən aya yarı (yarıtmaq).
[2] Cananlar içində aya yarı olan sənsən.
[3] Dərdinə yarasa səni şad eylər.

# DİVANİLƏR

## DİLİMİZ[1]

Nisgillinin ürəyindən apardı dərdi dilimiz,
Naümidin, naəlacın dərmanın verdi dilimiz.
Bir sözü yüz mənalıdır, gör necə sirdi dilimiz,
Mətahını ucuz satma, incidi, dürdü dilimiz.

Məclis qurdum oba-oba, donluq verib, donladılar,
Dolandım Bəsrə-Bağdadı, salam verdim, anladılar.
Gəzdim İranı, Turanı, "qardaş" – deyib, yanladılar,
Osmanlıda "Türki" dedim, gördülər birdi dilimiz.

Bənzədibdi Aşıq Alı ləfzidə bülbülə onu,
Oxuyuban avaz ilə, tanıdar hər elə onu,
Toxunan olsa bəndinə, qərq eyləyər selə onu,
Daşanda görmə üzünü, Arazdı, Kürdü, dilimiz.

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

## YÜKÜM[1]

Atəş sallam cəsədinə, sən də nara yanarsan,
Mən ki, Loğman şagirdiyəm, əmri-mahaldı yüküm.
Xam xəyala dalmaginən, sonda peşman olarsan,
Mən açaram dəhanımı, hüsnü-camaldı, yüküm.

Bir dənə ləldən ötəri dəryalara dalmışam,
Seçilmiş ləli-gövhəri sandıqlara salmışam.
Mətahım dürr mətahıdı, bu diyara gəlmişəm,
Yaqut nədi, yəmən nədi, elmi-kamaldı yüküm.

Ustadlıq çox çətindi bax, taki birə varınca,
Baş qoyum astanasına, taki pirə varınca,
Aşıq Alı çox süründü xaki-pirə[2] varınca,
Zər nədi, ziba nədi ki, fikri-amaldı yüküm.

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.
[2] qəbr evi, torpaq.

## BAX

Gəl, ey könül, qafil olma əliyül-İmrana bax,
Məhəmməd şəninə gələn ayeyi-Qurana bax.
İsmayıl ki, o gün getdi, Minada qurban olmağa,
Cəbrayıl bir qoç gətirdi sürməli qurbana bax.

Adəm ki yedi buğdanı, bir görün nə etdilər,
Ol xudadan əmr olundu Sərəndibə[1] atdılar.
Adəm ilə Həvva ana bir-birinə çatdılar,
Həvva neçə oğlan doğdu, gərdişi-dövrana bax.

Gəl, biçarə Aşıq Alı, haqq birdi, mövlanı tanı,
Habil vurdu, Qabil öldü, eylədi nahaq qanı.
Haqq-təladan əmr olundu su götürdü dünyanı,
Ol gəmiyə nicat verən qadiri-sübhana bax.

[1] Seylon adası.

## İŞİN NƏDİ

Havalanma, dəli könül, zorunan işin nədi?!
Həllac Mənsurtək Hələbdə darınan işin nədi?!
Tut orucun, qıl namazın, şükr elə Allahına,
Yoxsulsan alçaqdan yeri, varınan işin nədi?!

Mənəm deyən başa varmaz, mənəm demə, gerdə dur,
Əl ki gördün qan içində, çək ətəyin gerdə dur,
Həqiqət, mərifət haqdır, təriqətdə gerdə dur,
Kəc baxma ustad yoluna, pirinən işin nədi?!

Gəl, biçarə Aşıq Alı, qafil olma dilindən,
Şükr eylə iqbalına, cüda düşmə elindən,
Əl uzatma hər deşiyə, şahmar vurar əlindən,
Sən ki ovsunçu deyilsən, marınan işin nədi?!

## DANIŞ

*(mürəbbe divani)*

Yaranannan bu dünyada, nə bacarsan az danış,
Meyl eyləmə əyriliyə həmişəlik düz danış.
Dalda qalma, bir adam ol sayılanda az danış,
Alimlərə meydan oxu, dərdə dərman yüz danış.

Ataların misalıdı – bu dünyadı beş günlük,
Qapılarda yetim qalır, yaman dərddi – düşkünlük.
Elə ki, ölüb gedəndə yas tutarlar üç günlük
Paya düşən bu dünyada beş arşındı bez – danış.

Çox düşünmə, Aşıq Alı, qohum olub yad kimi,
Əmi, dayı, qardaş, bacı can yandıran od kimi,
Hamı başa qaxınc olub, bir quruca ot kimi,
Nə olsun ki, ay biçarə, istəyirsən yüz danış.

## SƏNƏM

*(duvaqqapma mürəbbe)*

Cümə günü ürcah olduq, məhparələr xanı Sənəm,
Baxıram ay camalına, səntək gözəl hanı, Sənəm?!
Həsrətindən divanəyəm, aşiqini tanı, Sənəm,
Gözlərimnən axıdıram ab ilə leysanı, Sənəm.

Mən heyranam ol Xudaya, sənin kimi can yaradıb,
O qəddinə, qamətinə aləmi heyran yaradıb,
Qan-qan deyən kirpiklərin eldə həyəcan yaradıb,
İrəhm elə mən yazığa, sənsən kərəm-kanı, Sənəm.

Qaşların kaman kimidi, nə durubsan qannı kimi?!
Saçların düşüb dizə, behiştin qılmanı kimi,
Gözlərinə baxmaq olmur, sübh-sabahın danı kimi,
Bir bəri bax, sən olasan qardaşının canı, Sənəm.

Əlim çatmır, ünüm yetmir, heç bilmirəm mən nə edim,
Haray çəkdim, harayıma yetən yoxdu, hara gedim?!
Öz-özümə çox düşündüm, getdim çox insana dedim,
Camalın gün şavaqlıdı,[1] yurdun nur saçanı Sənəm.

Çox sağ ol ki, rəhmin gəldi, ülfət qıldın can deyirəm,
Sən Alıya məhəl qoydun, eşitsin hər yan deyirəm:
Nişanlısan öz yarına, öz qəlbimi "yan" deyirəm,
Qız, sən mənə bacı oldun, ömrüm-günüm sanı, Sənəm.

---

[1] Şəfəqlidi.

## GƏLƏCƏK

*(duvaqqapma mürəbbe)*

Qalu-bəla[1] ki, qurulub, həqiqət dövran gələcək,
Mən deyirəm yəqin bilin, qiyamət divan gələcək,
Çalışgınan savab qazan, savabsıza yan gələcək,
Samu-salatınnan bezən, qətreyi-qazan gələcək.

Anadan olduğun günü, bilginən ki, qəzan vardır,
Nə iş tutsan bu dünyada, xeyir-şəri yazan vardır,
Sağır-fağır incitməsən yaxşı əməl düzən vardır,
Torpaq altda ləl içində Nəkreyilə[2] can gələcək.

İnsi-cinsi ol yaratmış çəkəcəkdi qəhri-qəza,
Onun tutduğu əmələ verəcəkdi əhli cəza.
Çalışgınan yetim doydur, pis əmələ uyma əsla,
Uruhlar da cəm olacaq, qıl körpüyə can gələcək.

Tam uruhlar ərəfəyə tamam orda cəm olacaq,
Nameyi-əməl əllərdə sorğu-sual qurulacaq.
Yaxşı əməl ol cənnətə, pis əməlli tam yanacaq,
Ərəsət məhşər olacaq, Sahibəzzaman[3] gələcək.

Cəm olarlar ərəsətə[4] Məhəmməd Mustafa gəli,
Aşıq Alı, sənin ağan Əliyi Mürtəza gəli,
Fatimeyi Zəhra ilə Həsəni Müştəba gəli,
Zülm ərşə dayananda, Şafeyə Hüseyxan gələcək.

---

[1] Yaranışın ilkində ələst aləmində Tanrı bütün insanlardan onlara Tanrı olduğunun təsdiqini aldığına işarədir.

[2] Nəkir (ə.) – qəbirdə ölüləri dindirən iki mələkdən birinin adı (o birinin adı Münkirdir).

[3] Sahibəzzaman (ə.) – şiələrin on ikinci imamı Mehdinin adlarından biri.

[4] Meydan, sahə, qiyamətdə dirilən ölülərin toplanacağı meydan.

## VERİR[1]

*(divani-ustadnamə)*

Bir mərdə qonaq gedəndə, gülə-gülə nan verir,
Namərd bir mehman görəndə, görərsən ki, yan verir.
Hanı Hatəm kimi Hatəm, süfrə sala, ad ala,
Hanı Loğman kimi Loğman, xəstələrə can verir.

Bir adamdan Allah alsa, gündüz ona gecədi,
Bir adama qarğış keçsə, çalışdığı becədi,[2]
Bir adama alqış keçsə, onun haqqı ucadı,
Bir adama Allah versə, görərsən hər yan verir.

Davud kimi nəbi hanı, qəmləri dəm eliyə,
Həmzə kimi igid hanı, rəqibi rəm eliyə?!
Süleymantək Süleyman yox, aləmi cəm eliyə,
Kişi olan el yolunda canını qurban verir.

Qocalıbsan, Aşıq Alı, sığın haqqın adına,
Gecə-gündüz zikir eylə, beş vaxtı sal yadına,
Uzaqdan çağırarsan, yaxından yetər dadına,
Zəlillərin mətləbini, ol Şahi-Mərdan verir.

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.
[2] Mənasız, boş yerə.

## NƏDİ

Bar-ilahim,[1] divan budu, yetişə dada, nədi?!
Müxənnət haqqı unudub, heç salmaz yada nədi?!
Girmə, nadan məclisinə qədir bilən olmasa,
Hərcayı hədyan danışar bəy nədi, gəda nədi?!

Zatı-pakı halal olan çaşqın olmaz xanadan,
Mətləbini tez yetirər yeri-göyü yaradan.
Tərk edibdi sovmu-salat[2] əlin çəkər üqbadan,
Titrəyər pülü-siratdan heç tapmaz cüda nədi?!

Aşıq Alı, məntiyyətdir,[3] dostdan dosta al olmaz,
Həqiqətdən dərs almayan şəriətdən hal olmaz,
Şəriətdən kamil olan yetkin olar, kal olmaz
Gəşt eyləyər dəryalarda çay nədi, ada nədi?!

---

[1] Xitab: Ay Allah, ilahi, ey Tanrı.
[2] Sovmu-səlat – namaz və oruc (sözlükdə sovm və səlat sözünə bax).
[3] Saxtakarlıq, mənafe.

## YALVARIRAM

Sidqinən sığınmışam sübhana yalvarıram,
Məhəmmədə tabe olub Qurana yalvarıram.
Məzhəbimdi Cəfər Sadiq, qibləmdi Kəbəm mənim,
İlqarımda çox möhkəməm, imana yalvarıram.

Atdı şəhadət barmağın zəbun etdi Xeybəri,
Çəkəndə "Allahu-Əkbər!"i qırdı yüz min ləşkəri,
Alimlərin ümidgahı, möminlərin sərvəri,
Şahi-Mərdan, Şiri Yəzdan mən ona yalvarıram.

Dar günümdü dada yetiş, ədalət şahım mənim,
Ey böyük ümidgahım, sənsən pənahım mənim,
İsmimdi Aşıq Alı, çoxdur günahım mənim,
Günahkarı sən aparma divana, yalvarıram.

## QIRMIZI

Şahi-Mərdan bayram günü geyindi don qırmızı,
İsmayıla gəldi qurban töküldü qan qırmızı.
Oxudu «İsmi-əzəm»i bağladı zülfüqarı,
Çaldı qılıncı Əntərə, oldu meydan qırmızı.

Buyurun mirzələrə, belə yazsın yazını:
Aşıq gərək püxtə olsun, xam bilməsin özünü.
Öz-özünə fikr eyləsin, xub danışsın sözünü,
Girsin eşqin kürəsində bişsin büryan qırmızı.

Alı deyər: viranədir, uçub bu könlüm pərgarı,
Ustada qulluq etməyən kim olar xiridarı?!
Mənnən bəhsə duran aşıq gəlsin dursun üz barı,
Sərraf mənəm, istəyirəm ləli-mərcan qırmızı.

## BİZDƏDİ

Şükür olsun ol xudaya adil divan bizdədi,
Dini-məssəb, yolu-ərkan, ilqar, iman bizdədi.
Neyliyirəm o məzhəbi yolundan xarici ola,
Məhəmmədə nazil olan ayeyi-Quran bizdədi.

“İncil” İsaya gəlibdi, “Tövrat” Musaya, ey dil,
“Zəbur” Davud peyğəmbərə, sən gəl onu yəqin bil.
Dörd çeşmədən nonqar[1] axar həqiqətdə, durar göl,
Girməynən ki, qərq olarsan, dərya, ümman bizdədi.

Göylərdən dörd kəlam endi, Məhəmmədə – “Quran”dı,
İnşallah ki, möminləri o dardan qurtarandı.
Gəl, qəm çəkmə, Aşıq Alı, ağan Şahi-Mərdandı
Pənci-ali, on iki imam Sahibzaman, bizdədi.

---

[1] Bir kitabda “ponqar”, başqa birində “nonqar” kimi gedən sözün dəqiq mənasını tapa bilmədik, amma, dörd səmavi kitaba (“Tövrat”, “Zəbur”, “İncil”, “Quran”) işarə edildiyi mətndən anlaşılır, yəni dörd kitabın hər biri həqiqət bulağıdır (suyu).

## İSTƏRƏM[1]

Mənim könlüm qüssəlidi, zülməti dan istərəm,
Nə malı-mülk, nə var-dövlət, nə şöhrət-şan istərəm.
Nə müddətdi, xəstə düşdüm, təbib gəlməz yanıma,
Şahlar şahı, irəhm eylə, dərdə dərman istərəm.

Çoxlarına bel bağladım, dedim; “mənə yar olar”,
Çox çəkmişəm, çox görmüşəm sinəm üstə yaralar,
Öz xalqına qəbir qazan, xain, qəlbi qaralar –
Fələk gərək qələm çala cismin büryan istərəm.

Aşıq Alı, ol Xudadı cansızlara can verən,
Öz yolunu bilməyənə məhşərdə fərman verən.
Mətləbini hasil edib, oğlunu qurban verən,
Bar-ilahim, mətləbimi mən də hər an istərəm.

---

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

## QOCALIQ

Axtarıb tapdı aşığı bilmirəm hardan qocalıq,
Ağlımı aldı başımdan, huşumu sərdən qocalıq.
İşimi əskik eylədi, lap yerbəyerdən qocalıq,
Müxtəsəri qoydu məni, xeyirdən-şərdən qocalıq.

Dən ki düşdü saqqalıma, əzəl xəbərdar eylədi,
Hər iki yan qırovladı, ölkələrə car eylədi,
Arvad tənə edib, məni canımdan bezar eylədi,
Axırda da ayrı saldı yarı yavərdən qocalıq.

İstəyirəm duram gedəm qaranlıq çökür gözümə,
Keçən günlər yada düşür, əlimi vurram dizimə.
Oğul-uşaq qulp eləyir, daha baxan yox sözümə,
Üzümü soyuq elədi borandan, qardan qocalıq.

Fələk məni oda saldı, sinəm altda köz elədi.
Bir quruca yerişimi ağızlarda söz elədi.
Ölüm yoxdu, keçib ondan, doxsan idim, yüz elədi.
Vurnuxuram yüzü keçəm, salır oxardan qocalıq.

Söyləyir ki, Aşıq Alı, mən neyləyim qocalığa,
Deyirlər sərgini gözlə, quşu qoyma yarmalığa,
Hər kəs gördü götürmədi döndüm köhnə yamalığa,[1]
Saldı təpərdən dizimi, gözümü nurdan qocalıq.

---

[1] Əskidən (parçadan) paltarın cırılan yerinə yamaq vurmaq.

## BİRDİ, BİR

Ərşdə xaliq, yerdə züllah, evdə ata birdi, bir,
Bəzək vuran, qurğu quran kainata birdi, bir.
Bu günahı keçməz xaliq, haqq səni bağışlamaz,
Ya öldürdün, ya öldürtdün – bu cür xəta birdi, bir.

Qüdrət qamət bəxş etmişdi, fələk vurdu belimdən,
Leyli-nahar car eylərəm nəsihətlər dilimdən.
Tənəli söz bəd yaranıb qərəzlidir ölümdən,
Həbib səni gözdən sala, ya da ata, birdi, bir.

Alı, səni duymaz nadan, sərraf salar yadına,
Zatı-pakdan halal olan tez yetər muradına.
Əzrail gürzün çalanda kimsə yetməz dadına,
Ya bəhri-bar badə verə, ya baxt yata, birdi, bir.

## İKİDİR

Əbcəd ilə “a” oxudum, ol Allahı bir bildim,
Yaradandan qeyri nə var, bu həyatda ikidir.
İki “sə”ni bir oxudum,[1] o billahi bir bildim,
O billahın hikmətində süd də, zat da ikidir.

Bədənində düzülübdür əzaların iki şər,
Ölüm-dirim ikilidir, ikiləşər xeyir-şər.
Səbir cütsə, səbir eylə, o cütlükdə yoxdu şər
Usta birdir, nə yaradıb, hesabatda ikidir.

Cüt ünsürlər iki yerdən, iki göydən birləşər,
Abı, atəş, xaki, baddan ruzi tapıb bu bəşər,
Dərin fəza boş deyildir, ordan yerə nur düşər,
Alı, cütlük o məqamda, hər bir qatda ikidir.

[1] Bismillahdan bəhs edilir.

## ÜÇƏDİR

Bəni insan xəlq olandan hesabatı üçədir,
Kəlmeyi-şəhadət dünyasının ilk beyəti üçədir.
Dövran ki, açdı sirrini, külli-aləm yarandı
Zat, süd, övlad gərdişinin davaməti üçədir.

"Cim", "bey", "əlif" bazarında sövdəgardı kafi-cim,
"Kaf"i, "bey"i əl-ayağı, "vav"ı əlsiz ərrəccim.
"Kaf"i "cim"də bir "əlif" var, nəqş olunub çox nəcim,
Üç sətirə dayaq durub kəraməti üçədir.

Nuh övladı xidmətində vurar başa-ayağa,
Gah dayağı olar başa, gah ayaqdır dayağa.
Bu bazarda xidmətini bacarırsan say, ağa,
İki yolla dövran eylər hər sifəti üçədir.

Yek yaradan, du yaranan gözəllikdə gözəldi,
Cəmi üçə dəlalətdi, üçlə aləm düzəldi,
Aşıq Alı mürəxxəsdi, bu dünyadan üz əl di!
İki dayaq bəs eyləməz tələbatı üçədir.

## DÖRDDÜR, DÖRD

Ay səf çəkər il içində həftə karı dörddür, dörd,
Bahar fəsli "yek" sel eylər iftixarı dörddür, dörd.
Həccdir, Kəbə, Nəcəf, Məşhəd – səcdəgahlar diyarı
Uçar qonar mürği-ruhum pir diyarı dörddür, dörd.

Çahargahnan[1] qərar tutdu, əşya yerdə dayandı,
Sənət sərmayə hökmündə sayaları bəyandı.
Səməndərin cismi-canı odda söndü, nə yandı,
İstər uçan, istər qaçan balü-pəri dörddür, dörd.

Şəmsi xilqət şərəflidir, ululardan uludu,
Kərəm eylər nanu-nəmək bəhrəlidir, doludu.
Gərdişimə novraq verən səltənətin yoludu,
Bəyan edir cəhətləri, ünvanları dörddür, dörd.

Neçə çeşmə qərar tutdu müdam nəhrin içində,
Neçə nəhr ümman oldu saysız qəhrin içində,
Neçə ümman dərya oldu, min bir sehrin içində,
Dəryaların pür dəryası, nəhəng varı dörddür, dörd.

Hey oxudum, hey aradım, axır qaldım bisavad,
Fəzli elə bir həmdəmdi, kimsənəyə deyil yad,
Aşıq Alı, zikr eyləyər, abı, ataş, xaki, bad,
Aşkar etdim dövranımın səbəbkarı dörddür, dörd.

---

[1] Arabanın dörd təkəri, kətilin, mizin dörd ayağı və s.

## BEŞDİ

Vücudi adəm üstündə, fəhm et, bu dağa beşdi,
Dörd balü-pər kənarında seyr et, yarağa beşdi.
Duyan, görən, bilən əhli əsasıdır vücudun,
Üçü aşkar, iki pünhan bais marağa beşdi.[1]

Şərafət nazil olanda haşimin övladına,
Yüz on dörd surə bəxş oldu ol Xudadan adına.
Sidqinən iltimas eylə, yetər mömin dadına,
Hökmü aşkar, özü baqi, əsl mərd ağa beşdi.

Kənar etməz bəni-insan candan dərdi, nə qəmi,
Mövt əyyamı təqdir etdi, yox tədbirin nə cəmi.
Bətni ana, tifil növrəst, əri piran aləmi,
Cəm eyləsən birər-birər, yazsan varağa beşdi.

Alı, çağır imdadına o şahların şahını,
Müqəddəs xak kənar etməz ərşi-əla ahını.
Bəşər üçün kəlam yazdı həqiqətin gahını,
Sövt[2] – Tövrat, Zəbur, İncil, Quran sorağa beşdi.

---

[1] Görmə, dadma, toxunma, eşitmə, iybilmə.
[2] 1. səs, səda; 2. səhifə, kitab – burda səmavi kitablar.

## ALTIDI

Çərxi-pirə salam edən səyyarələr altıdı,
Adınaya cəhd edən ruz şumarələr altıdı.
Əfsəl, Mürsəl – gəldi-getdi neçə rəsul dünyadan
Ünvanları bərr-həqq qalan sitarələr altıdı.

Altı dəsgah oxuyanlar az qaldılar lal ola,
Zənbur bu san şan hörəndə bəhrə verir bal ola,
Sanki bu san dühasıyla uya dalbadal ola,
Bətni zəmin hesabıyla ağ-qaralar altıdı.

Altı-altı məskən saldı qüdrət aləm quranda,
Bu san ilə hesab aldı sərdabələr duranda.
Cümlə-aləm abad olar haqqın gürzü vuranda
Dağ Yunisdən kənar qaçan biçaralar altıdı.

Saya-saya san itirdim, Alı, son qoy hesaba,
Hesabını çəkməyənə kimsə deməz “mərhaba”,
Surəti yox mayelərin doldur cəm et bir qaba, –
Dördü xakda, cütü canda, kübarələr altıdı.

## YEDDİDİ

Xaki-zəbun ünvanında cəm turabı yeddidi,
Səri kuydə çeşmə birdi, xalis abı yeddidi.
On ikidi abdal sayı, əlli iki əzası,[1]
Hər əzanın qüdrətindən şabı-tabı yeddidi.

İxtisar eyləmə ayət iki qismin kəc deyə,
Yetiş elin harayına yubanma ərac deyə,
Fərbah deyə kaf eyləsən, düşsən haqqa səcdəyə,
Əzalardan xaka dəyən can hesabı yeddidi.[2]

Sər hesaba, qəlb hökmüylə cismin alar bəhrəsin,
Əlvan eylər vücudları açar rəmzin çöhrəsin.
Kimsə görməz əzaların bir nöqtəsin, bir nəsin,
Xuni cövlan edər canda, bil girdabı yeddidi.

Nəzər eylə asimana bağlı qalıbdı hesab,
Aşıq Alı, çəkmə küdrət, hər əzaba eylə tab.
Seyrə çıxıb bir bağçanı, gördüm üç ayın sirab,
Səmasında cövlan edən gərdiş qabı yeddidi.

---

[1] İlin ayı və həftələri.

[2] Namazda səcdə vaxtı iki ayaq, iki diz, iki əl və başın (cəmi yeddi) torpağa dəyməsi.

## VAR

Ey dilim, gəl qafil olma, bir sirri sübhan da var,
Müşküllərə kömək olan dərdinə dərman da var,
Namərdi başa qaldıran, mərdi zəlil eyliyən,
Ol sərdən ayağa salan gərdişi-dövran da var.

Bu dünyanı viran yazır, bəs abadan hardadı?!
Bülbülün şövqi-safası ol gülüstan hardadı?!
Bu dünyaya sahib olan ol Süleyman hardadı?!
Məhşərətən bir üz deyən hakimi-loğman da var.

Aç gözünü, müşkül Alı, hardadı Şahi-Nəcəf,
Ərəbi qiblə səmtinnən gəldi bir şeyxi-ərəb,
Əyləşdi Merac yolunda Mustafa etdi xitab,
Həbiblə Meraca gedən bir əziz mehman da var.

## YUXUSUZ
*(bağlama-divani)*

Aləmi yoxdan var edən, Xuda yeydi, yuxusuz,
La-şərikdi, şəriki yox, kimsə taydı yuxusuz.
Abi-rəvan car olundu şamu-səhər biqərar,
Gecə-gündüz gərdiş edər – sudu, çaydı yuxusuz.

Xudam bir dürr xəlq elədi, dürdə iki nurudu,
Biri Məhəmməd Mustafa, biri Heydər şurudu.
Altı gündə hökm elədi, kun – dedi, dünya durdu,
İlahidən qərar buldu – gündü, aydı yuxusuz.

Gəl, biçarə Aşıq Alı, düşmə özgə xəyala,
Tut orucu, qıl namazı, qulluq eylə halala.
Özünə aşığam deyən arif ola, söz ala,
Ondan başqa üç şey də var necə şeydi, yuxusuz?!

## GÖZLƏ-GÖZLƏ, SƏN[1]

Mənəm bağça, sənsən bağban, barı gözlə-gözlə sən,
Zəhmət çəkib gül becərsən, xarı gözlə-gözlə, sən,
Şeytan olub ara vurma, arı gözlə-gözlə, sən,
Qulağında sırğa olsun, varı gözlə-gözlə, sən.

Zimistanda çıxma yola, boran olar, qar olar,
Ər igiddə namus olar, qeyrət olar, ar olar,
Yağar çalpoy, əsər boran, toplananda qar olar,
Mən bir dağam sinəm üstə, tarı gözlə-gözlə, sən.

Aşıq Alı leylü-nahar, səsləyibdi hey səni,
Cəbrayıla ustad olan, ey ərənlər sərvəri,
Xəlq olandan Adəm ata, həm də ki Nuhdan bəri,
İstərsən tərlan olasan, barı gözlə-gözlə, sən.

[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.

## BU GÜN[1]

Gözəllər, mətəl qalmışam, bir belə xublara bu gün –
Ağlımı aldı başımdan, günüm oldu qara bu gün.
Ah çəkdim, fəğan elədim, etmədi bir çara bu gün,
Cismimi büryan elədi, axır yandım nara bu gün.

Gözəlləri sana çəkdim, bu dünyada çoxdu sayı,
Keykavusdan bəri baxdım, bəhsin etdim, yoxdu tayı.
Nəfsimi oda yandırdım, Haqq-taladan alıb payı,
Qaşı-gözü düz qurulub, heyranam cəbbara bu gün.

Şəmsül-Məlik zamanından belə gözəl görməmişəm:
Tellərini sığallayıb, saçlarını hörməmişəm.
Düşdüm ərəsət düzünə, sərgərdanlıq oldu peşəm,
Zülmü-sitəm etdi mənə, neyləyim əğyara bu gün?!

Çox dolandım bu dünyanı, tutiyəsin çəkdim gözə,
Sənin tayın Reydə gördüm, mufsid olma, qoyma sözə.
Hicridə tənha qalmışam, salıbsan manqala, közə,
Ay Məleykə, imdad elə, bir busə ver, yara bu gün.

Kirpiklərin neştər kimi, qəhr edirsən yaman mənə,
Tuti-zəban, yandı canım, rəhmin gəlsin aman, mənə,
Alı deyər: yar olasan, a qaşları kaman, mənə,
Qulun ollam illərinən, məhbub ollam vara bu gün.

[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.

## GƏL

*(Aşıq İqballa deyişmədən)*

Kəndinə aşığam deyən, aşıqsan, meydana gəl,
Namərd girməz bu meydana, mərdinən mərdanə gəl.
Kəndi olan kəndisini, öyməyi layiq deyil,
Sazını götür əlinə, bu cəngi-cövlana gəl.

Ey arifa, bir salam ver, soruşub halın görüm,
Gerçəkdən haqq aşığısan, söylə kamalın görüm,
İncil, Zəbur, Tövrat, Quran, göstər kitabın görüm,
Dostum, əgər bütpərəstsən, bu nari-nirana gəl.

Aşıq Alı leylü-nahar tamam söyləyər məddi,
Həqiqət, mərifət haqdı, anla, qan təriqəti.
İsayisən, "İncil"i sev, Musayisən, "Tövrat"ı
Gər Məhəmməd ümmətisən, boyun əy "Quran"a, gəl.

## VERİR

*(bağlama-divani)*

Bu gün bir hikmət görmüşəm – aləmə iman verir,
Yediyi bir də yeyilir, hamsını tamam verir.
Özü aləmi doyurur, nalə çəkir acam mən,
Onun nə ki yeməyi var, cəmini insan verir.

Bir başı var, bir ayağı – qafası göydə durur,
Çəkilibdi kamanıya, dabanı yayda durur,
Nə vaxtı var, nə vədəsi, hesabı sayda durur,
Hər gələndən xərac alır, hesabınan san verir.

Gəl, biçarə Aşıq Alı, qoyma ola sözün kəc,
Onun bir adəti vardır, gah tox olur, gah da ac.
Özü elə hökm eləyir hər gələndən alır bac,
Doğruluğnan hesab alır, düzlüyünən nan verir.

*(cavab: dəyirman)*

Qəzəl

***

Yeri-göyü xəlq eyləyən, bu mövhu-məvraya gəl,
Haqqınan-nahaq arası düşübdü davaya, gəl.

Aman vermir dostlar bu gün, düşmüşəm qəm bəhrinə,
Şərəfyabam bu sənətdən əzəlindən çayə gəl.

Eşq belə bir bəladı, cümlə ona mübtəla,
Nə Məcnuna tənə eylə, gülmə Züleyxaya gəl.

Könül sevən gözəl olur, babalardan qalan söz,
Çatmaq üçün öz yarına, imkan ver Leylaya gəl.

Bir sevgi də bu aləmdi, hamı aşiq dünyaya,
Gündüz şəmsi ziyarət et, gecələr də ayə gəl.

Könüllə mən əl çəkmərəm, bu dünyadan agahdı,
Əzrail gürzü çalanda, bacarırsan hayə gəl.

Gözəl şaban şərəfimdi, yadımdadı pənctən,[1]
Nə şöhrət var dindədi, bel bağla, mövlaya gəl.

Pak Qurandan var savadım, dini dindən seçirəm,
İsbat üçün izah edim, neçə çətin ayə gəl.

[1] İslamda müqəddəs sayılan şəban ayı və Məhəmməd peyğəmbər ilə qızı, kürəkəni və iki nəvəsindən ibarət beş nəfər nəzərdə tutulur.

Hikmətlərdən pür savadam, hünərliyəm isbata,
Həm dərsindən kasadsansa, buyur təmənnaya gəl.

Xuda sənin qəlbindədi, cüda salma özündən,
Bir anın da olmaz onsuz, səbəb et xudaya gəl.

Alı, ümid xudadadır, gen gündə sal yadına,
Hey çağırram min bir adı, sal üstümə sayə gəl.

# QIFILBƏND VƏ BAĞLAMALAR

## GƏLİBDİ[1]

*(bağlama)*

Məndən salam olsun arif olana,
Bizdən əvvəl hansı canlar gəlibdi?
Kim nə dedi, kim nə gətdi, payladı?
Nəfəsi yox din-imanlar gəlibdi.

O kim idi, nədən hasar eylədi?
O kim idi, ona nisar eylədi?
O kim idi, həqiqəti söylədi?
Onu bilən o qılmanlar gəlibdi.

Yüz otuz başı var, haxdan gəlibdi,
Yüz on dörd yaşı var, arif bilibdi.
Aşıq Alı bu hesabı bölübdü,
Bundan əvvəl nə fərmanlar gəlibdi?!

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən.

## QIFILBƏND[1]

Bizdən salam olsun arif olana,
Haqdan kimə üç şey yetişdi barat?
Kimlər idi gəldi onun yanına
İkisi şad oldu, birisi qarat?

O kim idi hardan-hara atdılar?
O nə idi – nədən nəyə qatdılar?
O kim idi əhdi-nikah etdilər?
Hansı xoşbəxt oldu, hansı xəcalət?

O necə gözəldi, on dörd bənnalı?
Səksən min bədəni, doxsan xəyalı?
Kimiylə danışır o, xoş mənalı,
Kiminə eyləyir o xoş iltifat?

Yüz on dörd nədi ki, gəlir bəyana?
Təp-təzə olmasa, çıxmaz bir yana.
Səcdə qılsan, şükr eləsən Sübhana
Tapar nicatını həlli-müşkülat.

Aşıq Alı deməz əfsanə sözü,
Haqq nədən yaratdı qızıl öküzü?
Neçə min ayağı, neçə min gözü?
Neçə min tükü var gətir bir xəyyat.

[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.

## NƏDƏN[1]

Bir məclisdə beş sərdar var,
On ikidi şam nədən?
O nədi ki, on dördlərin
Damağında tam nədən?
İkram ilə səcdə qılar
Altmış üç adam nədən?

On yeddiynən hesab çəkir,
Qərar gəlib Xudadan.
Otuzuyla bir illiyə
Dövr eləyir xanadan.
Bu "əmma"nı bilənnəri
Hifz edər Xudam – nədən?

Xudam bir dürr xəlq eləyib,
On iki min tağı var.
Neçə yerdə bəyənilmiş,
Müzəyyən otağı var.
Alıyam, hesab çəkirəm,
Mətləbə çatam nədən?

[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.

## SƏDALA TƏK-TƏK[1]

Ruzi bəxş olundu neçə xilqətdən –
İzhar eylə dürüst səd ala tək-tək.[2]
Əhli Asəfi-Kəf nə məkandadı?
Ad, il ünvanların sədala tək-tək.

Kəhkaşanda nə saydadı səyyara?
Həddi Şəmsi-leyli – eylə səyy, ara.
Fəhmandar kim oldu, hansı səyyara?
Dərsi "ila" ilə, səda "la" tək-tək.

Nə məqamda zühur oldu ayin, ə?
Nafileyi rükət neçə ayinə.
Hansı gündə üç səadət, ayi nə?
Alı, itaətdə sə dala tək-tək.

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən (İranda aşıq Zəkiyə deyilən təcnis-bağlamadır)
[2] Yüz neməti tək-tək denən (sadala).

# DEYİŞMƏLƏR

## Aşıq Alının Aşıq Əsmərlə deyişməsi[1]

1

Aşıq Əsmər:
Kəndini laf edib, "aşığam" demə,
Çox sən kimisinə al eylərəm mən.
Zülümnən çəkdirrəm mən səni dara,
O əlif qəddini dal eylərəm mən.
Aşıq Alı:
Bəyənmirsən mənim kimi aşığı,
Bağlayıb dilini lal eylərəm mən.
Səni sallam bir tükənməz odlara,
Yandırıb ataşa kül eylərəm mən.

Aşıq Əsmər:
Mənnən sənə öyüd: can vermə yada,
Çəkdiyin əməklər tez gedər bada.
On səkkiz şəyirdim – hamı şahzada,
Səni də onlara qul eylərəm mən.

Aşıq Alı:
Yaxşı-yaman hər nə desən qanıram,
Eşqin ataşına mən də yanıram.
Mən məhək daşıyam, qəlpi tanıram,
Səni üç qəpiklik pul eylərəm mən.

---

[1] "Aşıq Alının Türkiyə səfəri" dastanından götürülüb.

Aşıq Əsmər:
Mən Əsmərəm, nahax gəlməz dilimə,
Çarə yoxdu haxdan gələn ölümə.
Səni minnəm ulusuma, elimə,
Arpa-samanını bol eylərəm mən.

Aşıq Alı:
Aşıq Alı deyər: təvəkküləm pirimə,
Sığınmışam ol Kərrari-Kərimə,
Küçükləmiş qancıq kimi hürümə,
Axşam-sabah sənə yal eylərəm mən.

2

Aşıq Əsmər:
Arifi-xoşkəlam, tutiyi-imran,
Gəl al məni, mən də sənnən varalım.
Kimdi bu dünyanın axırın görən,
Gəl al məni, mən də sənnən varalım.

Aşıq Alı:
Sənəmlər sənəmi, gözəllər xası,
Necə deyim, sən də mənnən varalı?!
Ayıfdı, aləmə düşməsin səsin,
Necə deyim, sən də mənnən varalı?!

Aşıq Əsmər:
Gövhər gəlib dür mədənin pozubdu,
Yaxşını gətirib pisə yozubdu.
Bəlkə yazan məni sənə yazıbdı,
Gəl al məni, mən də sənnən varalım.

Aşıq Alı:
Bir xalın bəzirgan, bir xalın hacı,
Bir xalın qiymətdə Urum xəracı.
O dünya, bu dünya – sən mənə bacı,
Necə deyim, sən də mənnən varalı?!

Aşıq Əsmər:
Əsmərəm, səniynən olaydım sirdaş,
Ağlaram, didəmnən gedər qannı yaş,
Sən ki, bacı dedin, ol mənə qardaş,
Bir-birini axtaralım, soralım.

Aşıq Alı:
Alı deyir: nə xəyala dolmuşuq,
Heyva kimi saralmışıq, solmuşuq.
İlqar verib bacı-qardaş olmuşuq,
Sən bacımsan, bu ilqarda duralım.

**Aşıq Alıyla Aşıq Yığvalın deyişməsi**

Aşıq Yığval:
O nədi ki, otuzunda cavandı,
On beşində qocalayar, uludu?
O nədi ki, dili ayrı, sözü bir,
Hansı dərya hər dəryadan doludu?

Aşıq Alı:
O Aydı ki, otuzunda cavandı,
On beşində qocalayar, uludu.
O qələmdi, dili ayrı, sözü bir,

Elm dəryası hər dəryadan doludu.

Aşıq Yığval:
O nədi ki, qışda dağlar bürünər,
O nədi ki, əl dəyməmiş hörülər,
O nədi ki, əmanətən verilər,
O nədi ki, o da onun gülüdü?

Aşıq Alı:
O qardı ki, qışda dağlar bürünər,
O könüldü, məhəbbətlə hörülər.
Ruh insana əmanətnən verilər,
O ilqardı, iman onun gülüdü.

Aşıq Yığval:
O nədi ki, haqq yanında nahaqdı,
O nədi ki, yerə-göyə dayaqdı.
O kimdi ki, yatmayıbdı, oyaqdı,
Aşıq Yığval hər elmdən halıdı.

Aşıq Alı:
Böhtan sözdü – haqq yanında nahaqdı,
Haqq nəzəri yerə-göyə dayaqdı.
Haqqın özü yatmayıbdı, oyaqdı,
Bu sözləri açan Aşıq Alıdı.

## Aşıq Sona ilə deyişmə[1]

Aşıq Sona:
Mən bir sular sonasıyam,
Meylim göllərə-göllərə.

[1] Aşıq Alının bacısı (Pəri) nəvəsi Səməd İsmayıloğlunun arxivindən. - Bu deyişməni Aşıq Alı Naxçıvan səfərində Aşıq Sona adlı xanımla etdiyi rəvayət edilir.

Tut qolumdan, apar məni
Sizin ellərə-ellərə.

Aşıq Alı:
Badi-səba, ərzim budu:
Dəymə tellərə-tellərə.
Seyrəqubu zəlil olub,
Düşsün əllərə-əllərə.

Aşıq Sona:
Qıyma nadana tuş olam,
Qanadı sınmış quş olam,
Sığal çəkəsən, xoş olam –
İpək tellərə-tellərə.
Aşıq Alı:
Qarşıdakı sarı laçın,
Fələk qoymur qəddim açım.
Gəl, səni götürüm, qaçım
Bizim ellərə-ellərə.

Aşıq Sona:
Sona bəhrə-barın olar –
Cavanlıqda yarın olar,
Qocalıqda qarın olar,
Salma çöllərə-çöllərə.

Aşıq Alı:
Alı deyər, bir gül əkdim,
Gülün çox cəfasın çəkdim –
İllərinən gözüm dikdim
Sizin yollara-yollara.

# SÖZLÜK

**Şahi-şonqar** – İbrətamiz rəvayətə görə keçmişdə quşların padşahı olmuş quş. Onun vəziri tərlan, vəkili qırqovul, məsləhətçisi isə qartal olur. Bir gün Şahi-şonqar quş bərk acıqlanır, vəzir-vəkilini, məsləhətçisini qovur. Ala qarğanı özünə vəzir, qara qarğanı vəkil, quzğunu məsləhətçi götürür. Bundan sonra vəzir-vəkilinin məsləhətinə qulaq asır və tələyə düşür.

**Əyyub** – Dini rəvayətə görə həzrəti Əyyub böyük ilahi peyğəmbərlərdən biri olmuşdur. Allah-təala ona çoxlu mal və qüdrətli övladlar vermiş, daha sonra onu sınaqdan çıxarmaq, dözümünü yoxlamaq üçün onların hamısını onun əlindən almış, özünü isə ağır xəstəliyə düçar etmişdi. İmtahan və bəla dövrü bitdikdən sonra Əyyubun göstərdiyi heyrətamiz səbrə görə Allah-təala bütün mal-dövlət və övladlarını, hətta ondan da artığını ona qaytarmışdır. Aşıq Alı "Mənəm" şeirində Əyyub peyğəmbərin sınaq dövründə çəkdiyi əzablara işarə edir.

**İsmi-əzəm** – Dini mənbələrdən məlum olur ki, Allahın adlarından biri bütün adlar içindən seçilmiş və üstündür. Onun xüsusiyyətləri haqqında məlum olan budur ki, həmin ad Allahın bütün zatını, bütün sifətlərini özündə ehtiva edir. Həm də bu, Allahın ən çox sevdiyi və çağrılmaq istədiyi addır. Allahın bu adına "ismi-əzəm", yəni ən böyük, ən əzəmətli ad deyirlər. "Qırmızı" divanisində "İsmi-əzəm" duasından söz edilir.

**Züleyxa** – Yusifin sevgilisi, Misir hakiminin arvadı

**Şahi-Mərdan** – İmam Əlinin adlarından (ləqəblərindən) biri

**Pirim Şahi-Mərdan** – İmam Əlinin adlarından (ləqəblərindən) biri

**Əhmədi-muxtar** – İslam peyğəmbərinin adlarından biri

**Heydəri-kərrar** (ə.) – İslam peyğəmbərinin dönməzliyinə görə İmam Əliyə verdiyi ləqəb

**Şahi-Heydər –** Həzrət Əliyə işarə

**Alosman** – El Osman, Türkiyə

**Hatəm** (ə.) – ərəb əsatirində çox səxavətli bir adamın adı, comərd, əliaçıq, səxavətli

**Nuh Nəbi** – Nuh peyğəmbər, eyni zamanda bir şeyin qədimliyini bildirəndə "Nuh Nəbidən ("Nuhdan", "Nuh əyyamından") qalma" deyirlər

**Mövla** – Allah (Bilin ki, Allah sizin mövlanızdır. O, nə gözəl mövla, nə gözəl yardımçıdır. Ənfal surəsi: 40), sevgili, əziz, əfəndi

**Şiri yəzdan** – İmam Əlinin adlarından (ləqəblərindən) biri

**Pənci-ali Sahibzaman** – peyğəmbər ailəsi: peyğəmbər, imam Əli, Fatimə, Həsən və Hüseyn

**Gəz** – haça, dağın haçası, yayda ox atılan yer, ağacın haçasına da gəz deyilir, tənəyin (üzümün) əlçatmaz yerindən salxımı üzən haça çubuğa da gəz deyilir

**Buta** – burda sevgili, qönçə, badamabənzər naxış növü, ornament sənətinin çox yayılmış bəzək elementlərindən biri, folklorda yuxuda olan gənc oğlan və qızın gözünə sevdiklərinin şəklinin görünməsi hadisəsi, ilahi eşqin, şairliyin verilməsi, Qarabağda butalanmaq – yəni ev olmaq, bir yerə sığınmaq mənası da var.

**Buraq** – Məhəmməd peyğəmbəri Meraca aparan məxluq. Buraq sözü ərəbcə «ildırım sürətli» deməkdir. Rəvayətə görə Buraq Məhəmməd peyğəmbəri bir göz qırpımında Məkkədən Qüdsdəki Əl-Əqsa məscidinə çatdırmış, sonra səmaya qalxmışdır.

**Tar** – dağın sinəsində üst-üstə yağan qar qış boyu soyuq havada buz bağlayır (donur) və həmin üstdən yağan qar ancaq donmaq hesabına dayanır, torpaq üstə dayağı olmur. Yaz gələndə istidən əriyən qar böyük kütlə ilə uçub aşağı hellənir. Bu hadisəyə tar (qar uçqunu) deyilir.

**Sədri-əzəm** (ə.) – Sultan Türkiyəsində baş nazir, hökumət başçısı

**Əliyi İmran** – İmranın oğlu Əli (İmam Əlinin atası)

**Keykavus –** Qədim İran Sasani hökmdarı

**Şəmsülməlik** – Şərq hökmdarı

**Əntər** – Ərəb dastan qəhrəmanı

**Çunqur** – tunç və dəmirdən hazırlanıb hərb zamanı toxmaqla içərisinə vurarkən səs çıxaran alət.

**A**

Ayə (ə.) – əlamət, nişan, quran surələrindəki cümlələrin hər biri

An (f.) – gözəl, ürəyəyatan, gözəşirin

Ahən(f.) – dəmir

Abi-kövsər (f., ə.) – dini əfsanəyə görə guya cənnətdə olan bir çayın suyu

Asi (ə.) – itaət etməyən, üsyançı, günahkar

Abü-tab (Abü tab, f.) – təmtəraqlı, dəbdəbəli

Aşüftəhal (f., ə.) – halı pozğun, bikef, həyəcanlı

Abdal (ə.) – dərviş, qələndər

**B**

Badi-səba (f.) – səhər yeli

Bəzirgan (f.) – tacir

Bərf (f.) – qar

Behişti-qılman (f., ə.) – cənnət xidmətçiləri

Balü-pər (f.) – qol-qanad, əl-qol

Behişt (f.) – cənnət

Bihudə (f.) – boş, faydasız

Bivayə (f.) – hər şeydən məhrum olan, heç bir şeyi olmayan

Beytülhəzən (ə.) – qəm evi

Beytüllah (ə.) – Allah evi (Kəbə və Məkkəyə verilən ad)

Bərhəqq (f.) – haqq üzrə, düz, doğru

Bədəfkar (f.) – pis fikirli, pis niyyətli, pis məqsədli

Bədmehr (f.) – mehrsiz, məhəbbətsiz, kinli, acıqlı

Bar-İlahi (ə.) – nida; Ay Allah, ilahi, ey tanrı mənasında xitab

Barkeş (f.) – yükdaşıyan, yükçəkən, ağır şey qaldıran

**C**

Cünun (ə.) – dəlilik, dəli olma,

Cövlan (ə.) – dolanma, hərlənmə, gedib-gəlmə

Cövr (covr., ə.) – incitmə, zülm, cəfa

Cüda (f.) – ayrı, ayrılmış, uzaq düşmüş

Cəlil (ə.) – böyük, uca, yüksək; hörmət sahibi
Cəmil(ə) (ə.) – qəşəng, göyçək, gözəl
Cam (i) (f.) – qədəh, kasa, piyalə
Cansitan (f.) – can alan (Əzrayıl), öldürücü, iti qılınc
Cana (f.) – canım, əzizim, sevgilim
Cəhlkar (ə., f.) – anlamaz, anlamayan, kəc, tərs
Cəm (ə.) – bütün, hamı
Cəbbar (ə.) – Allah
Cifə (ə.) – leş, var-dövlət, sərvət

**Ç**

Çərxi-cəfadar (f.) – vəfasız, zülm və əziyyətli dünya
Çərxi-pir (f.) – qarımış fələk, qoca dünya
Çərçi – köhnə imlamızda gəzərgi alver edən, alverçi
Çeşmi-çırağı (f.) – əziz, göz bəbəyi qədər sevimli
Çeşmi-xumar (f.) – xumar gözlü
Çar (f.) – dörd, fəlsəfədə dörd ünsür: torpaq, su, hava, od

**D**

Dəhan (f.) – ağız
Dəhr (ə.) – zaman, dövr, dünya, aləm, puç , fani dünya
Dəhri-cəfa (ə.) – zəmanədən gələn cəfa, əziyyət
Dəhri-cifə (ə.) – dünya malı, var-dövlət
Dana (f.) – alim, çox bilikli
Damı (f.) – cəhənnəm
Dam (f.) – ev heyvanı, heyvan
Dər (f.) – qapı
Dər (f.) – çox bilikli adam
Dərdü-möhnət (f., ə.) – zəhmət, əziyyət, qayğı, ağırlıq
Dar (ə.) – yer, məkan, dünya
Dəşt (f.) – səhra, çöl, biyaban
Dəndanə (f.) – diş, diş-diş (mişar, daraq, dəyirman və s.-də)
Davat (qələm-davat) – mürəkkəb qabı (qələm və mürəkkəb qabı)

Dara (f.) – sahib, malik, malik olan, hökmdar

Dəng (f.) – huşunu itirmə, başağrısı

Damən (f.) – ətək

Dürəfşan (ə.) – dürr yağdıran, dürr saçan

Dilxah (f.) – ürək sevən, könül istəyən

Dandil – beşik

Dəd (f.) – ovlaq, yırtıcı heyvan

**E**

Eyn (ə.) – göz, çeşmə, bulaq

**Ə**

Əsəl (ə.) – bal

Ərş (ə.) – çox uca göy, səma, fələk,

Əbru (f.) – qaş

Əllaf (ə.) – ələf, ot satan, arpa, buğda alveri edən tacir

Əbrişin – ipək parça

Əsar (ə.) – qiymət, əsrlər, dövrlər

Əsvəd (ə.) – qara

Əzvac (ə.) – cütlər, cüt şeylər (burda: ər-arvad)

Ərbabi-süxən (f.) – söz ustaları, natiqlər

“Əmmə” – Quranda surə adı

Ənasir (ə.) – dörd ünsür – torpaq, su, od və hava

Ərac (ercaf, ə.) – yalan, şayiə

**F**

Firudin (füruüddin, ə.) – islamda dini göstərişlər (ikinci dərəcəli)

Fəna (ə.) – yox olma, yoxluq, fanilik, ölmə, sönmə

Firqət (ə.) – ayrılıq

Faili-muxtar (ə.) – öz işində ixtiyar sahibi olan, işini bilən

Fəhm (ə.) – anlayış, anlaq, idrak, zəka, anlama

Firqət (ə.) – ayrılıq

Fərmandar (f.) – əmr verən, hökmü keçən

Fəzl (fəzil., ə.) – ləyaqətli, üstün, məziyyətli

Fərz (ə.) – vacib, zəruri olan işlər (dini)

**G**

Göftar (f.) – söhbət, söz, mövzu

Gəşt (f.) – gəzmə, gəzinti, seyr

Gülgəz – qırmızı, al

Gövhərkan (f.) – daş-qaş mədəni

Guş (f.) – qulaq, diqqət

Guşeyi-izlət (f.) – tənhalıq guşəsi

Gərdiş (f.) – gəzmə, dolanma, zəmanə

Gərdən (f.) – boyun

**H**

Həbib (ə.) – sevilən, sevgili, dost

Hərcayı (f.) – avara, sərsəri, veyil, heç bir işlə məşğul olmayan

Həzarat (ə.) – həzrətlər, ağalar, cənablar

Həcər (ə.) – qiymətli daş, əqiq

Həmdü-səna (ə.) – mədh, dua, tərif, öymə, şükür, təşəkkür

Hüveyda (f.) – bəlli, aşkar, zahir

Hərras (ə.) – əkinçi, rəncbər

Hamidar (ə., f.) – kömək edən, əl tutan

Halət (ə.) – hal, surət, vəziyyət, keyfiyyət

Həzar (f.) – min (say)

Həzar (f.) – bülbül

Hadd (ə.) – ucu şiş, iti, kəskin, kəsici, sərt, çox təsirli

**X**

Xabi-qəflət (f.) – qəflət yuxusu, cəhalət

Xab (f.) – yuxu, röya

Xak (f.) – torpaq, toz

Xüms (ə.) – gəlirin beşdə biri qədər verilən dini vergi

Xoryad (xoyrad) – tərbiyəsiz, qaba

Xənnas (ə.) – iblis, şeytan

Xaliq (ə.) – xəlq edən, yaradan, yaradıcı

Xar (f.) – tikan, zəlil, həqir, alçaq
Xaki-yeksan (f.) – büsbütün dağıtmaq, yerlə bir eləmək
Xaki-bad (f.) – torpaq, külək, yel
Xəlil (ə.) – dost, yaxın, yoldaş, sevgili
Xürrəm (f.) – sevinc, şad, şən
Xişm (f.) – acıq, qəzəb, hiddət (burada – hücum)
Xara (f.) – ipək parça
Xabi-əcəl (f.) – əcəl yuxusu, ölüm
Xədəng (f.) – ox
Xəyyat (ə.) – dərzi
Xun (f.) – qan
Xəlic (ə.) – körfəz, boğaz, kanal

**İ**

İqdam (ə.) – təşəbbüs etmə, başlama
İqbal (ə.) – bəxt, tale, işi yaxşı gətirmə

**K**

Kuy (f.) – məhəllə, küçə, keçiləcək yer
Kan (f.) – mədən, mədən quyusu, bir şeyin bol olan yeri, mənbə
Kəc (f.) – əyri, əyilmiş, səhv, xata, tərs, nəhs
Kamana – qövs
Kusi-rihlət (f.) – ölüm çağı, karvan yola düşən zaman çalınan təbil
Kuhkan (kuhkən, f.) – dağ qazan, dağ çapan (Fərhadın ləqəbi)
Kəmərbəstə (f.) – beli bağlı, əmrə amadə
Kargah (f.) – iş yeri, fabrik, emalatxana
Kərd (f.) – edilmiş iş, əməl

**Q**

Qəni (ə.) – varlı, zəngin
Qövl (ə.) – söz, danışıq, söz vermə, vəd etmə
Qərinə (ə.) – zaman, dövr
Qeyrə (ə.) – ondan başqa
Qaibanə (ə.) – gözdən uzaq olan, harada olduğu məlum olmayan

Qəvi (ə.) – qüvvətli, güclü, zorlu
Qəddah (ə.) – pisləyən, eyib qondaran
Qərz (ə.) – borc
Qərzidar (qərzdar ə., f.) –borclu, borclu olan adam
Qəmnak (ə., f.) – qəmli, kədərli
Qaib (ə.) – hazır olmayan, gözdən uzaq olan, harada olduğu məlum olmayan

**L**

Leylü-nəhar (ə.) – gecə-gündüz
Ləb (f.) – dodaq, kənar, sahil, qıraq
Ləşkər (f.) – ordu, qoşun
Lübab (ə.) – xalis, seçilmiş

**M**

Mah-camal (f.) – ay üzlü, ay qabaq
Mahi-taban (f.) – çox işıqlı, süd kimi ay
Mahi-münəvvər (f., ə.) – işıqlı, nurlu, parlaq ay
Mişknab (f.) – müşk kimi təmiz, müşk kimi saf
Mübərra (ə.) – ari, təmiz, eyib və nöqsandan uzaq, şübhədən uzaq
Mədd (ə.) – ərəb əlifbasında əlif hərfini uzadaraq "a" kimi oxumaq üçün hərfin üzərinə qoyulan işarə: uzatma, uzanma (sözü tələffüzdə uzatmaq)
Müxənnət (ə.) – namərd, etibarsız
Mürğ (f.) – quş, könül quşu, ürək, xoruz
Mürği şəmistan (f., ə.) – günəşə aid quş, günəş quşu
Mazarrat (osmanlı türkcəsi) – zərər verən, ziyanlıq edən
Mah (f.) – ay, aypara, hilal
Müstəcəb (ə.) – istəyi yerinə yetirilən, xahişi qəbula keçən
Müddəi (ə.) – iddia edən adam, iddiaçı, haqsız yerə bir şey tələb edən, rəqib, ictimai ittihamçı
Müştaq (ə.) – arzulayan, can atan, həsrət çəkən
Mərəkə (ə.) – dava meydanı, müharibə, döyüş, izdiham

Mina (f.) – şüşə, büllur, şir, rəngarəng şüşə, dişin mina qatı
Mina – Məkkə şəhəri yaxınlığındakı Mina dağı
Mərtubat (ə.) – yaş, nəm, rütubətli
Mur (f.) – qarışqa
Mar (f.) – ilan
Münəvvər (ə.) – işıqlı, nurlu, işıqlandırılmış, nurlandırılmış
Münkər (ə.) – inkar olunan, tanınmayan, rədd edilən, şəriətcə qadağan edilən, ölüləri sorğu-sual edən mələklərdən biri
Munis (ə.) – hər kəslə isinişən, istiqanlı, adama yovuşan
Mürtədd (ə.) – dönük, məsləkindən dönmüş
Mürdədil (f.) – qəlbi ölü, ruhsuz, daş ürəkli, rəhmsiz
Məkkarə (ə.) – hiyləgər, aldadan, bic
Məsərrət (ə.) – şadlıq, sevinc, şənlik
Məsiyət (ə.) – günah
Mehparə (mahparə, f.) – ay parçası, gözəl
Mövt (ə.) – ölüm
Müttəsil (ə.) – daimi, həmişəlik, ara vermədən, ardı-arası kəsilmədən
Müzəyyən (ə.) – bəzənmiş, zinətli, bəzəkli
Müfsid (ə.) – fəsad törədən, fitnəçi, araqarışdıran
Məzac (mizac, ə.) – xasiyyət, təbiət, temperament, hal, əhval
Müsəlsəl (ə.) – silsiləli, silsilə şəklində, zəncir kimi bir-birinə bağlı, arasıkəsilməz

**N**

Nasağı (nəsəq, ə.) – yol, üsul, qaydalar
Nakəs (f.) – alçaq, insaniyyətsiz, mürüvvətsiz
Növrəst (f.) – həddi-buluğa çatmış oğlan və qız
Nobahar (f.) – ilk bahar, yazın əvvəli
Nəccar (ə.) – dülgər, xarrat
Nar (ə.) – cəhənnəm, od, atəş
Nari-niran (ə.) – od, cəhənnəm odu
Nabina (f.) – kor, gözü görməyən

Nəmək (f.) – duz
Nübüvvət (ə.) – peyğəmbərlik
Nadidə (f.) – görülməmiş, misli-bərabəri olmayan, qiymətli, az tapılan
Növhəkər (ə., f.) – ağıçı, növhə oxuyan
Nisar (ə.) – qurban, səpələmə, dağıtma, saçma, toyda şabaş edilən pul

**P**

Payəndaz (f.) – ayaq altına salınan, ayaq altına atılan şey, peşkəş, hədiyyə, bəxşiş
Pasiban (f.) – gözətçi, qarovulçu
Pirim –ustad, xoca (xitab mənasında)
Piran (piranə, f.) – qoca, çox qoca
Püli-sirat (f.) – sirat körpüsü (dini əfsanəyə görə, qiyamətdə imtahan üçün hamının keçəcəyi qıl körpüsü)
Püştü-pənahı (f.) – arxa, söykənəcək (arxalanmaq, sığınacaq)
Peyman (ə.) – əhd, iqrar, söz vermə
Pürğəm (ə.) – qıvrım-qıvrım, çox bükümlü, əyri-üyrü, çox qıvrım, beli bükülmüş
Pür (f.) – dolu, dolğun, çox
Pəjmürdə (f.) – bürüşük, bürüşmüş, əzgin, solğun, solmuş
Pərəstar (f.) – xidmətçi, qul
Pürsəda (f., ə.) – gurultulu, gurlayan, məşhur, adlı-sanlı
Pust – köhnə imlamızda dəri, cild mənasında işlənib
Pürməlal (f., ə.) usandırıcı, cansıxıcı, kədərli, qəmli

**R**

Rəxti-xabım (rəxtxab, f.) – yataq, yorğan-döşək
Rübənd (f.) – üz örtüyü (qadınlarda)
Rəvan (f.) – hazırlanmış, əzbərlənmiş, axan, gedən, həyat, diri
Rah (f.) – yol, məslək, üsul, mahnı
Rah (ə.) – şərab, çaxır, sevinc, kef
Rubah (f.) – tülkü, qorxaq, ikiüzlü
Rizvan (ə.) – Cənnət gözətçisi və qapıçısı olan mələyin adı, behişt
Ruzədar (f.) – oruc tutan

**S**

Sünnət (ə.) – qayda, qanun, uşaq kəsdirmə, sünnət etmə

Suliddin (üsul, ə.) – qanun, prinsip (islamda birinci dərəcəli qanunlar)

Seyraqub (seyrəqib, f.) – it xasiyyətli, qapağan, özgə işinə qarışan

Səxa (səxi, ə.) – əliaçıq, comərd, səxavətli

Sədəf (ə.) – içindən inci çıxan dəniz böcəyi, həmin böcəyin qabığı

Sər (f.) – baş, kəllə, təpə, zirvə, başçı, rəis, uc, kənar, son, nəhayət, ibtida, əvvəl, həyat, varlıq, can

Sərhesab (f., ə.) – bir işdən xəbərdar olma, muğayat olma, başa çıxma

Siyah (ə.) – qara rəng, pis, xoşa gəlməyən

Sədr (ə.) – döş, sinə, ürək, qəlb

Sin (ə.) – ərəb əlifbasında hərf, bismillah sözünün ixtisarı

Sin – qəbir, gor, məzar

Sinn (ə.) – adamın yaşı

Sovma (sovm, ə.) – oruc

Səlat (ə.) – namaz, dua

Səbat (ə.) – sabit və bərqərar olma, sözündən, iqrarından dönməmə, mətanət

Sirat (ə.) – yol, dini əfsanəyə görə cəhənnəm üzərində qurulmuş qıl körpü

Sənələr – illər

Sitarə (f.) – ulduz

Səng (f.) – daş

Səngi-ahən – daş-dəmir

Sərgəştə (f.) – heyran, çaşmış, başını itirmiş

Səna (ə.) – tərif, mədh, öymə

Səbahət (ə.) – gözəllik, hüsn, lətafət

Seyf (ə.) – qılınc

Səngisar (səngsar, f.) – daşqalaq

Süxənbər (süxənvər, f.) – söz ustası, gözəl danışan

Sərih (f.) – açıq, aydın, aşkar, açıqdan-açığa, şəkk-şübhəsiz

Səll (ə.) – siyirmə, çəkmə (qılınc, xəncər)
Saqinamə (ə.) – qədim şairlərin saqiyə xitabən yazdıqları qəsidə, mənzumə
Sərbəstə (f.) – başıbağlı, örtülü
Sübh-sadiq (sübhi-sadiq, f.) – dan yeri sökülən vaxt
Süha (ə.) – göyün şimalında görünən kiçik ulduz
Süheyl (ə.) – cənubda görünən parlaq ulduz
Səbi (ə.) – məğlub edilmiş düşməndən əsir tutulub satılan adam
Səmin (ə.) – qiymətli, bahalı
Simü-zər (f.) – qızıl, gümüş
Səri-kuy (f.) – küçənin (məhəllənin) başı
Sövt (ə.) – 1. səs, səda; 2. səhifə, kitab
Simənbər (siminbər, f.) – sinəsi və bədəni gümüş kimi ağ

**Ş**

Şəms (ə.) – günəş, gün
Şəmşir (f.) – qılınc
Şahpər (f.) – quşun qanadı, lələk
Şəcər (ə.) – ağac
Şərm (ə.) – utanma, həya, xəcalət
Şərmü-xəta – utanacaq, səhv bir iş tutmaq
Şahad – dəyirmanda üyüdülən dənə görə alınan haqq
Şadnak (f.) – kefi kök, şad
Şəst (f.) – zülf, saç hörüyü, neştər, baş barmaq, balıq tilovu, mizrab, tar simi, saz teli, sim, kəmənd
Şəbistan (f.) – yataq otağı, hücrə, şahların hərəmxanası
Şahbaz (f.) – tərlan, şahin
Şəbahət (şihab, ə.) – alov, şölə, od parçası (burada – oxşarlıq, bənzərlik)

**T**

Tavar – tərlanın dişisi, fərə
Təzənə (taziyanə, f.) – sümük və buynuzdan hazırlanmış mizrab nəzərdə tutulur

Təng (f.) – darıxmış, bezmiş, usanmış
Türfə (ə.) – tapılmayan, misli-bərabəri olmayan, nadir, qəribə, əcaib
Təqdir (ə.) – qədər, qismət, alın yazısı
Tərəhhüm (ə.) – rəhmetmə, yazığı gəlmə, acıma
Tir (f.) – yaydan atılan ox
Təqlil (ə.) – azaltma, aşağı endirmə
Tənəf (tənab, ə.) – ip, örkən
Təhrik (ə.) – hərəkət etdirmə, qımıldatma, bir işə çəkmə, təşviq etmə, ərəb qrammatikasında hərəkətsiz hərfi hərəkətləndirmə
Təğyir (ə.) – başqalaşma, dəyişmə, pozma, xarab etmə
Tərdəst (f.) – cəldlik, əldənitilik, diribaşlıq

**Ü**

Üqba (ə.) – axirət, o biri dünya
Üns (ə.) – alışqanlıq, alışma, ülfət, uyuşma
Üryan (ə.) – lüt, çılpaq

**Y**

Yetmiş iki dil – dünya dilləri nəzərdə tutulur, saz havalarına işarə anlamı da var

**Z**

Zənbur (ə.) – arı
Ziba (f.) – bəzəkli, zinətli, yaraşıqlı, gözəl
Zəban (f.) – dil
Zər-ziba (f.) – bərbəzək, güləbətin və zərlə tikilmiş və ya toxunmuş bəzəkli paltar
Zülf (f.) – saç, tel, üzün iki tərəfindən sallanan hörüklər
Zülfiqar (ə.) – ucuhaça qılınc, şiələrin birinci imamı Əlinin ləqəbi
Zəxm (f.) – yara, yaralama
Züllah (zillullah, ə.) – allahın kölgəsi, himayəçi, hami
Zərnişan (f.) – zərlə işlənmiş (parça)
Zülcalal (ə.) – cəlal sahibi
Zərd (f.) – sarı (rəng)

Aşıq Alının bacısı Pərinin nəvəsi Qəribov Səməd İsmayıl oğlunun (Gədəbəyin Slavyanka kəndində yaşayıb) Bərdənin Otuzikilər kəndində yaşayan xalası nəvəsi Ələşrəfə (şair Telman Hüseynin dayısı) yazdığı məktublardan 2-sinin şəklini burda verməyi lazım bildik.


Әләшрәф бајрамыныз мүбарәк
олсун. Мәни бағышла кәлә
билмәдим. Бир балаҹа ағрыјы-
рам. Бир дә кәләндә Алыдан
чохлу шеир кәтирәрәм. Инди
башым гарышыгды. Мәндән
салам сөјлә гоһумларын
һамсына. Ирзаја. Аллаһвердијә
Телмана.
Сизи унутмајан Гәрибов
Сәмәд

Mətn olduğu kimi:

*Ələşrəf bayramınız mübarək olsun. Məni bağışla gələ bilmədim. Bir balaca ağrıyıram. Bir də gələndə Alıdan çox-lu şeir gətirərəm. İndi başım qarışıqdı. Məndən salam söylə qohumların hamsına. İrzaya, Allahverdiyə Telmana.*

*Sizi unutmayan Qəribov Səməd*



Салам Әләшрәф
Ҝәләндән ајағым ағрыјыр. Өзүм хәстәјәм. Һеч јана ҝедә билмирәм. О дедијими дә тапыб јахшы олсам ҝәтирәрәм.
Сағ ол.
Мәндән салам сөјлә Телмана, Чалала, бүтүн гоһумлара.
Орда нә вар нә јох.
Сизи унутмајан Гәрибов Сәмәд.
Ашыг Алынын Ҝәлибди бағламасыны вә Јүкүм диванисини сизә ҝөндәрирәм.

Mətn olduğu kimi:

*Salam Ələşrəf*

*Gələndən ayağım ağrıyır. Özüm xəstəyəm. Heç yana gedə bilmirəm. O dediyimi də tapıb yaxşı olsam gətirərəm.*

*Sağ ol. Məndən salam söylə Telmana, Calala, bütün qohumlara. Orda nə var nə yox.*

*Sizi unutmayan Qəribov Səməd.*

*Aşıq Alının Gəlibdi bağlamasını və Yüküm divanisini sizə göndərirəm.*

# MÜNDƏRİCAT

Könül işi (Ön söz) ........................................ 5

## Ustadnamələr

Dərindi ........................................ 30
Yaxşıdı ........................................ 31
Söz oldu ........................................ 32
Bu gün ........................................ 33
Nə qaldı ........................................ 34
Nə qaldı ........................................ 35
Dolandırır ........................................ 36
Dolandırır ........................................ 37
Köçəcək ........................................ 38
Gərək ........................................ 39
Gərək ........................................ 40
Alar ........................................ 41
Lazımdı ........................................ 42
Tapar ........................................ 43
Dayanmaz ........................................ 44
Düzəldər ........................................ 45
Olar ........................................ 46
Aralanmasın ........................................ 47
Mənəm ........................................ 48
Düşər ........................................ 49
Bilməzsən ........................................ 50
Eylə ........................................ 51

Asan ........................................................................ 52
Bilinməz ........................................................................ 53
Vermə ........................................................................ 54

## Qoşmalar

Gərək ........................................................................ 56
Oldu ........................................................................ 57
Qaldı ........................................................................ 59
Çatarmı? ........................................................................ 60
Düşər ........................................................................ 61
Düzələ bilməz ........................................................................ 62
Yoluna ........................................................................ 63
Dünya ........................................................................ 64
Çay oldu getdi ........................................................................ 65
Olmadı ........................................................................ 66
Bənzərsən ........................................................................ 67
İstər könül ........................................................................ 68
Könül ........................................................................ 69
Sənin ........................................................................ 70
Ağrı dağı ........................................................................ 71
İnciməsin ........................................................................ 72
Gedək ........................................................................ 73
Olmadı ........................................................................ 74
Deyinən ........................................................................ 75
Yadıma düşdü ........................................................................ 76
Aşıq Alı ........................................................................ 77
Yavaş-yavaş ........................................................................ 78
Tək-tək ........................................................................ 79
İstərəm ........................................................................ 80

Ola bilməz ........ 81
Ola bilməz ........ 82
Yetişdim ........ 83
Gətirmə ........ 84
Gedirəm ........ 85
Düşərsən ........ 86
Gözəldi ........ 87
Keçibdi ........ 88
Eyləmə ........ 90
Bəsdi ........ 91
Bəsdi ........ 92
Bəsdi yar ........ 93
Bəsdi ........ 94
Görmüşəm ........ 95
Dönübdü ........ 97
Oldu ........ 98
Düşər ........ 99
İncimərəm ........ 100
Ağlaram ........ 101
Mənəm ........ 102
Qurbandı ........ 103
Yazdım ........ 104
Soruşma ........ 105
Getdi ........ 106
Qalmadı ........ 107
Olgunan ........ 108
Deyirəm ........ 109
Amandı ........ 110
Mədinə ........ 111
Yaylaq ........ 112

Gözəllər ........ 113
Qocalmışam ........ 115
Olacaqdı ........ 116
Olmaz ........ 117
Görmədim ........ 118
Gərək ........ 119
Özümüz ........ 120
Gözəllər ........ 121
Yandı ........ 122
Çalım ........ 123
Sarıköynək ........ 124
Həcərə ........ 125
Tərk elə ........ 126
Yetişdi ........ 127
Neynər ........ 128
«Əlif», «bey»i, «qayın»ı ........ 129
Eylər-eylər ........ 130
Göz ........ 131
Qaşların ........ 132
Olsun ........ 133
Dəlidağ ........ 134
Dağlar ........ 136
Dağlar ........ 138
Dağlar ........ 139
Keçdi ........ 140
Getdi ........ 141
Var ........ 142
Aşığı ........ 143
Keçdi ........ 144
Apardı ........ 145

Olmaz ........ 146
Salıbdı ........ 147
Qadasın aldığım ........ 148
Zamanıdı ........ 149
İtibdi ........ 150
Məni ........ 151
Sürüdü ........ 152
Dərdimi ........ 153
Tapılmaz ........ 154
Neyləyim ........ 155
Yeri ........ 156
Gülöyşə ........ 157
Zərnişan ........ 159
Yetmədim ........ 160
Dünya ........ 161
Düşdü ........ 162
Hələ ........ 163
Mələk ........ 164
Keçdi ........ 165
Bax ........ 166
Düşmüşəm ........ 168
Kəsildi ........ 169
Məni ........ 170
Tanıram ........ 171
Çəkməyə ........ 172
Yazdım ........ 173
Gərəkdi ........ 174
Əvəzində ........ 175
Olmuşam ........ 176
Görmədim ........ 177

Düşmüşəm........................................................................178
Bilmərəm........................................................................179
Gəlmişəm........................................................................180
Deyərlər........................................................................181
Yetirdin........................................................................182
Şafada........................................................................183
Züleyxa........................................................................184
Tükəzban........................................................................185
Dolanım........................................................................186
Bu yerə........................................................................187
Alı........................................................................188
Ay Sona........................................................................189
Eylər........................................................................190
Olmuşam........................................................................191
Sazım........................................................................192

## Güllü qafiyə

Dedi........................................................................194
Get-get........................................................................195

## Gəraylılar

Adıdı........................................................................198
Nə miqdarı, dilbər........................................................................199
Zarınandı........................................................................200
Gözlərəm səni........................................................................201
Tellərə-tellərə........................................................................202
Olmur........................................................................203
Dağlar qoynunda-qoynunda........................................................................204

Təbriz gözəli ....................................................................205
Ölürəm ..........................................................................206
Oldu ..............................................................................207
Oldu...............................................................................208
Oldu...............................................................................209
Eyləsin...........................................................................210
Dövran...........................................................................211
Birisin............................................................................212
Qazanar .........................................................................213
Ellərdi............................................................................214
Qaldı..............................................................................215
Döndüm.........................................................................216
Dağlar bizim dağlarmola...............................................217
Səninlədi .......................................................................219
Öldürür..........................................................................220
Əlif-lam.........................................................................221

## Cinas gəraylılar

Oyanam mən ..................................................................224
Yar, alma dan.................................................................225
Araza da ........................................................................226
Birisinə..........................................................................227
Yar atalı ........................................................................228
Yar, ay ağa.....................................................................229
Qaralma, dan .................................................................230
Sona, Ceyran..................................................................231
Qala yaxşı......................................................................232
Yarı yandı......................................................................233
Üzdən, üzdən.................................................................234

Sayana, xanım ........................................ 235
Balaxanım ........................................ 236

## Ayaq təcnislər

Ay üzə-üzə ........................................ 238
Ay ağa, haray ........................................ 239
Dolandı ........................................ 240
Gözdə gözü sən ........................................ 241
Dal dala ........................................ 242
De bir üz-bir üz ........................................ 243
Birisin ........................................ 244
Ayilə ilə ........................................ 245

## Cığalı təcnislər

Başa-baş ........................................ 248
Nə qaram indi ........................................ 250
Ay, ağa səni ........................................ 252
Yana yar ........................................ 253
Yayinə mən də ........................................ 255
Üz üzə indi ........................................ 257
Ha dala, dala ........................................ 259
Baxdı, yara bağladı ........................................ 261

## Təcnislər

Ağ damar, damar ........................................ 264
Damı dayansın ........................................ 265

Dal-dala ....................................................................................266
Ay ağ almasın ..........................................................................267
Ay ağı belə ..............................................................................268
Dolana dağlar ...........................................................................269
Yarasan məni.............................................................................270
Ay beləsi nə...............................................................................271
Dala yay indi .............................................................................272
Bir inci ......................................................................................273
Bu dağlar məni ..........................................................................274
Bilsin – əmindi ..........................................................................275
Din cəlil.....................................................................................276
Qaralı, gəl-gəl ...........................................................................277
Nə dana belə..............................................................................278
Yara dan söylə ...........................................................................279
Nara-nar ....................................................................................280
Tər saya yaxşı ...........................................................................281
Qala qalmaya ............................................................................282
Qalada yanmaz..........................................................................283
Daşınan .....................................................................................284
Nə gözəl, gözəl..........................................................................285
Qar, ayaz ...................................................................................286
Yaziqə mindi .............................................................................287
Ha, sarı, dağlar ..........................................................................288
Çataçat.......................................................................................289
O dad, üz qala ...........................................................................290
Ha lalı........................................................................................291
Qalaca nanı................................................................................292
Oyan, ay ana..............................................................................293
Ha belə başda ............................................................................294
Tanıdar məni .............................................................................295

Ay ağam, indi ........................................................................296
Sanasan məndə.....................................................................297
Canalı yaylaq ........................................................................298
Ata bilməzsən.......................................................................299
Qaralar səni...........................................................................300
Bu dağı seçər.........................................................................301
Ay sərin-sərin .......................................................................302
Sədaqətindən.........................................................................303
Ha belə-belə .........................................................................304
Ağla məni sən .......................................................................305
Ayə cəm eylər .......................................................................306
"Hey" ata-ata.........................................................................307
Sənə də keçər.........................................................................308
Bir gözə ləli...........................................................................309
Ay üzə-üzə.............................................................................310
Ayə məndədi .........................................................................311
Ya dəli dəysə.........................................................................312
Bud, ağa ...............................................................................313
Hey dərə bir .........................................................................314

**Dodaqdəyməz təcnislər**

Ay eylər qıj-qıj ...................................................................316
Aranı tez-tez.........................................................................317
Ayalı keçdi ...........................................................................318
Ha qala, qala.........................................................................319
Daldala, keçsin......................................................................320
Yaralar yarı...........................................................................321

## Dodaqdəyməz cığalı təcnislər

Yara yar ............ 324
Nə yaxşı yara ............ 326
Yarasa, səni ............ 328

## Divanilər

Dilimiz ............ 332
Yüküm ............ 333
Bax ............ 334
İşi nədi ............ 335
Danış ............ 336
Sənəm ............ 337
Gələcək ............ 338
Verir ............ 339
Nədi ............ 340
Yalvarıram ............ 341
Qırmızı ............ 342
Bizdədi ............ 343
İstərəm ............ 344
Qocalıq ............ 345
Birdi, bir ............ 346
İkidir ............ 347
Üçədir ............ 348
Dörddür, dörd ............ 349
Beşdi ............ 350
Altıdı ............ 351
Yeddidi ............ 352
Var ............ 353
Yuxusuz ............ 354
Gözlə-gözlə, sən ............ 355

Bu gün ........................................................................ 356
Gəl ............................................................................ 357
Verir .......................................................................... 358

**Qəzəl**

"Yeri-göyü xəlq eyləyən, bu mövhu-məvraya gəl" ....... 360

**Qıfılbənd və bağlamalar**

Gəlibdi ........................................................................ 364
Qıfılbənd ..................................................................... 365
Nədən ......................................................................... 366
Sədala tək-tək .............................................................. 367
**Deyişmələr** ................................................................ 368
**Sözlük** ...................................................................... 373

Tərtibçiylə əlaqə:
050 647-45-91
ilham.qehreman@gmail.com